Fazil SƏNAN

GÖZLƏ, QAYIDACAĞAM

Fazil SƏNAN

GÖZLƏ, QAYIDACAĞAM

Roman

“Elm və təhsil”
BAKI – 2016

Redaktor: **Sahib İBRAHİMLİ**
Filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi.

Fazil SƏNAN
Gözlə, qayıdacağam (*roman*)
Bakı, "Elm və təhsil", 2016, 184 səh.

İstedadlı yazıçı-publisist Fazil Sənanın ilk irihəcmli əsəri olan «Gözlə, qayıdacağam» romanı müasirlərimizin sərhəd tanımayan məhəbbətindən bəhs edir. Əsər maraqlı kompozisiyaya, oxunaqlı dilə malikdir. Namiq və Ramellanın məhəbbət xəttini Qarabağ hadisələri ilə birləşdirən müəllif igid Azərbaycan oğullarının əbədi, sönməz sevgiyə layiq olduqları və onların Azərbaycan xalqına məxsus müsbət keyfiyyətlərinin genefon vasitəsilə nəsildən-nəslə keçdiyi fikrini əsərin leytmotivinə çevirmişdir.

Ümidvarıq ki, bu əsər oxucuların rəğbətini qazanacaqdır.

$\frac{4702000000 - 40}{N098 - 2016}$ ***qrifli nəşr***

© «Elm və təhsil», 2016

Bu kitabı atam Şirinin, anam Nübarın, həyatdan vaxtsız köçmüş qardaşım Razimin əziz xatirəsinə ithaf edirəm.

MÜƏLLİFDƏN

Taleyim elə gətirib ki, bir çox azərbaycanlılar kimi mən də dost, qonşu dediyimiz nankor ermənilərlə bir kənddə yaşamışam və bir kollektivdə işləməli olmuşam.

«Gözlə, qayıdacağam» kitabımdakı hadisələr reallığa söykənməklə bərabər, uzun illər apardığım müşahidələrin bədii əksidir.

Xain ermənilərin iç üzünü açmaq üçün oxucuların nəzərinə bir hadisənin qısa məzmununu çatdırmağı məqsədəuyğun hesab etdim.

Orta məktəbdə oxuyanda bizə «Rus dili» fənnini erməni müəllim tədris edirdi. Ali məktəbi bitirəndən sonra həmin müəllimlə bir kollektivdə işləməli oldum. İlıq münasibətimiz var idi. Müəllim kimi hörmətini saxlayırdım.

Bir gün həmin müəllim mənə yanaşaraq dedi:

– Ara, Pazil müəllim, (ermənilər "f" hərfini "p" kimi tələffüz edirlər) gedək, sənə bir sirr açacağam.

Söhbət edə-edə «Rus dili» kabinetinə getdik. Kabinetə daxil olduq. Müəllim yavaş səslə danışmağa başladı:

– Ara, Pazil müəllim, mən səni savadlı, həm də düz danışan bir ziyalı kimi tanıyıram və xətrini istəyirəm. Səndən bir şey soruşacağam, amma düzgün cavab ver.

Düzü, təəccübləndim ki, görəsən, müəllim məndən nə soruşacaq?

– Müəllim, narahat olma, nəyi bilirəmsə düzünü deyəcəyəm, – dedim.

Cavabımdan məmnun olan müəllim bir siqaret yandırdı və tüstünü ciyərlərinə çəkib havaya üfürəndən sonra dedi:

– Beyləqan haranındı?

– Başa düşmədim? "Beyləqan haranındı" nə deməkdi?

– Ara, burda başa düşülməyən, qaranlıq nə var? Yaşadığımız bu Beyləqan rayonunun ərazisi tarixən haranın ərazisi olub?

Hiddətimi gizlədə bilməyib dedim:

– Siz orta məktəbdə mənə dərs demisiniz. Demək, hələ indiyə kimi Kəbirli kəndinin yaxınlığında olan qədim Beyləqan şəhərinin xarabalıqlarını görməmisiniz? Hər il payız fəslində əmənkömənci yığmaq üçün yanına maşınla getdiyiniz şəhərin haranın olmasını bilmirsiniz? Guya Mücirəddin Beyləqani kimi böyük bir şairi ədəbiyyata bəxş edən şəhərin haranın olmasını bilmirsiniz?

Hiddətimdən ehtiyatlanan müəllim tez səsinə bir yumşaqlıq qataraq:

– Ara, acığın niyə tutur? Mən də sənin kimi bilirdim. Amma elə deyil. İkimiz də müəllimik və fakta inanırıq. Belə deyilmi? – dedi.

– Müəllim, gülünc söz danışırsan. Buna nə fakt? Fakta heç bir ehtiyac yoxdur! «Tarix» və «Ədəbiyyat» kitablarını aç, oxu! Beyləqan Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir! – deyərək qəzəbləndiyimi gizlətmədim.

– Ara, niyə hirslənirsən? Mən də sənin kimi bilirdim. İndi bu dəqiqə sənə fakt göstərim, – deyən müəllim metodiki vəsait yığdığı şkafın qıfılını açaraq oradan bir xəritə çıxardıb stolun üstünə sərdi və dedi:

– Ara, madağanım, (ermənicə "qurban olum" deməkdir) acığın niyə tutur? Yaxın gəl, bax gör Beyləqan haranındı?

Əli ilə stolun üstünə sərilmiş xəritəni göstərdi.

Yaxınlaşıb xəritəyə baxdım. Gözlərimə inanmadım. «Bu ola bilməz! Yalandı! Yüzlərlə kitab gətirərəm!» – desəm də, amma xəritədə Mil düzü, o cümlədən Beyləqan Ermənistan ərazisi kimi göstərilmişdi.

Əsəbiləşdiyimi hiss edən müəllim, danışığına bir az da yumşaqlıq qataraq:

– Ara, biz Moskvaya inanırıq, elə deyilmi? – dedi.

– Elədi! – dedim.

– Onda bax gör xəritə harada çap olunub?

Tez xəritənin aşağısına baxdım, «Moskva, 1980» yazıldığını görcək özümdən asılı olmayaraq: – Ömründə bu ola bilməz! Yalandı! Hamısı yalandı! – deyib xəritəni götürüb cırdım.

– Ara, dəli olmusan, nədi? Xəritəni niyə cırdın? – deyib bir siqaret yandırdı və sözünə davam etdi:

– Ara, mən səni belə bilmirdim. Xəritəni alıb verərsən.

Əsəblərimi cilovlaya bilməyərək dedim:

– Müəllim, ermənilərin heç vaxt nə torpağı olub, nə də dövləti. Bilmirsinizsə, bu barədə bir

neçə faktı nəzərinizə çatdırım, diqqətlə qulaq asın. I Pyotr Xəzəryanı əraziləri işğal edəndən sonra 1724-cü ilin noyabrında işğal olunmuş həmin ərazilərə ermənilərin yerləşdirilməsi haqqında xüsusi əmr verdi. Bu ermənilərin Azərbaycana köçürülməsinə başlanğıc idi. Sonra isə 1828-ci il fevralın 10-da Rusiya ilə İran arasında Türkmənçay kəndində 16 maddədən ibarət sülh müqaviləsi bağlandı. Yazıçı-diplomat A.S.Qriboyedov və İ.F.Paskeviç əhalisinin 95 faizi azərbaycanlı olan İrəvana, Şəkiyə, Naxçıvana, Göyçəyə və Şamaxıya ermənilərin köçürülməsi işində xüsusi canfəşanlıq göstərdilər. 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqları ləğv edildi. Həmin xanlıqların ərazisində «Erməni vilayəti» adlı qondarma bir bölgə yaradıldı. 1929-cü il sentyabrın 2-də Rusiya ilə Osmanlı dövləti arasında Ədirnə sülh müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən Osmanlı dövlətindən Cənubi Qafqaza, eləcə də Şimali Azərbaycana 84 mindən çox erməni köçürülməsi nəzərdə tutulmuşdu. Çar Rusiyası tərəfindən ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi siyasəti tədricən həyata keçirildi. XX əsrin əvvəllərində isə bədnam Oktyabr inqilabından sonra SSRİ-nin təşkil olunduğu zaman Zəngəzur və Göyçə mahalı Azərbaycandan alınıb Ermənistana verildi. Bununla da, Çar Rusiyasının və Sovet hökumətinin köməyi ilə Azərbaycan torpaqlarında indiki Ermənistan adlı bir dövlət yaradıldı. Bax bu sadaladığım faktlara əsasən siz ermənilər Azərbaycanda, onun ən qədim guşələrindən biri olan, Beyləqanda qonaqsınız. Müəllim, indi bildinmi Beyləqan haranındı?

Müəllim:

– Yaxşı, daha bəsdi. Bu söhbət öz aramızda qalsın. Amma, xəritəni alıb verərsən, – dedi.

Bununla da, müəllimlə aramızda bir inciklik yarandı.

Etiraf edim ki, xəritə məsələsi ilə bağlı əl altından araşdırma aparsam da, bir nəticə əldə edə bilməmişdim.

Ağdamda Azərbaycan dili və ədəbiyyat müəllimlərinin zona üzrə elimi-praktik konfransı keçirilirdi. Həmin konfransda "VIII-X siniflərdə "ədəbiyyat"dan icmal mövzularının tədrisi zamanı tarixi faktlardan istifadə imkanları" mövzusunda məruzə ilə çıxış etməliydim. Rayondan dörd nəfər müəllim yoldaşlarla birlikdə konfransa yola düşdük. Məni narahat edən xəritə məsələsini müəllim yoldaşlarıma açıb dedim. Onlardan biri dedi:

– Siz xəritədən danışırsınız. Mən Moskvanın çap etdiyi «Bolşaya Sovetskaya Ensiklopediya»da Beyləqanın Ermənistanın ərazisi kimi verilməsini öz gözlərimlə görmüşəm, – dedi.

* * *

Bizim kəndin və kolxozun bütün rəhbər vəzifələrində həmişə ermənilər işləyib. S.Vurğun adına (o vaxtlar S.Şaumyan adına idi) kolxoz respublikada ən varlı kolxozlardan biri idi. Kolxozun pulu ilə rayonun başqa kəndlərində yeni məktəblər tikildiyi halda, bizim kənddə məktəb tikdirmək mümkün olmadı. Nə vaxt S.Vurğun adına kolxozun sədrinə: "Kənddə olan məktəb müasir tələblərə cavab vermir. Təzə bir məktəb tikdirmək lazım-

dır”, – deyəndə, milliyyətcə erməni olan kolxoz sədri cavab verirdi:

– Ara, məktəbi kimin üçün tikdirəcəyəm?

– Necə yəni, kimin üçün? Əziyyət çəkən kolxozçuların balaları üçün, – deyəndə sədr cavabında deyirdi:

– Ara, məktəbdir, oxuyurlar də. Kolxozun 5-10 manat pulu var, onu da boş şeylərə xərcləyə bilmərəm, – deyən kolxoz sədri müxtəlif bəhanələrlə milyonçu kolxozun pullarından kəndin nə tikinti, nə də abadlıq işi üçün bir manat xərcləmədi. Həmin pullar necə oldu, bilinmədi.

İşlədiyim pedaqoji kollektivin 80 nəfər üzvünün ancaq 8 nəfərinin erməni olmalarına baxmayaraq onlar sözlərini deyə bilirdilər. Erməni müəllimlərin xətrinə dəyən bir söz desən, o saat rayona çağırılaraq milli münaqişə salmaqda günahlandırılırdın. Səksən nəfər səkkiz nəfərin nazı ilə oynayırdı, çünki yuxarı təşkilatlar öz kreslolarının xatirinə erməniləri müdafiə edirdilər. Nə isə… İndi bunlar hamısı arxada qalıbdı. Yuxarıdakı hadisələri xatırlamaqla oxucuların nəzərinə onu çatdırmaq istəyirəm ki, «Gözlə, gələcəyəm» kitabı uzunmüddətli müşahidə və ağrılarımın nəticəsi olaraq ərsəyə gəlmişdir.

Qismət olsa, oxucularla bu mövzuda yeni əsərlərlə bir də görüşmək arzusundayam.

14.02.2016

DƏYƏRLƏR SORAĞINDA...

Ön söz

Yazıçı-publisist Fazil Sənanın imzası oxucular yaxşı tanışdır. Onun müxtəlif mətbuat səhifələrində vaxtaşırı dərc edilən hekayə və povestləri ədəbi prosesdə elə ilk baxışdan diqqəti cəlb edir. "Gözlə, qayıdacağam" romanı nəsrin bu növündə müəllifin ilk əsəridir. Bəri başdan qeyd etməliyəm ki, əsər elə ilk sətirlərdən öz oxunaqlığı ilə seçilir.

Qarabağ iğtişaşları ilə bağlı milli münaqişə zəminində qələmə alınmış bu romanda cərəyan edən hadisələr dinamik tərzi və orijinal üslubu ilə oxucunu intizarda saxlayır, sonsuz həyəcan doğurur. Əsərdə Namiq adlı bir azərbaycanlı gənclə Ramella adlı bir erməni qızının arasında baş verən sevgi macəralarından bəhs olunur. Bu mövzu özlüyündə təzə deyildir. "Əsli və Kərəm", N.Nərimanovun "Bahadır və Sona", A.Şirvanzadənin "Namus" əsərləri də eyni yönümdə olan bədii nümunələrdir. Ancaq "Gözlə, qayıdacağam" romanındakı milli-mənəvi dəyərlər, hadisələrin təsviri, gözlənilməz bir axarda inkişafı, qeyri-adi təhkiyələr və s. böyük maraq doğurur. Bir də ki, bu əsərdə keçmiş sovet dönəmindən qalma saxta dostluq, qardaşlıq, beynəlmiləlçilik ideyalarına ironik bir yanaşma tərzi də özünü büruzə verir.

Məktəb direktoru Armikin təsiri ilə azərbaycanlılarla bir kənddə yaşayan ermənilər tədricən millətçi bir əhval-ruhiyyəyə yiyələnirlər. Onun təsiri ilə ermənilərdə türklərə qarşı nifrət hissi aşılanır. Belə təsirə düşənlərdən biri də Ramellanın atası Makardır. O, hansı yolla olursa-olsun, qızını Namiqə vermək istəmir. Buna görə də hər cür maneçilik törətmək istəyir. Romandakı hadisələr getdikcə dramatık bir həddə çatır. Müəllif Arturun oğlu Slavikin timsalında ermənilərin insan üçün ən ali əxlaqi kateqoriya sayılan namus məsələsinə münasibətlərini müəyyən ştrixlərlə açıb göstərir. Ramella Namiqlə aralarında olan intim münasibətləri Slavikə bildirərkən o, bütün bunlara laqeydcəsinə yanaşaraq, hər şeyi qəbul etməyə hazır olduğunu bildirir. Slavikin timsalında namus məsələsi ermənilər üçün adicə bir məvhum təsiri bağışlayır. Bu fikrin təsdiqi üçün romandan Slaviklə Ramellanın arasında yaranan kiçik bir dialoqa diqqət yetirmək kifayətdir:

"-Bilirsən, Slavik, düzünü deyim sənə. Namiq məni öpüb, dişləyib.

– Axçı, heç eybi yoxdu. Ağzı yapışıb ağzında qalmayıb ha. Mənə qəbulsan."

Ramella Namiqdən hamilə qalır. Bundan sonra Makarın ailəsi Pyatiqorsk şəhərinə köçür. Burada Ramellanı məcburən dul bir qadın kimi Edik adlı erməni oğlana ərə verirlər. Hadisələr bundan sonra daha gərgin bir həddə gəlib çatır. Ramellanın Namiqdən olan oğlu Hamlet erməni mühitində böyüməli olur. Qarabağ döyüşlərində onun, atası Namiqlə qarşılaşması əsərin ən dramatik səhnələrindən biridir. Hamlet erməni mühitində böyüsə də, damar-

larında axan qanın, daşıdığı genin sayəsində müsbət mənada müəyyən qərar çıxarır. Müəllif Namiqin əsirlik həyatını gərginlik doğuran dramatık boyalarla təsvir edir. Burada Hamletin ona qarşı münasibəti gendən doğan nəticə kimi özünü göstərir.

Fazil Sənanın romanında tez-tez qarşıya çıxan dialoqlar olduqca canlı, olduqca əlvandır. Obrazların xarakterləri bir-birindən məhz bu dialoqlar vasitəsi ilə seçilir.

Romanın ən dramatik, kulminasiya nöqtəsi Hamletin anası Ramella ilə bir yataqda yatan "yad" kişiyə-Namiqə atəş açmasıdır. Lakin həmin anda Ramella özünü güllənin qabağına verir. Burada bir məqama xüsusi ilə diqqət yetirilməlidir. Hamletin atası erməni olsaydı, yenə də bu cür hərəkət edərdimi!? Bu sualın cavabı aydındır və oxucunu elə də dərindən düşünməyə vadar etmir. Hamletin bu cür davranışı onun damarlarından türk qanının axdığını bir daha təsdiqləyir. Çünki türk üçün namus, qeyrət, şərəf ən böyük xəzinədir. Ramella Edikə getsə də, ürəyində yenə də Namiqi yaşadır. Hətta erməni qızı olsa da belə, öz millətinin mübtəla olduğu patoloji xəstəlikləri sətiraltı bir tərzdə dilinə gətirir. Ramella ürəklə sevir ki, bu da azərbaycanlıların əhatəsində yaşamasından irəli gəlir. Azərbaycanlı psixologiyası onun mənəvi durumuna təsirsiz ötüşməmiş, ürəyində yuva salan sevgi hissləri də məhz elə bu mühitlə modifikasiya olunmuşdur.

Ermənilər tarix boyu bizim maddi-mənəvi dəyərlərimizə göz dikmişlər. Onlar musiqi alətlərimizi, mahnılarımızı, nağıllarımızı və s. nümunələrimi-

zi "mənimsəməklə" dünya arenasında özlərini sivil, yüksək tarixi mədəniyyətə malik bir xalq kimi tanıtmağa can atmışlar və bu gün də atmaqdadırlar. Bu məqamlar "Gözlə, qayıdacağam" romanında da öz əksini tapmışdır. Romandakı erməni obrazları söz-söhbətlərində tez-tez Azərbaycan atalar sözlərini, müdrik ifadələri, məsəlləri dədələrinin malı kimi istifadə edirlər.

Mənə elə gəlir ki, Fazil Sənanın "Gözlə, qayıdacağam" romanı nəsrimizin bu günkü roman bolluğunda öz dəst-xətti ilə seçiləcək və dəyərincə qiymətləndiriləcək. Bütün hallarda isə əsərlə bağlı yekun fikir yəqin ki, oxucuların səlahiyyətindədir. Bununla belə, düşünürəm ki, zəndim özünü doğruldacaq, dəyərlər sorağında olan müəllifin ünvanına xoş sözlər söyləniləcəkdir.

Ələsgər ƏLİOĞLU,
Şair-publisist.

Gün batmağa az qalmışdı. Kəndin nobat qoyununun ayağından qalxan tozdan ətraf görünmürdü. Namiq həmişəki kimi xeyli vaxt idi ki, nobat qoyununun dönməsindən əvvəl gəlib arxın kənarındakı söyüd ağacının altında dayanmışdı. İtiyi itmiş adam kimi gözləri yola tikilmişdi. Getdikcə səbri tükənirdi. «Bu niyə gecikir? Yoxsa evlərində bilirlər məsələni?» Söyüdün arxa sallanan budaqları altından bir az kənara çıxaraq yola boylanır və yenə budağın altında gizlənirdi.

Arxadan kimsə Namiqin başını sinəsinə sıxaraq hər iki gözünü yumdu.

Gözlərini yummuş əlin hərarəti, boynuna toxunan saçların ətri bir anlığa Namiqin ixtiyarını əlindən aldı. Namiq gözlərini qapamış əlləri yavaşca dodaqlarına apardı və arxaya çönüb Ramellanın başını sinəsinə sıxaraq:

– Nə vaxt gəlmisən? Səhərdən yollara baxmaqdan gözümün kökü saralıb!

– Səndən qabaq gəlmişəm. Özüm qəsdən gizlənmişdim ki, görüm mənim üçün darıxırsanmı?

– Niyə darıxmıram? – deyən Namiq sinəsinə sıxdığı qızın başını qaldıraraq gözlərinin içinə baxdı və orda özünün əksini gördü. Yavaşca dodaqlarını Ramellanın dodaqlarına yaxınlaşdırdı.

– Burax, Namiq! Görərlər. Evdəkilər bilər, sonra görüşməyimizə qadağa qoyarlar.

– Görsünlər də. Onsuz da gec-tez biləcəklər. Sevmək qadağandır? – desə də Namiq Ramellanın başını qolları arasından buraxdı:

Nobat qoyunu arxın üstündəki körpüdən adlamağa başladı. Nobatın qarşısına çıxanlar «çıx-çıx» deyərək hər kəs öz qoyunlarını ayırır, qabağına qatıb evə aparırdı.

Namiqlə Ramellanın yolları bir olduğu üçün hər ikisi qoyunları ayıraraq xeyli bir yerdə gəldilər. Cığırın ayrıcına çatanda qoyunlara «çıx-çıx» deyən kimi heyvanlar seçildilər və bir-birinin arxasınca düzüldülər. Qoyunlar xeyli aralansalar da Namiqlə Ramella bir-birlərindən ayrılmaq istəmirdilər.

Namiq dedi:

– Gecə neçədə gəlim?

– Yox, yox gəlmə. Qorxuram. Atam-anam bilsə, vəziyyətimiz pis olacar.

– Bilsinlər də! Onsuz da gələcəyəm.

– İki ay qalıb. Bir təhər döz. Qoy imtahanları qurtaraq, sonra bir şey fikirləşərik.

– Onu sonra fikirləşərik. Nə sənin valideynlərin razı olmayacaq, nə də mənim. Uzaqbaşı qoşulub qaçarıq. Amma axşam gələcəyəm, – deyən Namiq cığırla qoyunların arxasınca getmək istəyəndə Ramella yavaşca:

– Yaxşı, gələrsən, gözləyəcəyəm.

* * *

1970-ci illər ərəfəsi idi. Gültəpə kəndində iki millət – erməni ilə azərbaycanlılar mehriban yaşayırdılar. Sayca ermənilər üstünlük təşkil etsələr də, azərbaycanlı gənclərin dəliqanlılığından çəkinirdilər. Kənddə fəaliyyət göstərən orta məktəbdə beynəlmiləlçilik əhval-ruhiyyəsi şagirdlərin şüurlarına hopduğu üçün heç vaxt iki millətin nümayəndəsi olan şagirdlər arasında milli zəmində narazılıq yaranmazdı. Ramella boy-buxunu və gözəlliyi ilə kəndin, o cümlədən, məktəbin gözü idi. Cavanların çoxusu bu qızın ürəyini ələ almaqdan ötrü dəridən-qabıqdan çıxırdılar. Namiqlə Ramella orta məktəbin son sinfində oxuyurdular. Dərsdən çıxanda yolları bir olduğu üçün çox vaxt evə bir gələrdilər. Qızın səhər dərsə gəlmə vaxtını bildiyi üçün Namiq çay-çörəyini tələm-tələsik yeyərək elə gəlirdi ki, Ramella ilə yolda qarşılaşsın. Nə vaxt məktəbə çatdıqlarını bilməzdilər. Tənəffüs zamanı qızı görmək bəhanəsi ilə Ramellanın sinif yoldaşı Susannanın yanına gedər və söhbətləşərdilər. Namiq hiss edirdi ki, Ramella da ona qarşı laqeyd deyil. Namiq sinfin qarşısında Susanna ilə söhbət edərkən Ramella müxtəlif bəhanələrlə rəfiqələri ilə tez-tez Namiqin yanından o tərəf bu tərəf keçər və özündən asılı olmayaraq, hansısa bir hiss xəlvəti diqqətini ücaboylu, enlikürəkli, qara saçları arxaya daranmış oğlana tərəf çəkər, yumru yanaqlarına xəfif bir qızartı çökərdi. Ramellanın Namiqi görən kimi keçirdiyi həyəcan rəfiqəsi Susannanın gözündən yayınmasa da, hələlik bir söz demirdi.

Bir gün tənəffüs zamanı Ramella Susannanın əlindən tutaraq su içmək üçün gedəndə məktəbin qarşısındakı pillələrdə gözlənilmədən pillələrlə qalxan Namiqlə qarşılaşdılar. Bu gözlənilməz qarşılaşmada Ramella özünü itirdi, əli Susannanın ovcunda titrəməyə başladı.

– Axcı, sənə nə oldu? – deyən Susanna Namiqə baxıb hiss olunmayacaq tərzdə gülümsündü.

Ramella sol əli ilə üzünü örtmüş qara saçlarını geri darayaraq dedi:

– Heç bir şey.

– Bəs Namiqi görən kimi özünü niyə itirdin? Sualına cavab gözləmədən Ramellanın əlindən tutub Namiqin yanından keçərək pillələrlə aşağıya düşdülər və yollarına davam etdilər.

– Axçı, deyəsən, Namiqə vurulmusan?

Gözlənilməz sualdan sifəti allanan Ramella özünü itirərək çiyinlərini çəkdi və handan-hana dilləndi.

– Bilmirəm. Düzünü desəm, Susanna, hər dəfə onu görəndə özümü itirirəm. Belə bir cür oluram. Özümdən asılı deyil.

– Hə, onda vurulmusan. Yaxşı oğlandır. Qızların gözü sənsən, oğlanların da gözü Namiqdir, – deyən Susanna bic-bic güldü.

– Susanna, səndən nə gizlədim. Deyəsən, sevirəm onu. Amma bir şeydən qorxuram. Mən erməni, o musurman. Atam bilsə, dərimə saman təpəcək.

– Axçı, məhəbbət erməni, musurman bilir? Bilsəydi, onda Əsli Kərəm də olmazdı. Mən də musurman sevirəm.

– Bu sözdən diksinən kimi oldu Ramella. Sevincək soruşdu:

– Kimdi sevdiyin oğlan?

– Telmandı. Çoxdan bir-birimizi sevirik.

– Bəs nə yaxşı heç kim bilmir? Hələ sən indi deyirsən, mən bilirəm.

– Heç kəs bilmir. Bir gün məni görməsə ölər. Hər gecə də görüşürük. Demişəm ki, məktəbdə heç mənə tərəf çönüb baxma. Ona görə də heç kim bilmir. Amma hər gecə həyətimizdə qucaqlaşıb yatırıq. Elə yer düzəltmişik ki, ağıla gələn yer deyil. Bircə bacı kimi sənə dedim. Bu barədə heç kimə bir kəlmə də demə.

Susanna qəti tapşırdı.

– Yaxşı demərəm. Atan razı olacaqmı Telmana ərə getməyinə?

– Heç razı olmasın. Biz ki bir-birimizi ürəkdən sevirik. Axçı, bir şeyi başa düş ki, musurman oğlanlar ürəkdən sevir. Özü də musurmanlar arvadı çox istəyir. Yoxsa, bizim erməni dığaları kimi. Elə bilirlər arvadı Allah yaratmayıb. Uzaqbaşı qoşulub qaçacağıq. Bu il məktəbi bitirim, sonrasını özüm bilirəm. Mən elə oğlanı hardan tapacağam. Mənim üçün lap ölümə də gedər.

Susanna danışdıqca Ramella ürəyində sevinirdi ki, onun dərdində olan da var imiş.

– İndi deyirsən, mən də Namiqə «hə» deyim? Ramella sevinc dolu baxışlarını Susannanın ağzına dikdi.

– Arada bir şey yoxdu?

– Yox, Namiq mənə bir söz deməyibdi.

– Belə de. Görünür, utanır. Mən işi düzəldərəm. O, çoxdan səni sevir. Mən hiss eləmişəm. Elə bilirdim ki, siz də bizim kimi özünüzü usta aparırsınız. Daha denən, sizə bir kömək əli uzadan lazımdır. O da mən. Bacın ölməyib hələ!

Namiq içəri keçib tez də geri qayıdaraq pilləkəndə qızların arxasınca baxmağa başladı. Qızların söhbət edə-edə yavaş-yavaş getmələri Namiqin lap ürəyini üzdü. Hansısa bir hiss ona pıçıldayırdı: «Söhbət səndən gedir».

Zəngin içəri vurulmasından xeyli keçsə də Namiq pilləkəndə dayanıb onları gözləyirdi. Qızlar gəlib Namiqin bərabərinə çatanda Susanna: «Qorxma, hər şey yaxşı olacaq», – deyib Ramellanın qolunu sıxaraq dəhlizə keçdilər.

Aradan bir-iki həftə keçmişdi. Tənəffüs zamanı dəhlizdə gözləri Ramellagilin sinif otağının qapısına dikilən Namiq həyəcandan az qalırdı boğulsun. Neçə gün idi ki, cibində gəzdirdiyi məktubu ürək eləyib verə bilmirdi. Namiq cəsarətli oğlan idi. Amma indi yaman qorxurdu Namiq. Qorxurdu ki, ümidi alt-üst olar. «Yox!» cavabı eşitsə, yaşamaq ümidini tamam itirəcəyindən qorxurdu. Əlini yenə cibinə saldı və məktubu cibində sığalladı, ürəyinə bir hərarət yayıldı. Bu hərarətdən bütün bədəni sanki od tutub yanmağa başladı. Özü-özlüyündə tam qətiləşdirdi ki, necə olur-olsun, bu gün hökmən məktubu verməlidir.

Susannanın Ramellanın qoluna girərək otaqdan çıxıb dəhlizdə ona tərəf gəldiyini görəndə özünü toplayaraq qızlara tərəf getməyə başladı. Qızların yanına çatanda utana-utana: – Susanna, bir də-

qiqə olar. Sizlə bir balaca işim var, – deyən Namiq kənara, pəncərə tərəfə çəkildi. Susanna ani Ramellaya baxıb gülümsündü və cəld rəfiqəsinin qolunu buraxaraq – sanki çoxdan bu sözü gözləyirmiş kimi Namiqə tərəf gəldi.

Namiqin tutulduğunu görən Susanna onun köməyinə çatdı.

– Eşidirəm, mənimlə sənin nə işin ola bilər? – deyən Susanna Namiqin üzünə baxaraq bic-bic güldü:

– Namiqin cibindəki əlindən daş sallanmışdı. Elə bil əlini cibindən çıxartmağa gücü çatmırdı. Sanki əl başqasının əli idi.

Namiqin key-key onun üzünə baxdığını görən Süsanna:

– Ara, nə deyirsən? Elə bil lal olmusan. Nə olub sənə?

Olumla ölüm arasında qalan Namiq özünü birtəhər cəmləyib əlini cibindən çıxarıb məktubu Susannaya uzatdı və başını aşağı dikərək:

– Bunu ona verərsən?

– Kimə?

– Ona də?

– Ara, kimi deyirsən?

– Ra . . .m . . .e . . .l. . .l. . .a. . .y . . .a…

– Ara, Namiqcan, mən indi bildim ki, sən əməlli-başlı pəltəkmişsən, – deyən Susanna pörtmüş müsahibinin üzünə gülümsəyərək başı ilə bir az kənarda dayanan, başını aşağı dikib özünü məşğul kimi göstərməyə çalışsa da, amma gözünün altı ilə onları süzən Ramellanı göstərdi.

– Hə, onu deyirəm. Namiq də başı ilə kənarda dayanmış Ramellaya işarə etdi.

– Yaxşı! Oldu! Baş üstə! Ürəyini üzmə, sabah sənə yaxşı bir cavab gətirərəm. O, kimdi ki, mənim sözümdən çıxa.

Susanna rəfiqəsinin qoluna girərək gülə-gülə qapıdan çölə çıxdı.

***

Axşam əl-ayaq yığışandan sonra həmişəki adəti üzrə Şölə arvad yemək süfrəsini hazırladı. Bəhlul kişi əl-üzünü yuyub quruladı. Süfrə arxasına keçən Bəhlul kişi armudu stəkana süzülmüş pürrəngi çayı qarşısına çəkdi. Boş stəkanı nəlbəkiyə qoyan Bəhlul kişi :

– Ay arvad, gədə hanı? Niyə gəlib çörək yemir?

– Nə bilim, əşşi, deyir başım ağrıyır. Yuxarıkı evdə uzanıbdı.

– Səslə, denən dədən çağırır. Aşağıya düşsün, işim var.

Bəhlul kişi Şölə arvada göstəriş verdi. Bəhlul kişi zabitəli kişi idi. Ailədə sözü söz idi. Arvad-uşağın indiyə kimi Bəhlul kişinin qabağından qayıtdığı olmamışdı. Şölə arvad aşağıdan: – Namiq, ay bala, dədən çağırır. Düş aşağı, gör nə deyir? – deyə səslənib, yenidən içəri keçərək boşqablara yemək çəkməyə başladı. Bir azdan Namiq qapıdan içəri girərək, «Axşamın xeyir, dədə» deyib süfrənin aşağısında əyləşdi.

Yeməyi qarşısına çəkdi Bəhlul kişi. Bir azdan başını qaldırıb: «Niyə çörək yemirsən, a bala» – deyib sual dolu gözlərini oğlunun ağzına dikdi.

– Nə isə iştahım yoxdu, dədə.

– Niyə, a bala, nolub sənə?

– Başım ağrıyır. Özümü yaxşı hiss etmirəm.

– Qardaşına de, səni aparsın həkimə.

– Yox dədə, keçib gedər, dərman atmışam. Yaxşı olmasam, səhər gedərəm.

– Ay bala, nə cür xəstə olursa-olsun yeməlidir, bədəni zəifləməsin. Xəstə yeməyən kimi xəstəlik onu üstələyir.

Kişinin əhvalını yaxşılaşdırmaq məqsədi ilə «Qorxma dədə, bir gecə yeməməklə xəstəlik sənin oğluna güc edə bilməz» deyib gülümsünən Namiq qarşısındakı yeməkdən bir tikə götürüb yedi və stəkandakı çaydan bir qurtum içərək: «Dədə, ayrı sözün yoxdursa, gedim yatım» – dedi.

– Elə bir sözüm yoxdu. Un qurtarır. İmkan eləyib dəyirmana taxıl apar, yağınlıq olar, hələ ki, havalar babat keçir.

– Oldu, dədə. Bir-iki günə aparıb üyüdüb gətirərəm.

– Di get yat.

– Gecən xeyrə qalsın, dədə, – deyən Namiq öz otağına qalxdı. İşığı söndürüb yerinə girdi. Nə qədər etdisə, yuxusu gəlmədi. Düşüncələr öz qoynuna aldı Namiqi.

Görən Ramella nə cavab verəcək? Susannanın «Qorxma, sənə sabah yaxşı bir cavab gətirəcəyəm» sözləri qaranlıq dünyasında bir ümid işığı yandırmışdı. Amma bu işıq çox uzaqdan gəlirdi. Hər tərə-

fini zülmət qaranlıq bürüyən bu ümid işığının zəif şöləsinin işartısı güclə görünürdü.

Yaxşı, tutaq ki qız «hə» dedi. Sonra atam-anam biləndə nə olacaq, görəsən? Atam heç vaxt razı olmaz ki, gəlini erməni qızı olsun. Qohum-əqrəba nə deyəcək? Eh nə deyirlər desinlər. Razı olarlar olarlar, olmazlar da, dünya ki gendir, Kərəm yazıq da mən düşən günə düşüb, ona görə də məhəbbəti yolunda hər əzab-əziyyətə qatlaşıb də. Kim nə deyir desin, min canım olsa hamısını Ramellanın yolunda qurban verməyə hazıram. Heç ağlım kəsmir ki, Ramellanın valideynləri də bu məsələyə razı olalar. Kənddə neçə nəfər azərbaycanlı oğlan erməni qızı ilə evləniblər. Bəs nə yaxşı onları kənddən çıxartmırlar? Nə vaxt yuxuya getdiyini bilmədi.

***

Susanna Ramellanın qoluna girərək məktəbin həyətindəki ağacın altına apardı və əlindəki məktubu Ramellaya uzadaraq:

– Al oxu, gör sevgilin nə yazır? – dedi.

Ramella məktubu oxuduqca həm rəngi dəyişir, həm də gözlərinin dərinliyində bir sevinc parıltısı görünürdü. Məktubu cibinə qoymaq istəyəndə Susanna dilləndi:

– Axçi, məsləhətdirsə, ver mən də oxuyum.

– Al oxu, səndən gizlin nə ola bilər – deyən Ramella məktubu rəfiqəsinə uzatdı.

Susanna məktubu oxuyub qurtaran kimi Ramellanın boynunu qucaqlayıb yanağından öpərək:

– Siftə özüm öpüm səni, sonra Namiq, – deyib güldü.

– Cavab istəyir. Nə yazım ona?

– Axçi, başın çatmır. Nə yazacaqsan. Görmürsən dərdindən az qala dəli olsun. İndi qızlar paxıllığını çəkəcəklər. O cür oğlan səni sevdiyi üçün. Axşam bir «hə» cavabı yaz, içərisinə də şəklini qoy ver mənə, verim ona.

Zəng vuruldu. Qızlar sinfə daxil oldular. Ramella dərsin necə qurtardığını hiss etmədi. Hətta tənəffüslərdə də çölə çıxmadı. Fikri qoynundakı məktubda idi. Səhər növbəsində oxuyan şagirdlər evə buraxıldı. Namiq uzaqdan Ramellanın arxasınca gedərək onu müşahidə edirdi. Həmişə yanaşı yol gedən qız, yanında heç kimin olmadığını hiss etdikcə ürəyində Namiqə acığı tuturdu ki, niyə yanında deyil. Birdən məktub yadına düşən kimi, ağlına gəlirdi ki, utanır. İçindən bir dəli həvəs keçdi. Bilirdi ki, Namiq arxasınca gəlir, hətta onun addımlarını sayır. Çağırsın ki, gəl həmişəki kimi yanaşı gedək. Razıyam. Bu gündən mən səninəm. Çoxdan gözləyirdim sənin mənə «sevirəm» deməyini. Lakin içərisində şahə qalxmış bu dəli hayqırtını zorla boğdu və başladı öz-özünü danlamağa. «Lap özünü ucuz tutursan. Qız bir az ağır olmalıdır. Nolsun ki, sevirəm onu...»

Beləcə içində öz-özü ilə danışa-danışa evə nə vaxt çatdığını bilmədi. Tez əl-üzünü yuyub anası hazırladığı yeməkdən bir az yeyib üst mərtəbəyə, öz otağına çıxdı.

– Axçi, Ramella, niyə əməlli çörək yemədin, – deyən anasına cavab verdi ki, ana, lap yaxşı yedim. Dərsim çoxdur, müəllimlər o qədər dərs verirlər ki, oxuyub-yazmaq da olmur. Dərslərimi oxuyuram.

– Oxu, qurban olum, oxu. Ana razı halda stolun üstünü yığışdırmağa başladı.

Ramella otağa girən kimi qapını örtdü və otaqda özündən başqa heç kimin olmadığına əmin olan kimi qoynunda gizlətdiyi məktubu çıxardaraq əvvəlcə dodaqlarına yaxınlaşdırıb sonra açdı və yenidən oxumağa başladı. Ramellanın sevinci yerə-göyə sığmırdı, istəyirdi onun sevincini hamı bilsin, ondan hamı xəbər tutsun. «Mən sevirəm və sevilirəm» deyib haray çəkmək istəyirdi. Qız özünü xoşbəxtliyin zirvəsində hiss edirdi.

Ürəyindən keçənləri kağıza köçürdü. Etiraf etdi yalandan, riyadan uzaq məhəbbətini. Bulaq suyu kimi təmiz olan hisslərini kağıza köçürdükcə daxilən yüngülləşirdi. Məktubu qurtarıb səliqə ilə qatlayıb kitablarından birinin arasına qoydu. Artıq səhərin açılmasını səbirsizliklə gözləməyə başladı. Bütün gecəni gələcək xoşbəxtliyini düşünərək arzularının qanadında yuxuya getdi.

***

Susanna məktəbə hamıdan tez gəlmişdi. Ramellanın yolunu gözləyirdi. Qapının ağzında dayanıb yola baxdı. Gördü Ramella gəlir, xeyli aralıda isə Namiq onu müşayiət edir.

Ramella rəfiqəsinin bərabərinə çatıb onu salamladı. Susanna tez rəfiqəsinin boynunu qucaqlayıb üzündən öpdü və yavaşca qulağına «Sənin sabahın xeyir, nişanlı qız. De görüm, bu gecə necə yatdın?» pıçıldadı.

Ramella qızararaq rəfiqəsinin qoluna girib sinfə doğru addımladı.

– Axçi, heç yadıma düşmür. De görüm cavab yazmısanmı? – Susanna soruşdu.

Ramella utana-utana çantasını açıb, kitabların arasından çıxartdığı məktubu rəfiqəsinə uzatdı.

– Axçi, de görüm «hə» yazdın, yoxsa başqa şey.

– Qorxma, sən dediyin kimi yazmışam. Yazmışam ki, səni sevirəm, ömrüm boyu da sevəcəyəm. Necədi, ürəyinə yatırmı? – Ramella güldü və rəfiqəsinə tərəf çöndü.

– Ay sağ ol. Belə lazımdı. Əvvəlcə onun əvəzindən səni özüm öpüm, – deyən Susanna Ramellanın dodaqlarından öpdü.

– Axçi, nə iş görürsən, məni təzə görmüsən? Qıraqdan baxırlar. Elə bilərlər ki, dəli olmuşuq.

– Qələt eləyir deyənlər. Sənin kimi gözəli istəyirəm mən yeyəm, gəl gör oğlanlar ola. Hə, tez gedib məktubu verim. Yazıqdır, onu sevindirim.

Susanna Ramellanı sinif otağına salıb özü isə Namiqi sevindirmək üçün «axtarışa» çıxdı. Namiqi idman meydançasında tapdı. Namiq Susannanı görən kimi ona tərəf gəldi və dalda bir yerə çəkildilər.

– Səni təbrik edirəm. Xoşbəxt olun. Məktəbdə, kənddə bir-birinizə çox da yaxınlaşmayın. Nə qədər gizli olsa, bir o qədər sizin xeyrinizədir. Elə ki, bilindi, ondan sonra hamının diqqətində olacaqsınız. İndi gəl, Ramellanın əvəzindən səni bir öpüm, – deyən Susanna bir göz qırpımında Namiqin üzündən öpərək gülə-gülə aralandı.

Qızın ürəkaçıqlığı, şıltaqlığı və onu öpməsi Namiqin yerində donub qalmasına səbəb oldu. Namiq əli ilə Susannanın dodaqları dəyən yeri sığal-

ladı. Hələ də Susannanın dodaqlarını üzündə hiss edən Namiqin bədəni sanki od tutub yanırdı. İlk dəfə idi ki, onu qız öpürdü. İlk öpüşün sevinc və həyəcanından güclə özünü ələ alan Namiq sinif otağına yollandı. Məktubu oxumaq arzusu ilə xəlvət bir yer tapdı, ürək döyüntüsü ilə məktubu oxumağa başladı.

Məktubda yazılmış «Namiqcan, bu gündən mən sənінəm. Məni səndən ancaq bir ölüm ayıra bilər» sözləri sanki Namiqi göyün yeddinci qatına qaldırdı. Ağlagəlməz bir xoşbəxtliyin zirvəsində yaşayan Namiqin gözünə Ramelladan başqa heç kim görünmürdü.

Dərs qurtaran kimi evə getdi və çay-çörəyini yeyib öz otağına qalxdı. Məktubu təkrar-təkrar oxudu, sonra isə çamadana qoyub ağzını bağladı. Birdən qardaş-bacısının əlinə keçə bilər.

Nobat qoyununun gəlməsinə bir az qalmış olsa da, dözə bilməyib arxın kənarında olan söyüd ağacının dibində oturub qamışdan çəkilmiş iki çəpərin arasında olan cığıra göz qoymağa başladı. Bir az keçmiş Ramellanın cığırla arxa tərəf gəldiyini gördü. Arxın kənarında çoxlu balaca uşaqlar var idi. Hamısı da nobat qoyununun qabağına çıxmışdı. Uşaqların səsindən ağız deyəni qulaq eşitmirdi.

Ramella Namiqi söyüdün altında dayanmış gördü. Özünü ələ alıb Namiqin yanına getdi. Utana-utana «Axşamın xeyir!» dedi və başını aşağı dikdi.

Qızın utanmağından bir az cəsarətlənən Namiq «Aqibətin xeyir olsun. Necəsən?» dedi.

– Yaxşıyam, sağ ol!

– Məktubu oxudum. Öpürəm sənin «Sevirəm» deyən ürəyini və yazan barmağını. Bağışla, sevindiyimdən zəng vurulan kimi evə qaçdım. Dedim evdə məktubu diqqətlə, ayıq başla oxuyum. Əhsən, sənə – deyən Namiq qızı qucaqlayıb öpməkdən özünü güclə saxlayırdı. Çünki ətraf uşaqla dolu idi. Düzdü onlara fikir verən olmasa da, hər halda ehtiyat etmək lazım idi. Namiqin ona tərəf gəldiyini hiss edən Ramella:

– Görürsən, Susanna ilə Telman bir-birlərini neçə ildi sevir, görüşürlər, amma heç kim bilmir. Özü deməyənə kimi mən də bilmirdim. Necə də ağıllı adamdırlar. Belə görürəm biz kənddə biabır olacağıq, özünü saxlamağı bacar, Namiqcan.

– Oldu. Çox vaxtı heç sənə salam da verməyəcəm. Gecə görüşərik. Razısanmı?

Məsləhətləşdilər, razılaşdılar. Nobat gəldi. Hər kəs öz heyvanını qabağına qatıb evə yollandı.

* * *

Elə bir sirr varmı ki, axırda açılmaya. Namiqlə Ramellanın məhəbbət macərası yavaş-yavaş məktəbdə söz-söhbətə səbəb olurdu. Məktəbin direktoru Armik müəllimin müşahidə qabiliyyəti çox güclü idi. Necə deyərlər, gözündən tük yayınmazdı. Armik müəllim bir neçə dəfə Namiqi Ramellanın oxuduğu sinfin qabağında görmüşdü. İlk əvvəl fikir verməsə də, sonralar müşahidə etmişdi ki, tez-tez Ramella su içmək bəhanəsi ilə çölə çıxır. Bir az keçmiş Namiq də qızın arxasınca gedir. Ramella ilə Namiqin bir-birinə oğrun-oğrun baxışlarını görən

Armik müəllim «Hər şey aydındı» fikri ilə kabinetə keçdi.

«Yox, belə olmaz. Səhər qızın atasını çağırtdırıb başa salmaq lazımdır. Yəqin ki, atasının bu məsələdən xəbəri yoxdu» – fikri ilə Armik müəllim katibəyə tapşırdı ki, Ramellagilin qonşusunu çağırtdırsın.

Qapının döyülməyinə «buyurun» deyildi. Qapı açıldı. İçəri girən şagird «Müəllim, məni çağırtdırmısınız?» sualına, keçəlini örtmək üçün yana daranmış saçlarına əlini çəkən direktor:

– Ara, Vartan, axşam Makar kişini çağırıb deyərsən ki, Armik müəllim dedi ki, səhər məktəbə gəlsin, onunla işim var. Amma elə elə ki, sən bu sözləri Makara deyəndə heç kim eşitməsin. Başa düşdün?

– Bəli, müəllim. Dediyin kimi deyərəm. Elə edərəm ki, heç kim bilməsin.

– Sağ ol! Düz başa düşmüsən. Gedə bilərsən.

Vartan direktorun kabinetindən çıxaraq qapını örtdü.

Səhər zəng ikinci dərsə vurulmuşdu. Direktor kabinetdə oturub yazı yazırdı. Qapının döyülməsinə başını qaldıraraq «Gəlin!» dedi.

İçəri girən Makar «Sabahınız xeyir, Armik müəllim» deyib irəli gəldi və stolun arxasından durub ona tərəf gələn direktorla mehribancasına görüşdü. Qonağa oturmaq üçün stul göstərən direktor özü də yerinə keçib kreslosunda əyləşdi. Bir xeyli o tərəf, bu tərəfdən söhbət etdilər. Ustalıqla söhbətin üstünə gələn Armik müəllim üzünü Makara tutaraq dedi:

– Ara, bilirsən səni nə üçün çağırtdırmışam?

– Xeyir, Armik müəllim.

– Ara sən bilirsən ki, mən sənin xətrini çox istəyirəm.

– Bilirəm. Hamı da sənin xətrini istəyir, Armik müəllim.

– Makar, mən müəlliməm, məktəb direktoruyam. Cibimdə Kommunist Partiyasının biletini gəzdirirəm. İndi mən sənə bəzi məsələləri izah edəcəyəm. Sən sürücüsən, mən də müəllim. Demək, mən səndən çox bilirəm.

– Armik müəllim, sən ali təhsil almısan, mən isə altıaylıq kurs qurtarmışam. Əlbəttə ki, sən məndən çox bilirsən, həm də sənin dediyinə mən əməl etməliyəm.

– Makar, mən sənin gözünü açmaq istəyirəm. Amma bu söhbət öz aramızda qalsın. Bir yerdə ağzından çıxarsa, mənim atamı yandırarlar. Buna Sovet hökuməti deyərlər.

– Başa düşdüm, Armik müəllim. Demək, məni çox istəyirsən ki, bəzi sirləri mənə açırsan.

– Ay sağ ol, Makar. Deyəsən fikrim sənə çatdı. İndi mənə diqqətlə qulaq as, Makarcan, – deyən Armik müəllim ayağa qalxıb qapını içəridən bağladı və yerinə keçdi. Dərindən nəfəs alıb müsahibinin üzünə baxaraq yavaş-yavaş öz zəhərini Makarın beyninə yeritməyə başladı.

Ara, Makar, 1915-ci ildə türklər ermənilər uşaqdan tutmuş böyüyə kimi qırıb. Buna tarixdə soyqırım deyirlər. Yəni, ermənilərin kökünü yer üzündən kəsmək. O vaxtı türklər azərbaycanlılarla birləşərək biz ermənilərin başına elə oyun gətiriblər

ki, bizim həmin yaralarımız ömrü boyu yadımızdan çıxmaz. Həmin yaraları unutmağa bizim haqqımız yoxdur. Ermənilərin qeyrətini çəkən və bütün həyatını Böyük Ermənistan yaratmaq yolunda qurban vermiş Andronikin qulağını Şuşanın altında Zabux meşəsində Soltan bəy kəsdi. Bu, biz ermənilər üçün yaddan çıxmayan bir təhqirdir.

– Armik müəllim, mən eşitdiyimə görə Andronikin qulağını Türkiyədə kəsiblər, – dedi Makar.

– Ara, Makar, bunun bir fərqi varmı, Andronikin qulağını Soltan bəy kəsdi, yaxud Türkiyədə kəsdilər? Hər kim kəsib, axır ki, kəsən türkdümü? – deyən Armik müəllim hirsini güclə boğdu və sonra sözünə davam etdi.

Ara, Makar, Leninin beynəlmiləl siyasətinə uyğun olaraq SSRİ-nin tərkibində bütün millətlər dost və qardaş kimi yaşayırlar. Bu beynəlmiləl siyasətin içində biz ermənilər azərbaycanlıların və türklərin bizə elədikləri pislikləri heç vaxt unutmamalıyıq. Hələ onu demirəm bu musurmanların N.Nərimanov adında bir adamları olub. O vaxt Nərimanov Leninlə dost olub. O dostluğun hesabına ermənilərin ata-baba torpaqları olan Dağlıq Qarabağı bizdən alıb musurmanlara veriblər.

– Demək Dağlıq Qarabağ bizimdir? – təəccüblə soruşdu Makar.

– Sənə deyirəm bizimdir. Necə ki, vaxtilə Zəngəzuru və Dərələzi almışıq, vaxt gələcək həmin Dağlıq Qarabağı da qaytaracağıq. Ara, ermənilər yatmayıblar. Gecə-gündüz işləyirlər. Amma hər şeyin vaxtı var. Ara, başa düş. Böyük Ermənistan dövləti yaradılacaq. Bunu biz görməsək də nəvə-nə-

ticələrimiz görəcək. Əlibayramlıya kimi bu Azərbaycan torpaqları Ermənistanın ata-baba torpaqlarıdır. Bu haqda xəritə də var. – deyən Armik müəllim dəmir seyfi açıb alt gözündən bir xəritə çıxartdı və stolun üstünə sərərək «Ara, yaxın gəl, əməlli bax» deyərək direktor əli ilə «Böyük Ermənistan»ın sərhədlərini göstərdi.

– Armik müəllim, bu boyda torpaqlar biz ermənilərindir? Heyrətini gizlədə bilməyən Makar təəccüblə direktorun üzünə baxdı.

– Bəli, göstərdiyim bu torpaqlar bizimdir. Bu xəritəni Yerevandan təzə göndəriblər. Tapşırıblar ki, bütün ermənilərə başa salmaq lazımdır ki, «Böyük Ermənistan»ın torpaqlarını tanısınlar. İndi mən də səni başa salıram ki, musurmanların yaşadığı torpaqların çoxu bizimdir. Bu barədə sözsöhbət salmaq hələ tezdir. Dövlət Təhlükəsizliyi Komitəsi bilsə atamıza od vurar, həm də gələcək planımız baş tutmaz. Ona görə ağıllı hərəkət etmək lazımdır.

Makar, heç bir şeyə fikir vermirsən. Vaxtı ilə yaşadığımız bu Gültəpə kəndində ermənilər çoxluq təşkil edirdi. Ara, hələ onu demirəm ki, 1937-ci ildə bax bu kəndi ermənilər salıbdır. Partiya xətti ilə kommunist olan ermənilər bura göndəriblər ki, kolxoz təşkil etsinlər. Mənim atam, sənin atan o vaxtı özlərinin mal-qoyunlarını kolxoza qoyublar, ciblərində toxum gətiriblər. Sonra qonşu rayonlardan ac-gic musurmanlar yavaş-yavaş bura gəliblər. Fikir verirsənmi, bizim cavanlar orta məktəbi qurtaran kimi Yerevana, Stepanakertə gedirlər və geri qayıtmırlar.

Amma cavanlarımız başa düşmürlər ki, dağlıq ərazilərdən gəlib tədricən Azərbaycanın içərilərinə girib məskunlaşmaq lazımdır, geriyə qayıtmaq yox.

İndi bu kənddə gündən-günə ermənilərin sayı azalır, musurmanların sayı isə çoxalır. Erməni cavanları Ermənistana getdikləri üçün qızlarımızı alan yoxdur. Bir fikir ver, gör bu kənddə neçə erməni qızı musurman oğluna ərə gedibdir. Ara, bu, düzgün deyil. Böyüklərini də başa salmaq istəyəndə deyirlər ki, neyniyək, qızımız bizi eşitmədi. Ara, nətəri eşitmir. O qıza başa salmaq lazımdır ki, azərbaycanlılar bizim ata-baba düşmənimizdir. Adam da düşmənlə ailə həyatı qurar? Cavanlarımız elə bir şeyi əzbərləyiblər ki, məhəbbət azaddır, məhəbbətin milləti yoxdur. Bu Sovet Hökümətinin siyasətidir. Qabağa baxmaq lazımdır. Sabah torpaq üstdə azərbaycanlılarla müharibəmiz oldu. Onda o azərbaycanlıya ərə gedən qızın taleyi necə olacaqdır? Bax bunu fikirləşmək lazımdır.

– Düz deyirsən. Armik müəllim.

Hədəfi düzgün nişan aldığını görən Armik müəllim ürəyində sevinsə də, bunu büruzə vermədi və ehtiyatla zəhərin son damlasını yeritməyə çalışdı ki, «vurduğu» ovu tam iflic etsin.

– Makarcan, sənin qızın Ramellanın xətrini tək qızımın xətiri qədər istəyirəm. Gözəl də baladır. Boylu-buxunlu, gözəl-göyçək, ağıllı. Düzü, bir şey məni son vaxtlar çox narahat edir.

– O nədi, Armik müəllim? – deyən Makarın ürəyi qırılıb ayağının altına düşdü.

– Bilirsən, Makarcan, – müsahibinin tələş keçirtdiyini görən direktor zəhərin dozasını bir az da

artırmağı lazım bildi – qonşun Bəhlul kişinin oğlu Namiqdi, nədi, var, tanıyırsanmı?

– Bəli, tanıyıram.

– Həmin o gədə sənin qızın Ramellanın dalınca çox hərlənir. Fikir vermişəm, sənin qızın da ona laqeyd deyil. Aralarında bir mehribanlıq hiss edirəm. Bu məsələnin qarşısını indidən almaq lazımdır. Sonra gec olar. Yəni, elə gözəl qızı bir erməni dığası tapıb vermək olmazmı? Gərək musurmana gedə? Bax, səni bundan ötəri çağırtdırmışam. Bu söhbət öz aramızda qalsın.

– Sağ ol, Armik müəllim. Məni vaxtında başa saldın. Düzü, çox şey öyrəndim bu gün sizdən. O ki, qaldı Ramella məsələsinə, onu tikə-tikə doğrayaram, amma musurmana vermərəm. Makar ayağa qalxdı və direktorla xudafizləşib kabinetdən çıxdı.

Aradan bir-iki gün keçmişdi. Günorta idi. Makar maşını qapıda saxlayıb, əl-üzünü yudu və stolun arxasına keçdi. Siranuş tez ərinin qarşısına çay-çörək gətirdi.

– Axçi, Ramella hanı?

– Suya gedib.

– Axçi, Siranuş, qızın Ramella Bəhlulun gədəsi Namiqi sevir.

– Gözlənilməz zərbədən nokauta düşən Siranuş handan-hana özünü düzəldərək «Ara, nə danışırsan?» sualı ilə ərinin üzünə baxdı.

– Hə, eşitdiyin kimi. Qızını başa sal ki, hələ onun ərə gedən vaxtı deyil. Ərə getmək vaxtı olanda onu musurmana yox, bir erməni dığası tapıb verəciyik. Başa sal ki, özünü yığışdırsın. Məni biabır eləməsin. Yoxsa gecənin birində bir kəndirdi, bir də

onun canı. Başa düşdünmü? – Acıqlı-acıqlı arvadının üzünə baxdı Makar.

– Elə şey olmaz, Makar. Olsa, mən bilərəm.

– Axçi, nəyi biləcəksən? Yox, qızın gəlib sənə məsləhət edəcək ki, icazə verirsən, filankəsi sevim? Makar acıqlı-acıqlı əlindəki stəkanı nəlbəkiyə qoydu.

– İnanmıram. Ramella hələ uşaqdı. Siranuş qorxa-qorxa ərinə baxdı.

– Mən bilmirəm, düzdü, yalandı. Yenə deyirəm, qızını başa sal. Yoxsa ana-bala dərinizi boğazınızdan çıxardaram. Eşitdinmi? Makar stolu qaldırıb aşırdı və çörək yemədən maşına minib işə getdi.

Siranuş stolu yenidən səliqəyə saldı və qırılan şüşə qabları yığıb zibilliyə atdı. Siranuş ərinin xasiyyətinə yaxşı bələd idi. Ona görə məsələnin məğzini öyrənmək üçün qızını gözləməyə başladı.

Ramella əlindəki dolu vedrələri taxçaya qoydu və vedrələrin ağzını örtdü.

– Axçi, Ramella, yanıma gəl.

– Gəlirəm.

Ramella anası oturduğu stolun yanına gəldi.

– Otur, qızım, sənlə işim var.

Qızın içərisindən bir qorxu keçdi. Boş stuldan birini çəkib əyləşdi Ramella.

– Anan qurban, düzünü de.

– Nəyin düzünü deyim, ana?

– Axçi, eşitdiyimə görə Bəhlulun oğlu Namiqi sevirsən, düzdürmü?

Yanaqları allanan Ramella başını aşağı tikdi, qara saçları hər iki tərəfdən sifətinə tökülərək

yanaqlarına çökmüş qızartını Siranuşdan gizlətməyə çalışdı.

– Yalandı, ana!

– Kimsə atana deyib, atan da günorta evə gəlmişdi, mənə dedi. Çörək yemədi, stolu da qaldırıb aşırdı. Dedi ki, qızına de, mənim musurmana verilməsi qızım yoxdur. Açsın qulaqlarını eşitsin. Elə etməyin ki, ana-bala ikinizin də başınızı kəsim. İndi, qızım, yalandı lap yaxşı. Elə et ki, belə bir məsələ ortaya çıxmasın. Ürəyində elə bir fikir varsa da, üstünə bir daş qoy. Qızım, əlacı olmayan işə girişmə. Bizi kənddə biabır etmə.

– Ana, bilirəm, bunu Armik müəllim deyib. O günü atam məktəbə getmişdi. Özün bilirsən ki, Armik müəllim ovçarka kimi axşamadək burnunu soxmadığı yer yoxdur, həm də arvad kimi söz gəzir danışmağa. Mənim Namiqlə bir-iki dəfə qonşu kimi söhbət elədiyimi Armik müəllim görüb. Ana onun peşəsi direktorluqdan çox müəllim və şagirdləri güdməkdir. Bütün hamının ondan zəhləsi gedir.

– Axçi, qızım, mən bir söz demirəm. Yalandı, lap yaxşı. Kor nə istər iki göz, biri əyri, biri düz. Bizim dediyimiz odur ki, bu xəbər təki yalan olsun. Hə, qızım, ağıllı ol. Adını ləkələmə. Gələcəyin var. Qorxma, yüz oğlan minnətçi düşəcək sənə. Hələ vaxtı var. Tələsmə.

– Yaxşı, oldu, ana! Arxayın ol! – deyən Ramella ayağa durdu.

Ramella evdə olan hadisələri kağıza yazaraq Susanna və Telman vasitəsilə Namiqə çatdırdı. Məsələni çox ağartmamaq üçün Namiq Ramelladan kənar gəzir, hətta o tərəfə baxmamağa çalışırdı.

Amma nə qədər özünü zorlasa da, yenə bacarmırdı. Çətinliklə olsa da, Namiq Ramella ilə axşam görüşmək üçün razılıq ala bildi. Görüşə Ramella ona görə razılıq verdi ki, atası uzaq reysə getmişdi. İki gün evdə olmayacaqdı. Belə bir imkan Ramella üçün göydəndüşmə oldu.

Gecə yarıdan keçmişdi. Fit səsinə it bir-iki ağız hürüb kəsdi. Ramella bildi ki, fit verən Namiqdi. Yerindən qalxaraq xalatını əyninə geyinib yavaş-yavaş üst mərtəbədən aşağıya düşdü. Şüşəbənddən içərini dinşədi. Bir səs hiss etmədi. Hamının yatdığına arxayın olandan sonra evin arxasına hərləndi. Qamışdan çəkilmiş çəpərin dibinə tökülmüş pambıq çöpü tayasının çəpərlə bitişik olan yerində günüzdən düzəltdiyi oyuğa girdi. Oyuğun dibində Namiqin oturduğunu hiss etdi. Namiq qaranlıqda əlini uzadaraq Ramellanın əlindən tutub özünə tərəf çəkdi və «Xoş gəlmisən, mənim bu qaranlıq otağıma» deyib saçlarının, boyun-boğazının ətrini sinəsinə çəkdi. Ramella başını Namiqin sinəsinə qoyub oturdu.

– Namiq, atam şübhələnibdi. Hələ ki anamı inandırmışam. Gec-tez məsələnin üstü açılacaq. Bax onda nə baş verəcək, ondan qorxuram.

– Nədən qorxursan, Ramella? Uzaqbaşı qoşulub qaçarıq.

– Yox, Namiq, elə fikirləşmə. Atam musurmanlara yaman nifrət eləyir. Əvvəlcə belə deyildi. Armik müəllimlə görüşəndən sonra kişi tamam dəyişib. Deyir ki, musurmanlar bizim düşmənimizdir.

– Fikir vermə. Deyir, desin də. Gör kəndimizdə neçə erməni qızı musurman oğluna ərə gedib. Onlar bu düşmənçiliyi bilmədi, bircə sənin atan bildi. Atan nə vaxtdan millətçi olub?

– Bilmirəm, Namiq. Amma tez-tez evdə anamla söhbət edəndə sözü hərləyib belə deyir, əgər mənim qızım, musurmana ərə getsə, başını kəsərəm. Nə məhəbbət, nə sevgi, hamısı boş şeylərdi. Bir erməni dığası tapmır ərə getməyə, gərək musurman ola. Bilirəm ki, atam bu sözləri mənə eşitdirir.

– Bir-iki aya imtahanlar başlayır. İmtahanları qurtarım, attestat alım. Payız əsgərliyə gedirəm. Əsgərlikdən qayıdandan sonra asandır. Heç kim, heç nə məni səndən ayıra bilməz. Bir ölümdən başqa, – deyən Namiq dodaqlarını Ramellanın dodaqlarına yaxınlaşdırdı.

– Arxayın ol, Namiq. Heç kimə gedən deyiləm. Səni gözləyəcəyəm. Əsgərlikdən gəl, hara uzaqdı, ora gedək. Qoy heç kim yerimizi bilməsin.

Ramella daha da Namiqin qoynuna sığındı. Elə bil kimsə bunları bir-birindən ayıracaqdı.

Beləcə gələcək arzulardan danışa-danışa, dan yerinin ağardığını görən kimi hər ikisi ayağa durdu. Namiq Ramellanı sinəsinə sıxıb ayrıldı.

***

Axşam kolxoz idarəsindən çıxıb evə gedən Makar yola çıxmışdı ki, kimsə arxadan «Makar, yavaş get, mən də gəlirəm. Sənlə işim var» deyənin səsinə çöndü və arxın kənarında olan söyüd ağacının dibinə çəkildi, Makar.

– Ara, axşamın xeyir, necəsən? – deyən Artur Makarla görüşdü. Bir xeyli kolxozun işindən, briqadirlərin əmək haqqını kəsmələrindən gileylənə-gileylənə birlikdə yol getdilər. Hər ikisi evlərinə dönən yol ayrıcına çatdılar.

– Makar, sən bilirsən ki, uzaqdan da olsa qohumluğumuz çatır.

– Bilirəm, Artur.

– Dünən bir söz eşitmişəm.

– Nə söz, ara?

Makar səsindəki qəzəbi güclə cilovladı.

– Nə bilim, qohum. Eşitdiyimə görə sənin qızın Ramellanı Bəhlulun gədəsi Namiq istəyir. Elə dünəndən bəri səni axtarırdım ki, görüb, soruşam ki, düzdü, ya yalan.

– Qohum, bu sözü mən də eşitmişəm. Siranuşa demişdim ki, qızdan soruşsun görsün düzdü, ya yox.

– Ara, sənin başın çatmır. Qız deyəcək ki, düzdü, mən Bəhlulun gədəsini sevirəm. Xəfifcə güldü Artur.

– Yaxşı, qohum, indi sənin fikrin nədi? Makar yazıq-yazıq dilləndi. Elə bil naəlac qalan xəstə dərdinə əlac diləyirdi həkimdən.

– Mənim fikrim odur, əgər bu məsələ düzdüsə, biz ermənilərin papağı elə bil ki, tualetə düşdü. Yəni, sənin qızına bir erməni oğlu qəhətdir, gərək türkə gedə, bizim düşmənimizə.

– Bəs neyniyək? Makar daha da yazıqlaşdı.

– Ara, Yerevandan qohumlar bizə gələndə kitablar, şəkillər, xəritələr, nə bilim nələr gətirirlər. Düzdü, elə dərin savadım yoxdu, amma başa salır-

lar, az-az oxuyuram. Ara, heç bilirsən bu türklər bizim başımıza nə oyunlar açıblar. Ermənilərin kökünü kəsirmişlər. Qurban olum Andronikə. O qoymayıb. Belə qan düşməninə də qız vermək olar? Lap o qızı öz əllərimlə boğub öldürərəm. Necə ki, babamız Qara Keşiş qızı Əslini Kərəmə vermədi, biz də onun nəvəsi deyilikmi?

– Düz deyirsən, Artur. Planın nədi?

– Ara, bir dayan, planım barədə də danışacağam. Hələ bir gör bizimkilər nələr fikirləşir. Xəlvət, könüllü hər bir ermənidən pul yığırlar. Bu Dağlıq Qarabağ vaxtilə bizim dədə-baba torpaqlarımız olub. Həmin torpaqları geri alacağıq. Böyük Ermənistanı yaratmalıyıq. Biz görməsək də, nəvələrimiz görəcək. Həmin yığılan pullar da o iş üçün xərclənəcək. Sən də pul ver. Heç bir erməni bu işdən kənarda qala bilməz. Qaldı sənin qızın Ramellanın məsələsinə. Əvvəlcə get Bəhlul kişinin yanına, oğlunun hərəkətləri barədə ona məlumat ver. Sözünü də qəti de ki, sən musurman, mən erməni. Bizim qohumluğumuz tutmaz. İşdi əgər oğlun qızımı götürüb qaçası olsa, heç bir şeyə gücüm çatmasa da, hər ikisini güllə ilə vuracağam. Mənim Ramella barədə ayrı bir planım da var.

– Nədi? – tez Makar soruşdu.

– Fikrim odu ki, Ramellanı razı olsan oğlum Slavikə alam.

– Ara, niyə razı olmuram. Slavik musurmanın gədəsindən pisdi? Öz qohumumdu. Mən razı. Təki bu söz-söhbət də kəssin. Makar sevincini gizlətmədi.

– Yaxşı. Bu söhbət öz aramızda qalsın. Bir aya kimi elçiliyimizi eliyərik.

– Əvvəlcə Slavik qızla danışsın. Qızın razılığını alsın, sonrası asandır. – Makar dedi.

– Gecən xeyrə qalsın, – deyib hərəsi öz evinə yollandı.

Səhəri gün axşamçağı əl-ayaq yığışdırılandan sonra Makar arxın kənarıyla Bəhlul kişinin yanına getdi. Qapıya çatdı və çağırmağa başladı:

– Bəhlul dayı! Bəhlul dayı!..

İçəridən səs gəldi:

– Kimsən, gəl içəri!

Makar darvazanın balaca qapısından içəri keçdi və gördü ki, Bəhlul kişi salxım söyüdün altında qoyulmuş stolun arxasında əyləşib çay içir. Makarı görən Bəhlul kişi tez stuldan qalxdı və irəli yeridi.

– Xoş gəlmisən, Makar. Nə yaxşı. Həmişə sən gələsən. Bir dəfə gəlmirsən oturub bir dərdləşək. Bəhlul kişi Makarla görüşüb, oturmaq üçün stul göstərdi.

– Ay qız, ay bala, bir çay gətirin, Bəhlul kişi səsləndi. Bəhlul kişinin mehribançılığı, Makara qarşı göstərdiyi hörmət Makarı içində utandırdı. Bir kənddə yaşasalar da, Makarın Bəhlul kişiyə yetikliyi yox idi. Bircə bilirdi ki, kənddə hörmətli, sayılıb-seçilən ağsaqqallardan biridir. Bir az o tərəf-bu tərəfdən söhbət etdilər.

– Bəhlul dayı, heç demirsən nə üçün gəlmisən? – Makar dedi.

– Makar, qonağa deməzlər nə üçün gəlmisən, lazım olsa, özü deyəcək. Bir də ki, bura da sənin öz evindi. Nə məqsədlə gəlmisənsə, xoş gəlmisən.

Bəhlul kişi əlindəki armudu stəkanı nəlbəkiyə qoyub, bir siqaret yandırdı.

– Bəhlul kişinin insanlığı qarşısında ürəyindən bir fikir keçdi Makarın: «Allahın altında bu Bəhlul kişi erməni olaydı, Ramellanı can-başla oğluna verərdim. Erməni qızları bir şey bilirlər ki, musurman gədələrini sevirlər».

– Bilirsən, Bəhlul dayı, bir söz demək istəyirəm, amma utanıram.

– Utanma, Makar, de! Lap xətrə dəyən söz də olsa utanma, xətrimə dəyməz.

– Bəhlul dayı, oğlun Namiqə təpin. Yaxşı deyil, bir kəndçiyik, qonşuyuq.

– Makar, əməlli de görüm, nə olub? Cavabını qaytarıb, yoxsa xətirinə dəyib. Məncə, mənim uşağım tərbiyəsiz iş görməz. Demirəm, uşaqdı, səhv edə bilər. De görüm nə iş görüb? Onun dərsini elə verim ki, bir də yadından çıxmasın, deyən Bəhlul kişinin əsəbiləşməsi Makarın nəzərindən qaçmadı.

– Yox, elə şey deyil, Bəhlul dayı.

– Maraqlıdı, bəs onda nə iş görüb? Mənim neçə övladım varsa, indiyə kimi bizim evə şikayətə gələn olmayıb, Makar. Mənə də maraqlıdı, bu uşaq nə iş tutub ki, sizin bura gəlməyinizə səbəb olubdu?

– Bilirsən, Bəhlul dayı, məsələ mənim qızım Ramella ilə bağlıdı.

– Hə, belə de.

Bəhlul kişi siqaret yandırıb tüstünü havaya üfürdü. Qıza söz atıb?

– Yox! Belə danışırlar ki, bir-birlərini sevirlər.

– Bu, çox çətin məsələdi. Bilirsən Makar, bu sevgi elə andır şeydir ki, adam vuruldu, daha ayrı şey fikirləşmir.

– Düz deyirsən, Bəhlul dayı. Mən erməni, siz də musurman. Tutan iş deyil. Heç sizə də yaxşı deməzlər, mənə də.

– Düzdü Makar. Mən də bu işin tərəfdarı deyiləm. Dinimiz ayrı, adət-ənənəmiz ayrı. Cavandırlar. Bir az da sovet tərbiyəsi, beynəlmiləlçilikdi, nədi o, bu uşaqları tamam cızığından çıxardıb.

– Hə, Bəhlul dayı. Mən də uşağıma təpinəcəyəm, siz də təpinin.

– Arxayın ol, Makar. İndi sənə bir məsləhət verim.

– De, başına dönüm, Bəhlul dayı, de. Elə bil Makarın çırağına neft tökdülər.

– Bilirsən, Makar, ola bilər uşaqdı, üzdə mənlə razılaşsın, amma daldada öz bildiyini eləsin. Namiq bir aya əsgər gedəsidi. Onun evlənmə məsələsi gecdi. Sənin qızın isə yetişib, istəyən olsa, ver getsin. Söz-söhbət onda kəsiləcək.

– Bəhlul dayı, qız elə şeydi ki, heç kimə demək olmaz ki, gəl, mənim qızımı al. Gərək istəyən ola ki, verəsən.

Bəhlulun səmimiyyəti qarşısında Makar ürəyindən keçənləri gizlətmədi. Sanki yaxın qohumu ilə dərdləşirdi.

– Makar, düz deyirsən. Qohumlarından birinə ver getsin. Görmüşəm, gözəl-göyçək qızdı.

– Nə bilim Bəhlul dayı! Görək axırı nə olur, deyən Makar ayağa qalxdı və Bəhlul kişi ilə sağol-

laşıb darvazadan çıxaraq razı halda evinə getməyə başladı.

Makar evə gəldi. Çay-çörək yeyəndən sonra bir az televizora baxdı. Uşaqlar yatmağa getdi. Makar Siranuşu yanına çağırdı.

– Axçi, gəl otur. Yanındakı boş stulu arvadına göstərdi. Siranuş göstərilən boş stulda əyləşdi.

– Eşidirəm, Makar. Nə dedin Bəhlul kişiyə?

– Axçi, çox mərifətli adamdı. Bu musurmanların bir sözü var. «Qardaşın nə cür adamdı, deyir yoldaş olmamışam». Bəhlul kişi o qədər gözəl adamdır ki, heç deyiləsi deyil. Deyirəm Allahın altında bunlar erməni olaydılar, Ramellanı yalvara-yalvara verərdim. Amma heyif ki, musurmandılar.

– Arvad, qızı Arturun oğlu Slavikə verəcəyəm.

– V..a..! Ara, bu hardan ağlına gəldi? Siranuş təəccüblə soruşdu.

– Axçi, bilirsən, bu qız bir az da qalsa bizi kənddə biabır eliyəcək. Yaxşısı budur, abırlı-həyalı işimizi görək.

Makar Artur və Bəhlul kişi ilə aralarında olan söhbəti arvadına danışdı.

Siranuş gördü ki, əri ağıllı söz deyir. Ən yaxşı yol Ramellanı tezliklə ərə verməkdi ki, qulaqları dinc olsun.

– Ara, Makar, düz deyirsən. Artur qohumdur, oğlu Slavik də öz əlimizdə böyümüş uşaqdı. Bir az anası Vartuş bir cür adamdı.

– Nə cür adamdı? Danışqandı. Elə demək istəyirsən? Makar acıqlı dilləndi.

– Hə, qorxuram qızı yola vermiyə. Ərköyün böyümüş uşaqdı.

– Axçi, elə arvaddı ki, o cür gözəl şərait qurub də. Yoxsa sənin kimi, – leşsən.

– Niyə leş oluram, ara.

– Yox, canın üçün Vartuşun tayısan. Vartuşun bir gündə gördüyü işi sən bir aya görə bilməzsən.

– Hə, yaxşı, sən deyəndi.

Siranuş Makarla razılaşdı.

– Şərait yaradın, gədə qızla danışsın. Yaxşı uşaqdı. Verək rədd olsun, qulağımız dincəlsin. Özün də qızını başa sal.

– Yaxşı, oldu. Ərinin nə demək istədiyini Siranuş başa düşdü.

– Duraq yataq. Mən tezdən işə gedəcəyəm. Makar ayağa qalxan kimi Siranuş da qalxdı və hər ikisi yataq otağına getdi.

***

Günortadan xeyli keçmişdi. Darvaza döyüldü. Söyüdün kölgəsində yatan boz köpək hürməyə başladı. Siranuş itə təpinərək darvazaya tərəf getdi, qapını açdı. Vartuşla Slaviki qapı ağzında görən kimi: «Xoş gəlmisiniz! Həmişə siz gələsiniz! Nə yaxşı biz qohumları yada salmısınız?» dedi, öpüşüb görüşdülər.

– Axçi, gəlin, gəlin içəri. Siranuş qonaqları içəri keçirib qapını örtdü.

– Nə bilim, axçi Slavikə dedim ki, ara dur gedək Siranuş xalangilə. Çoxdandı görüşmürük. Oturaq bir az dərdləşək. Slavik dedi ki, mən utanıram, getmirəm. Gedirsən, özün get. Dedim: – “Ara nədən

utanırsan, qohumumdur. Həm də sumkanı götürməyə mənə kömək elə”. O da sözmü yerə salmadı. Mənimlə gəldi.

– Maşallah, Slavikin yekə oğlan olub. Mən onu görəndə lap uşaq idi. Siranuş Slaviki müştəri gözü ilə nəzərdən keçirtdi. Gördü ki, əri səhv etməyibdi kürəkən seçəndə. Boylu-buxunlu, enli kürəkli, qara bığlı… Elə Ramellaya yaraşandı.

– Hə, düz deyirsən, sən Slaviki çoxdan görmürsən. Axçi, haradan görəcəksən. Gəlmirsən, getmirsən. Vartuş gileyləndi və əlindəki dolu sumkanı tut ağacının kölgəsində qoyulmuş stolun yanına qoydu.

Siranuş qonaqların oturması üçün stul çəkib yer göstərdi, stolun üstünü səliqəyə saldı.

– Axçi, Ramella, aşağı düş, bir gör kim gəlibdi? Qızını səslədi. Qapı açıldı. Ramella qonaqlara tərəf gəldi. Vartuş Ramellanı müştəri gözü ilə nəzərdən keçirtdi. «Həqiqətən də kişinin qızı keçiləsi can deyil» fikri beynindən keçdi və qızla görüşmək üçün ayağa qalxdı:

– Axçi, nə gözəl qızın var. Bunu harda saxlamısan ki, indiyə kimi görməmişik, deyən Vartuş Ramellanın üzündən öpdü, «Sənə qurban olum» deyib yanında otuzdurdu.

Slavik qızı görən kimi: «Dədəmə qurban olum, nə gözəl qız tapıbdı. Adamın ağlın başından aparır. Qız, aldım səni!» fikri qəlbindən keçdi.

– Qızım, dur çay-çörək hazırla.

– Axçi, Siranuş, qızla işin yoxdu, qoy yanımda otursun. Heç bir şeylə işimiz yoxdu. Bir az söhbət eliyək.

– Axçi, nə danışırsan. Ayda-ildə bir dəfə bizə gəlmisən, onda da çörək yemiyəsiniz. Siranuş ayağa qalxdı və dama girib bir qabda dən götürüb toyuqları düdüləməyə başladı. Əlindəki qırmızı beçəni Ramellaya uzatdı.

– Bıçağı gətir, Slavik kəssin. Tez təmizləyib bir yaxşı yemək hazırla, – deyən Siranuş tapşırığını verib özü Vartuşun yanında əyləşdi. Ramella tez mətbəxə keçib bıçağı götürüb geri qayıtdı. Bir əlində bıçaq, bir əlində beçə kənardakı ağacın dibinə çəkildi və Slavikə çönüb baxdı ki, gəlib beçəni kəssin.

Slavik ayağa duranda anası tez «Ara, biz həyətə keçirik, qızla özün danış» dedi.

Stəkanları stolun üstünə düzən Siranuş samovarı stolun üstünə qoydu ki, çay süzsün.

– Axçi, çayı sonra da içərik. Gəl keçək həyətə, qoy uşaqlar özləri danışsınlar. Vartuş Siranuşun arxasınca bağa keçdi.

– Siranuş, qəşəng qızın var imiş. Qız razı olsa, toy edərik.

– Nə tez, Vartuş. Biz hazır deyilik.

– Axçi, Arturla Makar danışıblar. İndi qalıb qızın razı olmağı. Amma mən bir şeydən qorxuram, qız razı olmaya. O kopoğlu gədə qızın ağlını oğurlamış olsa, çətin olacaq. Belə gözəl qızı musurman gədəsinə qəti vermək olmaz.

– Düz deyirsən Vartuş. Mən elə bilirəm ki, qız razı olar. Çünki Slavik də pis oğlan deyil. Allaha şükür, ayrı da ev tikmisiniz. Daha nə lazımdı. Getsinlər baş-başa verib dolansınlar. Biz də öz kömək əlimizi həmişə uzadacağıq.

– Düz deyirsən, Siranuş. Qızı yola gətirmək lazımdı. Qız razı olsa, hər şey yaxşı olacaq.

Slavik gülə-gülə Ramellaya yaxınlaşdı «Axçi, bəri ver görüm» deyib beçəni və bıçağı alaraq gavalı ağacının dibində beçənin başını kəsdi. Beçə kəsilmiş başını tərpətdikcə Slavikin əllərini, ayaqqabısını, şalvarının balağını qan damlaları ilə buladı. Axırı Slavik qanadları ayaq altında olan beçəni buraxaraq kənara çəkildi və «Paho, məni tamam qana buladı sənin beçən» deyib Ramellanın üzünə baxıb güldü.

– Deyəsən, beçə kəsməyi bacarmırsan. Ramella başı kəsilmiş beçəni yerdən götürüb kölgədə qoyulmuş qabdakı qaynar suya saldı və əlüzyuyanı Slavikə göstərdi. «Get, əlini yu!» – dedi. Slavik əlini yudu, ayaqqabısının üstünü, şalvarının balağındakı qan ləkələrini təmizləyib, ağacın kölgəsində beçəni doğrayan Ramellanın yanına gəldi.

– Mənim beçə kəsməyimi bəyənmədin. İndi görək sən nə cür yemək bişirirsən.

– Hər halda yaxşı olar. Ramella qazanı elektrik plitəsinin üstünə qoydu və mətbəxə getdi. Əlindəki qabda kartof, soğan geri qayıtdı və başladı soyub doğramağa.

– Axçi, Ramella, sənə bir söz demək istəyirəm. Açığın tutmaz ki? – Slavik qızardı.

– Vartuşla Slavikin gəlişindən Ramellanın ürəyinə nəsə dammışdı. Evdə bir dəfə atası ilə anasının Arturun ailəsi barədə danışdığını eşitmişdi.

Makar Slaviki isə xüsusi olaraq tərifləmişdi. Ramellaya aydın idi ki, ata-anası Slavikə gələcək kürəkənləri kimi baxırlar.

– De, Slavik. Amma elə söz de ki, acığım tutmasın. Ramella qımışdı.

– Sənə elçi gəlmişik. Slavik başını aşağı saldı.

– Mənim razılığımı almısan ki, mənə elçi gəlmisən?

– Almamışam, indi alaram. – Slavik güldü.

– Mən ərə getmirəm.

– Niyə getmirsən? Evdə oturacaqsan?

– Hə evdə oturub, ata-anama baxacağam.

– Çox qızlar elə deyir, amma axıra kimi sözünün üstündə dura bilmirlər. Eşqə düşəndə, ata-anası yadından çıxır.

– İş ondadır ki, mən hələ eşqə düşməmişəm.

– Deyilənə görə, eşqə düşmüsən.

– Hardan, kimdən eşitmisən?

– Nə bilim danışırlar.

– Bir halda ki, eşitmisən, onda düzdü. Ramella bilirdi ki, Vartuşgil elçi gəlib. Onu da başa düşürdü ki, bu məsələ hərtərəfli məsləhət olunub. Fikirləşdi ki, hər şeyi Slavikə desin, bəlkə kişilik qururuna sığışdırmaya ki, məni istəməyən qızı heç mən də almıram. Bu cür ata-anasının gələcək təzyiqlərindən yaxa qurtara.

– Nə düzdü, axçi? Sənin Namiqi sevməyin? Slavik bir az əsəbiləşdi. Ramella tez gülümsündü və qorxdu ki, Namiq məsələsini Slavik açıb ağarda. Ramella anasına demişdi ki, Namiqi sevməsi yalan sözdür. O heç kimi sevmir, oxumaq istəyir. Yalanının üstü açılmamaq üçün üzünü Slavikə tutdu:

– Sənə bir söz desəm, öz aramızda qalar?

– Hə qalar. – Slavik sevincək cavab verdi.

– Kişi kimi söz verirsənmi?

– Lap kişi kimi deyirəm. Dediyin söz ikimizin arasında, bax burda da qalacaq. Slavikin gözləri də gülürdü, öz aləmində Ramella ona onu sevdiyini deyəcəkdi.

– Slavik, sən yaxşı oğlansan. Amma sənə düzünü deyim ki, mən Namiqi sevirəm, ona söz vermişəm.

– Rəngi tutulan Slavik bir anlıq Ramellanı təzə görürmüş kimi başdan ayağa süzərək:

– Axçi, Ramella, sən bilirsənmi, musurmanlar, türklər bizim düşmənimizdi. 1915-ci ildə ermənilər qırıblar, Qarabağı əlimizdən alıblar. Mən sənə kitablar gətirim hər şeyi özün öz gözünlə oxu, öz gözünlə şəkillərə bax. Sən nətəri ermənisən ki, musurmanı sevirsən? Səndə erməni qanı yoxdu?

– Bilirsən, Slavik, bunların heç biri mənə aid deyil. Mən o adamı sevirəm.

– Ata-anan səni zorla da olsa mənə verəsək. Yaxşısı odur ki, oyan-buyan eliyib, özünü pis adam eləmə.

Ramella gördü ki, Slaviki başa sala bilmir. Slavikə sevgi lazım deyil, arvad lazımdı. O da Ramelladı. Ona görə bir az da dərinə getməyi fikirləşdi. Fikirləşdi ki, bəlkə, Slavikin mənliyinə, o qürur deyilən siminə toxuna bildi. Ətrafı nəzərdən keçirtdi. Anası ilə Vartuşun görünmədiyinə əmin olandan sonra bir azda Slavikə yaxınlaşdı.

– Bilirsən, Slavik, düzünü deyim sənə. Namiq məni öpüb, dişləyib.

– Axçi, eybi yoxdu. Ağzı yapışıb ağzında qalmayıb ha. Mənə qəbulsan.

Ramella bir az duruxdu. Elə bilirdi ki, bu sözləri deyən kimi Slavik deyəcək ki, mənə lazım deyilsən, lakin bu cür cavabı eşidəndən sonra bir az da dərinə getməyi nəzərdə tutdu.

– Ara, Slavik, lap düzünü deyim sənə. Mən razı deyiləm ki, bir musurman oğlanla soyunub yatmış bir erməni qızını sən alasan. Bax sənə sual verirəm:

– Sən erməni ola-ola musurmanın artığını nə cür qəbul edirsən? Bəs sənin kişiliyin, mənliyin. Bir şeyi fikirləşirsənmi ki, deyək sən məni aldın. Mən sənin birlikdə bir yerə gedəndə Namiq qabağını kəsib deməzmi, «Ara, Slavik, mən bu qızla hər oyundan çıxmışam. Kişiliyinə nə cür sığışdırıb Ramellanı aldın?»

– Axçi, bir dayan görüm, sən nə danışırsan? Sən mənə fırıldaq gəlmə. İstəyir lap qarnında altı aylıq uşağın olsun, mənə qəbuldur. Mən heç vaxt razı olmaram ki, sənin kimi gözəli bir musurman gədəsi alsın. Bu, bizim erməni şərəfimizə ləkədir. Başa düşdünmü?

– Ramella baxıb gördü ki, qarşısındakı kişilik, mənlik kimi şeyləri başa düşəsi deyil. Artıq bıçaq boğaza dirənibdi. Slavikin qarşısında şax dayanaraq gözlərinin içinə baxdı və ürəyindən gələn son sözləri dedi:

– Slavik, mən elə bilirdim ki, səndə bir az da olsa, kişilik deyilən bir hiss var. Demə, yanılmışam. Mən başqası ilə oturub-durub, sonra da sənə arvad ola bilmərəm. Bunu özümə heç vaxt bağışlaya

bilmərəm. Ömrü boyu vicdan əzabı çəkməli olaram. Yadında saxla ki, mənim iki yolum var. Biri Namiqə ərə getmək, digəri isə özümü öldürmək. İndi bildin?

– Bildim! Hə! – Slavik dedi.

– Bir söz də deyim, ürəyimdə qalmasın. Ramella sonuncu patronu da lüləyə itələdi:

– Mən indi bildim ki, fahişəlik eliyən arvadların ərləri sənin kimi kişilər imiş.

– Axçi, kəs! Lap ağ elədin!

Slavik acıqlandı. Ramelladan aralanıb anasını çağırdı ki, gəl gedək!

Ramella tez Slavikə yaxınlaşdı və dedi:

– Bilirdim, səndə kişilik deyilən bir şey yoxdu. Ömründə heç olmasa bir dəfə də olsa, sözünün üstündə dur, aramızdakı söhbət öz aramızda qalsın.

– Yaxşı, arxıyın ol! Slavikin gülüşündəki kinayəni hiss edən Ramellanın canını qara qorxu aldı. Bildi ki, vəziyyət daha da mürəkkəbləşəcək, lakin onsuz da ayrı çıxış yolu yox idi.

Suranuşla Vartuş söhbət edə-edə bağdan çıxdılar. Slavik oturduğu stolun yanına çatanda Siranuş stulu çəkib Vaptuşa oturmağı təklif etdi. Vartuş oturdu. Siranuş isə Ramellanı səslədi.

– Axçi, Ramella, yemək hazırdısa, gətir.

– Gətirirəm, – deyən Ramella əlində padnos stola yaxınlaşdı və başladı stolun üstünü səliqəyə salmağa. Bir azdan stolun üstündə hər şey öz qaydasında idi. Siranuş ürəyində qızının səliqə-sahmanından razı qaldı. Üzünü qızına tutaraq, gülə-gülə dedi:

– Qızım, səliqənə söz ola bilməz. Beçəni də yaxşı bişirmisən. Amma fikir ver, gör stolda nə çatışmır?..

Ramella stola göz gəzdirdi və çiyinlərini çəkdi:

– Ana, mən bir şey başa düşmədim.

– Axçi, bəs sən bilmirsən Vartuş xalan heç yerə gedən deyil. Onun gəlişinə görə o çaxırı bura gətir. Slavikə də tut arağı gətir.

– Əziyyət çəkmə, Siranuş. Vartuş dedi.

– Axçi, nə əziyyəti var. Özüm hazırladığım çaxırdı. Bir dadına bax gör nə dadır. Həm də bundan xoş gün olacaq? Siranuş Ramellanın gətirdiyi üç litirlik bankadan stəkanlara çaxır süzdü və üzünü Slavikə tutdu:

– Xalan qurban, sən tut arağı iç. Gör xalan nə araq çəkib. Hamı stəkanları götürdü. Ramelladan başqa.

Anası dedi:

– Axçi, götür stəkanını!

– Ana, sən bilirsən ki, içki içmirəm.

– Axçi, sənə deyirəm götür stəkanı. Çaxırdı də. Özü də Slaviknən sənin sağlığına içəcəyik. Biz gözümüzü sizə dikmişik.

– Siranuşun fikrincə Slaviklə Ramella razılaşıblar. Öz aləmində bu xoşbəxt anı qeyd etmək istəyirdi Siranuş.

– Ana, mən içki içə bilmirəm, – deyən Ramella anasına bozardı.

– Axçı, neçə dəfə bayramda mənimlə içmisən. Həm də erməni olasan, çaxır, araq içməyəsən. Buna

inanmaq çətindir. Biz musurman deyilik. Biz ermə-niyik. Başa düşdünmü!

– Başa düşdüm, ana! Xeyli vaxtdır ki, mən çaxır içməkdən qurtarmışam. Çünki özümü çox pis hiss edirəm içəndə. Məni üzürlü hesab edin. Çaxır içmiyən qız erməni deyil?

– Yox, erməni deyil. Çünki biz ölümüzü də araq, çaxırla götürürük. Bu bizim milli adətimizdir, – qızım. Vartuş dedi.

Ramella ürəyində sevindi ki, çaxır içməyən erməni deyil. Düz deyirsiniz. Müsəlman adətində içki haram buyrulub. Mən də gələcəkdə müsəlman gəlini olacağam. Onun üçün də onların adət-ənənəsi üçün indidən özümü hazırlayıram.

– Yaxşı, çox üz vurma. Uşaqdı də. yəqin mey-li çəkmir. Hə, götür içək Ramella ilə Slavikin sağlı-ğına, – deyən Vartuş əlindəki stəkanı Siranuşun, Slavikin stəkanı ilə toqquşdurub başına çəkdi. Stə-kanı yerə qoyub: «Axçı, halal olsun, gözəl becər-misən», – deyib Vartuş stəkanları yenidən doldur-du.

Bankada çaxırın səviyyəsi aşağı düşdükcə, başlarda duman yavaş-yavaş yuxarıya qalxırdı.

– Siranuş, bu stəkanları da içək bu günün sağ-lığına. Bu gün bizim ən xoşbəxt günümüzdü. Az bir vaxtdan sonra Slaviknən Ramellanın toyunda gör nə oynayacağam. Gərək elə toy eliyəm ki, hələ Gül-təpə kəndində elə toy olmasın.

Stəkanını Siranuşun stəkanı ilə toqquşdurmaq istəyəndə Slavik Vartuşun sözünü kəsdi:

– Ana, siz hansı toydan danışırsınız?

– Ara, necə hansı toydan, sənlə Ramellanın toyundan.

Vartuş hirsli-hirsli stuldan ayağa qalxdı və əlindəki çaxır dolu stəkanı stolun üstünə qoyub oğluna və sonra isə Ramella duran tərəfə çönəndə gördü ki, Ramella yoxdu (söhbətin səmtinin dəyişdiyini hiss edən kimi Ramella aradan çıxaraq evə getmişdi). Siranuşun üzünə baxdı. Bu o demək idi ki, bu gədə nə danışır?

– Ana, qız razı deyil. Ramella deyir ki, mən musurmana ərə gedəcəyəm, – deyən Slavik əlindəki araq dolu stəkanı bir dəfəyə xirtdəyinə tulladı.

– Axçı, Siranuş, bu nə danışır? Başı xarab olub bu gədənin. Ara, Makar Ramellanın «hə»sini bir-neçə gün bundan əvvəl verib. Ramella sənin arvadın, bizim isə gəlinimizdi. Başa düşdün?

Vartuş hirsli-hirsli çaxır dolu stəkanı götürüb Siranuşa tərəf üzünü tutdu.

– Düz demirəm, Siranuşcan?

– Düz deyirsən, Vartuşcan.

– O qızı çağır bura, görum. Vartuş dedi:

– Axçi, Ramella, bura gəl, qızım! – deyən Siranuş evə doğru səsləndi və «qələt eləyir qız», deyib stəkanını Vartuşun stəkanı ilə toqquşduraraq başına çəkdi.

Ramella qorxa-qorxa gəlib stolun aşağı tərəfində dayandı.

– Axçı, qızım, mən demək istəmirdim. Amma indi ikiniz də qulağınızı açın və eşidin. Makarla Artur sizi nişanlayıb. Yəni bir-birinə söz verib. Biriki günə nişan taxırıq, oktyabrda da toyunuzu edi-

rik. Bundan yaxşı nə istəyirsiniz. Eviniz ayrı, köçünüz ayrı. Qurban olum.

Vartuş ayağa durub Ramellaya tərəf getmək istəyəndə səndələyib yıxıldı. Tez Slavik anasının qolundan tutub ayağa qaldırdı. Ramella isə üzünü yana çevirib güldü.

Vartuş özünü tarazlayıb Siranuşa tərəf çöndü.

– Deyirəm, gedək. Sənin bu çaxırın, deyəsən, məni piyan elədi.

– Məsləhət sizindi. Siranuş qonaqları yola salmaq üçün ayağa qalxdı.

Darvazanın ağzına çatanda Vartuş: «Axçı, Siranuş, gəlinimizi çağır görüşək gedək, inciyər axı!» – dedi.

Siranuş qızını çağırdı.

Ramella anasının yanına gəldi.

Vartuş səndələyə-səndələyə Ramellanın boynunu qucaqlayıb hər iki üzündən öpdü və dedi:

– Kimin belə gəlini var? Heç kimin! Ürəyin nə istəyir alacağam sənə.

Ramella: «Vartuş xala, mənə heç nə lazım deyil. Mən ərə getmirəm. Oğluna ayrı qız tap», – dedi:

– Axçı, ağlın başındadı? Bilirsən nə danışdığını? Səs eləmə. Makar eşidər, başını kəsər, – dedi Vartuş.

Ramella gördü ki, anası da oğlu kimi qanan deyil, geriyə də yol yoxdur. Sonra başına nə gələcəyini fikirləşmədən ürəyindən keçənləri dilinə gətirməli oldu:

– Vartuş xala, atam başımı kəssə də, kəsməsə də özü bilər. Mən ərə getmirəm. Hamınız bilin, – deyib evə tərəf addımlamağa başladı.

– Axçı, fikir vermə. Qız olmamışan? Qızın naz eləməyi olar da, – deyən Siranuş Slavik və anası ilə öpüşüb qonaqları yola saldı. Özü isə evə qayıdıb çarpayıya uzandı ki, çaxırın dumanı ayazısın. Ramella anasının üstünü örtdü, özü isə o biri otağa keçib ürəyini boşaltdı. Özünə gələndə qalxıb stolun üstünü yığışdırdı.

Siranuş gözlərini ovxalayıb qalxanda artıq lampalar yanırdı.

* * *

Ramella vedrələri götürüb su gətirmək üçün arxa getdi. Əsas məqsədi Namiqi görmək idi. Dərdini Namiqlə bölüşmək istəyi qızı rahat qoymurdu. Namiqlə görüşəndə Ramella özünü tək hiss etmirdi. Özündə bir güc-qüvvə hiss edirdi. Elçilərə etiraz etməsi bilirdi ki, ona çox baha başa gələcəkdi. Onu nə gözlədiyini dumanlı şəkildə dərk edirdi və evdə özünün kimsəsiz, yalqız olduğunu başa düşürdü. Elə onun üçün də tez-tez çölə çıxıb, içəri girirdi ki, uzaqdan da olsa, Namiqi görsün və onunla görüşmək istədiyini bildirsin. Lakin gözünə heç kim dəymirdi. Naəlac qalıb suya getməli oldu.

Suvatda əyilib vedrələri doldurdu və kənara qoydu. Sonra söyüdün kölgəsinə çəkildi ki, bir az yubansın. Kiminsə qəflətən gözlərini arxadan qapaması qızın ürəyini ağzına gətirdi.

– Qorxdun? Namiq tez əlini Ramellanın gözlərindən çəkərək qarşısında dayanıb güldü.

– Ürəyim yerindən qopdu.

Namiq tez qulağını qızın sinəsinə söykədi, «Yox, hələ ki, yaxşı vurur ürəyin», – dedi.

– Sən başını sinəmə söykədin deyə ürəyim sakitləşdi, – deyən Ramella sinəsində Namiqin saçını sığalladı. Minnətdarlıq etmək üçün Namiq başını çöndərib qızın gözlərinə baxdı. Ramella Namiqin ona tikilmiş baxışlarındakı etirazı dodaqları ilə söndürdü.

– Eşitdiyimə görə sənə elçi gəlibmiş.

– Haradan eşitdin? Nə tez xəbər sənə çatdı?

– Düzdü, yoxsa yox? Onu de.

– Düzdü. Vartuş oğlu Slaviklə gəlmişdi. Əslində böyüklər öz aralarında hər şeyi həll ediblər. Mənim razılığımı bilmək istəyirdilər. Ramella ağladı.

– Bəs sən nə dedin? Namiq yanında oturmuş Ramellanın başını sinəsinə sıxdı.

– Bilmirsən nə deyəcəyimi? Namiq, Slavik çox şərəfsiz oğlandı. Hələ indidə inana bilmirəm ki, həyatda o cür adamlar var. Hər şeyi dedim ona. Dedim Namiqlə aramızda hər şey olub. Yenə dedi ki, mənə qəbulsan.

– Yəni o dərəcədə alçaqdır? Namiq təəccübünü gizlətmədi.

– Hətta dedi ki, lap altı aylıq uşağın da olsa, mən razıyam.

Bu sözü eşidəndə əlim üzümdə qaldı. Dedim ki, başa düş, mən ölsəm torpağa, qalsam Namiqə gedəcəyəm. O da dedi ki, narahat olma, səni mənə veriblər. Razı olsan da veriblər, razı olmasan da.

Anası da o cür dedi. İndi sən nə fikirləşirsən, Namiq?

– Nə fikirləşəcəyəm. Fikirləşməli bir şey yoxdu. Yəqin ki, evdən də təzyiqlər olacaqdır. Bir şeyi denən ki, mən heç kimə ərə getmirəm. Bir aya kimi əsgər gedirəm. Əsgərliyin dərdi olmasa, səni də götürüb gedərəm. Amma əsgərlik qabağımı kəsibdi. Dözmək lazımdır. Bir təhər əsgərliyi çəkim gəlim, ondan sonra hər şey asandır.

– Anam bilsə, səsi aləmi başına götürəcəkdir. Ramella ayağa qalxdı və mən gedim, dedi.

Namiq Ramellanı bağrına basdı və nəmli gözlərindən öpərək:

– Qorxma, hər şey yaxşı olacaq, – dedi.

– Artıq geriyə yol yoxdu. Mən səninəm. Sənlə hər görüşümdə özümdə bir güc hiss edirəm. Salamat qal. Mən getdim.

Ramella su dolu vedrələri götürüb cığırla istər-istəməz evə doğru getdi. Namiq isə qızın arxasınca xeyli baxıb dərindən köksünü ötürdü. Arxın bası ilə üzümlük sahəsinə gedən yola düşdü.

* * *

Artur Makarla görüşüb hər şeyi ona danışdı. Xeyli fikrə gedən Makar «Ara, bu it qızını öldürüb, ömrümü türmədə çürüdüm? Bəs nə edim? Bir erməni dığası tapmırsan, gərək türk ola. Belə də iş olar. Yox, sənin canın üçün Artur, evə gedən kimi ya Ramella Slavikə getməyə razılıq verəcək, ya da onu asacağam» – deyib, Artura ürəyindən keçənləri açıqladı. Artur ürəyində sevindi. Sevindi ki, qız qorxub razılıq verəcək. Oğlundan çox Artur Ramel-

lanı gəlin gətirmək marağında idi. Artur kəndin gözü olan bu qızı bir musurman oğlanının almasını heç cür həzm edə bilmirdi. Beyni zəhərlənmiş Artur Makarın zəif yerindən, dini və milli mənsubiyyət baxımından nişan aldığına görə özündən çox razı qaldı. Artur Makardan ayrılıb evə gəldi və şad xəbər ümidi ilə səhəri gözlədi.

Makar evə gəldi. Siranuş tez stolun üstünü səliqəyə saldı ki, ərinə çay-çörək versin. Lakin Makar «iştahım yoxdur» dedi. Qapıdan girən kimi Siranuş ərinin qırımından başa düşmüşdü ki, acıqlıdı. Makar üzünü arvadına tutdu.

– Qız evdədi?

Ərinin səsinin tonundan ürəyi ayağının altına düşdü arvadın.

– Hə, evdədi.

– Bəs hanı, gözümə dəymir.

– Üst evdə, otağındadır.

– Çağır bura gəlsin. İşim var.

Siranuş yuxarı mərtəbəyə qalxdı və qızı ilə birlikdə qayıtdı.

Siranuş qızı əmrə müntəzir əsgərlər kimi stolun kənarında ayaq üstdə durdular.

– Əyləşin!

Ana-bala qorxularını büruzə verməsələr də, rənglərinin ağarması diqqətdən yayınmırdı. Hərəsi bir stul çəkib əyləşdi. Makar acıqlı-acıqlı arvadı ilə qızını yeni görürmüş kimi nəzərdən keçirib, bir anlığa fikirləşdi və özünü ələ alıb üzünü qızına tutdu.

– Qızım, belə söhbətin ata ilə qız arasında olması yaxşı iş deyil. Daha məcburam ki, məsələyə özüm qarışam. Sən Slavikə getməyə niyə razı ol-

mursan? Birincisi, qohumdur. Oğlan da yaxşı, boylu-buxunlu, göyçək oğlandı. Atası da oğlu üçün ayrı ev tikibdi. Arturla Vartuş da yaxşı insanlardı. Musurmanlar demişkən:

– Niyə Tanrına təpik atırsan?

Makar musurmandan misal gətirdiyi üçün içində özünü qınadı. Ramella isə ürəyində: «Deyəsən musurmansız atamın da işi getmir» fikirləşdi.

– Hə, cavab ver görək dərdin nədi? Kimə getmək istəyirsən, kimə söz vermisən?

Ramella başını aşağı saldı. Gözlərindən axan yaşı əli ilə silməyə başladı.

Makar səsinin tonunu qaldıraraq üzünü arvadına tutdu.

– Mən çölə çıxıb gəlirəm. Mən gəlincə qızını başa sal. Mənə cavab versin.

Qapı örtülən kimi Siranuş evin küncündə dayanıb gözünün yaşını silən və aradabir içini çəkərək hıçqıran qızına tərəf üzünü tutdu:

– Axçı, Ramella, qurban olum. Atanın xasiyyətini bilirsən, içəri girən kimi cavab istəyəcək səndən. İndi nə deyim, atana? Razısan Slavikə ərə getməyə?

Ramella əlini üzündən götürərək düz gəlib anasının qənşərində dayandı. Ətrafına boylanaraq kiminsə eşidəcəyindən ehtiyat edirmiş kimi, bir az da anasına tərəf əyildi:

– Ana, eşit və bil! Mən ölsəm də Namiqdən başqa ayrı adama ərə gedən deyiləm.

– Axçi, sus, atan eşidər, səni kəsər!

– İstəyir məni kəssin, öldürsün, xeyri yoxdur. Çox məcbur eliyəcəksiniz bir kağız yazıb qoyacam

ki, atam, anam məni zorla başqa oğlana ərə verirdilər. Ona görə də özümü öldürdüm.

Danışdıqca qızın gözlərinin az qala yerindən çıxmaq üzrə olduğunu hiss edən Siranuşun içini bir qorxu bürüdü. «Deyəsən, qızın ağlı yerindən oynayır, axı?» – fikri ananın içini sızıldatdı. Səsinin tonunu dəyişən Siranuş:

– Qızım, düzdü, musurmanlar yaxşı arvad saxlayırlar. Bir şeyi bil ki, biz xristianıq, onlarla bizimki tutmaz. Adətimiz ayrıdı.

– Hansı adətimiz ayrıdı? – Ramella anasını susdurmaq məqsədi ilə tez sual etdi.

– Bax ölü yerində biz araq veririk, musurmanlar isə vermir.

– Elə bilirsən biz düz eliyirik? Ölü yerində ölü sahibinin dərdinə şərik olmağa gedirlər, yoxsa araq içməyə? Ana, «Əsli və Kərəm» adında əhvalat eşitmisən?

– Hə qızım, eşitmişəm. O Qara Keşişin qızı Əslini deyirsənimi?

– Ay sağ ol, ana! Həmin əhvalatı deyirəm. Görürsən, «Əsli və Kərəm» əhvalatı yalan deyilmiş. İndi bax, siz də həmin Qara Keşiş kimi məni Namiqə vermirsiniz. Ana, ya Əsliynən Kərəm kimi Namiqlə bir yerdə yanıb kül olacağam, ya da başqa adama gedəsi deyiləm.

Fikrini qəti bildirən Ramella stulu götürüb bir az anasından kənar əyləşdi və başını aşağı saldı.

Siranuş qızının sözlərindən keyləşmişdi. Sanki beyni işləmirdi. Ürəyində ərini qınamağa başladı. «Qoy kimə gedir getsin. Gərək özünə bir xətər toxundura, hökumət bu yaşımızda bizi tutub doldura

qoduqluğa. Bir bizim başımızda görünməyib ki? Kənddə o qədər musurmana gedən erməni qızları var. Hamısı da xoşbəxt və gözəl yaşayır. Yox ey! Makar musurmanlara qarşı belə deyildi. O vaxtı məktəbə gedib-gələndən sonra bilmirəm kişiyə nə oldusa o vaxtdan oldu. Ondan bəri daş atıb başını tutur. Deyir: «İti görüm, qurdu görüm, amma musurmanı görməyim. Bilmirəm bu yazıq musurman bizə neyləyib? Budu, neçə ildi bir yerdə yaşayırıq, hələ bir musurmandan bir pislik görməmişik. Bu kişi niyə belə eliyir, bilmirəm?» – fikirləşən Siranuş sualına cavab axtarmağa başladığı məqamda qapı açıldı Makar içəri daxil oldu:

– Hə, nə dedi qızın? – Makar acıqlı-acıqlı arvadının üzünə baxdı.

– Deyir mən heç kimə getmirəm. – Siranuş başını aşağı saldı.

– Mən bilirəm, onun qarnının dərdini. Dur düş qabağıma! – Makar qızına tərəf çöndü.

Qorxa-qorxa ərinin qabağına keçən Siranuş, sən Allah Makar ayıbdı, qonşular eşidir. Uşaqdı, sonra başa salarıq, lazım deyil, – deyən Siranuşu kənara itələyən Makar Ramellanı qabağına qatıb çölə çıxdı.

Yıxılmağına fikir verməyən Siranuş tez özünü düzəldib ayağa qalxdı və ərinin arxasınca çölə çıxdı. Gecənin zülmət qaranlığında tövlənin qabağında qollu-budaqlı tut ağacının altına çatanda «Ramella, burda gözlə, gəlirəm», – deyən Makar tövləyə girdi. Əlində inək sağmaq üçün düzəldilmiş balaca dördkünc stol və kəndirlə geri – qızının yanına qayıtdı.

Stolu Ramellanın ayaqları yanına qoydu və dedi ki, çıx stolun üstünə.

Ramella atasına heç bir söz demədən stolun üstünə çıxdı. Kənarda dayanıb hadisənin gedişini müşahidə edən Siranuş öz-özlüyündə düşündü ki, yəqin Makar Ramellanı qorxutmaq üçün bu oyunu oynayır. Oyun olsa da, Siranuş ana kimi göz yaşlarına hakim ola bilmir, arabir içini çəkməyindən bilinirdi ki, ağlayır.

Makar əlindəki kəndirin bir ucunu tut ağacının budağına, o biri ucunu isə sivirtmə bağlayıb Ramellanın boğazına keçirtdi.

– Axçi, sənə axırıncı dəfə deyirəm, de görüm Slavikə ərə gedirsən, yoxsa Bəhlulun gədəsinə. Makarın qəzəbli səsi gecənin bağrını yararaq ətrafa yayıldı.

– Mən heç kimə ərə getmirəm. Ramella qətiyyətlə bildirdi.

– Köpək qızı, cəhənnəmə get, – deyən Makar Ramellanın üstündə dayandığı stola bir təpik vurub, darvazaya tərəf yönəldi.

Stolun kənara yıxılması ilə qızının ipdən sallana qalıb xırıldamasını görən Siranuş «Ay camaat, qızımı öldürdülər!» deyib dəli bir qiyyə çəkdi və tez özünü yetirib qızını qucağına alıb yuxarı qaldırdı.

Çığırtıya çölə çıxan Mehralı ilk əvvəl səsin hansı tərəfdən gəldiyini müəyyən edə bilmədi. Bir anlığa qaranlığa qulaq kəsilən Mehralı «Ay qonşular, kömək eliyin, qızım öldü!» sözlərinin qonşusu Makarın həyətindən gəldiyini bilən kimi tələsik özünü darvazadan içəri saldı.

Mehralı hövlnak özünü səs gələn yerə çatdırıb Siranuşu kənara itələdi və qızı qucağına alıb yuxarı qaldırdı. «Tez bıçaq gətir, bıçaq!» – dedi.

Bir azdan Siranuş əlində bıçaq geri qayıtdı.

– Ala bıçağı, Mehralı qardaş! Sənə qurban olum, qoyma qızım ölsün. Özünü itirən Siranuş gah başına döyür, gah da çığırırdı.

– Tez ol, kəndiri kəs! Mən qızı saxlayıram. Mehralı çığırdı. Yerə yıxılmış stolu tez ayaqları altına qoyan Siranuş əlindəki bıçaqla kəndiri kəsdi.

Mehralı otağa girdi və qucağındı olan Ramellanı döşəməyə uzadıb, boğazından kəndiri açdı. Siranuş tez su gətirdi və qızının üzünə çilədi.

– Anan ölsün, aç gözünü. Sənə demədimmi axırı pis olacaq bu işin? Allah Arturun evini yıxsın, – deyən Siranuş qızının başını dizi üstünə alıb ağlamağa başladı.

– Qorxma, qonşu bir az gözlə, qız özünə gələcək. Nəbzi vurur, – deyən qonşu Mehralı Siranuşa ürək-dirək verdi.

Ramella gözlərini açdı. Siranuş qızını bağrına basaraq onu öpüşlərə qərq etdi.

– Sənə qurban olum, Ramella. Allah Mehralı qardaşın balalarını saxlasın. O olmasa, ölmüşdün.

Məsələni bilən Mehralı:

– Bu nə biabırçılıqdır? Zorla qızı ərə verməyin zamanı çoxdan keçib. Makara çox ayıb olsun. Yaxşı, daha gecdir. Allaha şükür, hər şey yaxşı qurtardı. Gecəniz xeyrə qalsın.

Mehralı xudafizləşib qapıya doğru getdi.

– Balalarına qurban olum, qonşu. Allah sizi qonşuluqdan əskik etməsin.

Minnətdarlıq edən Siranuş qonşunu yola saldı.

* * *

Makar səhərə yaxın evə qayıtdı. Şüşəbənddən içəri baxanda arvadı Siranuşun çarpayının üstündə oturub fikrə getdiyini gördü. Qapını yavaşca açıb içəri girən Makar stulda əyləşib külqabını qarşısına çəkib siqaret qutusunu cibindən çıxartdı.

Acıqlı-acıqlı ərini nəzərdən keçirən Siranuş:

– Ara, dəli olmusan? Mehralı bir az gec gəlsəydi, qız çoxdan ölmüşdü.

Əlindəki papirosu külqabına çırpan Makar gözünün altı ilə arvadını süzərək:

– Gərək qoyaydınız ölüb rədd olaydı. Bu qız olmadı, mənə töhmət oldu – dedi.

– Niyə töhmət olub?

– Deyəsən, sənin də başın çatmır. Bilmirsən? Qızın bir erməni dığası tapmır ərə getməyə? Gərək türk gədəsi ola?

– Ara, Makar niyə elə danışırsan. Elə bir bizim başımızda görüküb? Gör kəndimizdə nə qədər erməni qızı musurmana ərə gedibdi? – deyən Siranuş səsinə bir mehribanlıq qatdı.

– Onlar qələt eliyib musurmana ərə gediblər. Aç qulağını, eşit, Siranuş. Qızına ağıl ver. Mən heç vaxt yol vermərəm ki, mənim qızım musurmana ərə gedə. Bu söhbəti burada qurtardıq. Eşitdinmi?! – sözünü bitirən Makar acıqlı-acıqlı ayağa qalxdı və paltarını soyunub yerinə girdi.

Səhər işə gedən Makar yolda Arturla rastlaşdı. Hal-əhval eləyən Artur Makarın kefinin olmadığını hiss etdi.

– Makar, nə olub? Elə bil xəstələnmisən?

– Yox, ara. Axşam o qancığı asmışdım ki, ölsün. O da ölməyib. Siranuşla Mehralı qurtarıb.

– Ara, bir məni əməlli başa sal görüm, nə olub? – Artur təəccüb qarışıq qorxu ilə soruşdu.

Makar axşamkı əhvalatı təfsilatı ilə söylədi.

– Makarcan, nə elədiyini bilirsən? Hökumət hamımızı qoduqluğa doldurar. Tələsmə, bir-iki aya o gədə rədd olub əsgərliyə gedir. Ondan sonra zorla da olsa, Slavik qızı qaçırdacaq.

– Ara, düz deyirsən. Bəhlulun gədəsi əsgərliyə gedən kimi Slavikə denən gecə gəlib yatdığı yerdə ağzını, əlin-ayağını bağlayıb aparsın. Biz də çölə çıxmarıq. Təki bu töhmətdən qurtaraq, – Makar dərdinə dərman tapmış adamlar kimi razılıqla gülümsündü.

– Qızı da özündən iyrəndirmə. Çalış olanları qız unutsun. Qoy qaçırılanda elə başa düşsün ki, sənin işdən xəbərin yoxdur.

– Düz deyirsən, Artur. Bu barədə bu gündən Ramellaya bir söz deməyəcəyəm.

* * *

Orta məktəbin buraxılış imtahanları arxada qalıbdı. Namiq də, Ramella da orta məktəbi bitiriblər. İmkan düşən kimi Ramella Namiqə xəbər göndərir ki, atam maşınla uzaq reysə gedibdi, axşam görüşək. Bu cür imkan düşən gecələri pambıq çöpü tayasının altında düzəltdikləri «evlərində» keçirə-keçirə yayı başa vurub payızın nəfəsini duymağa başladılar.

Hər görüşdə Ramella Namiqə danışırdı ki, o hadisədən sonra atam bu söhbətə qayıtmır, həm də elə bil peşman olubdu. Deyəsən, mənim fikirimlə razılaşmaq istəyir.

– Mən inanmıram, səni asan ata sənlə razılaşsın. Bu, heç vaxt ola bilməz. Görünür, nəsə gizli planı var. İstəmirlər ki, sən biləsən. Sən göz-qulaqda ol. Ehtiyatını əldən vermə. Həmişə çalış atanla anan danışanda onları pus.

– Düz deyirsən, Namiqcan. Mən də şübhələnirəm. Ağzından od püskürən bir adamın birdənbirə belə sakitləşməsi şübhəlidir, – deyən Ramella Namiqin sözünü təsdiq etdi.

Bir gün Ramella həyətdə hörüklənmiş buzova su verirdi. Atasının evə gəldiyini gördü. Buzovu sulayıb boş vedrəni gətirib ağacın kölgəsindəki taxçanın üstünə qoydu və evə doğru getdi. Qapıya az qalmış atasının anası ilə mehriban danışdığını eşitdi. Addımlarını yavaşıdan Ramella divarın görünməyən tərəfinə qısılıb qulaq asmağa başladı.

– Axçi, Ramella hanı?

– Bilmirəm. Ya həyətdədir, ya da arxdan su gətirməyə gedibdi.

– Siranuş, qızdan göz-qulaq ol, o gədə ilə görüşməsin. Əsgərliyinin vaxtıdı. Bir beş-on günə rədd olub gedəcək. Ondan sonra planını cızmışıq. Slavik zorla da olsa, götürüb qaçacaq.

– Makar, mən bir söz demirəm. Qorxuram apara, sonra qız qaçıb gələ, oturmaya.

– Axçi, Slavik pələng kimi oğlandı. Onun əlindən Ramella kimi on qız olsa, biri də qaça bilməz. Aparıb bir-iki gecə saxlayandan sonra canı

çıxıb oturacaq. Lap qaçıb gəlsin. Bəhlulun gədəsi Slavikin əlindən çıxmış qızı heç vaxt almaz. Ağlın olsun. Sən bircə bu beş-on günü qızını güd. Bu musurman gədəsi rədd olsun, ondan sonrası asandı, – deyən Makar stuldan ayağa qalxan kimi, Ramella cəld divarın böyründən bağçaya qaçdı və ağacların arasında görünməz oldu.

* * *

Kəndin yaşı düşən bir sıra cavanlarına rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırış vərəqəsi paylanmışdı. Hərbi xidmətə çağırılanlar içərisində Namiq də var idi.

Makar kolxoz işi ilə əlaqədar maşınla yük gətirməyə getmişdi. Bir neçə gün evdə olmayacaqdı. Ramella atasının evdə olmamasından istifadə edərək axşamüstü vedrələri götürüb su gətirmək üçün arxa getdi.

Uzaqda, arxın kənarında əkilmiş ağacların arxasında gizlənərək suvatı güdən Namiq Ramellanın əlində vedrələr suya gəldiyini görcək tez özünü həmin yerə satdırdı.

– Salam, Ramella! Necəsən?

– Ramella ətrafa boylanaraq Namiqin sözünü yarımçıq kəsdi:

– Yaxşıyam, Namiq. Atam evdə yoxdu. Bakıya gedib. Pilləkəni pəncərənin ağzına qoyacağam. Gecəyarı gələrsən. Mənim otağıma qalxarsan. Pəncərəni açıq qoyacağam. Görüb eliyərlər, qadan alım tez burdan get. – deyən Ramella Namiqə «fikir» vermədən tez vedrələri doldurub geri qayıtdı.

Gecə yarıdan keçibdi. Ətrafda zülmət bir qaranlıq var. Arabir it hürməyi gecənin sükutunu pozur. Ramella işığı söndürüb paltarlı çarpayıya uzandı. Qaranlıqda gözlərini pəncərəyə zillədi. Birdən pəncərənin ağzında hənirti duydu. Sevincək ayağa qalxıb pəncərəyə sarı getdi. Namiq səssiz pəncərədən içəri keçən kimi Ramella qollarını Namiqin boynuna dolayıb, sinəsinə sıxdı.

– Namiq, niyə gec gəldin?

– Dedim anan yatsın. Bilər, yaxşı düşməz.

– Anam çoxdan yatıbdı.

Ramella Namiqi çarpayıda otuzdurub, özü də yanında əyləşdi və başladı xısın-xısın atasının anası Siranuşa dediklərini danışmağa. Qurtarandan sonra:

– Namiq, sən düz deyirmişsən. Bunların planları var imiş – dedi.

Namiq sinəsinə söykənmiş Ramellanın gözlərindən öpərək:

– Ramella, üç gündən sonra əsgər gedirəm – dedi.

Qəfil eşitdiyi sözdən özünü çığırmaqdan zorla saxlayan Ramella: «Ola bilməz?» – dedi.

– Ola bilməz nə deməkdi? Xahişlədi? Namiq Ramellanın qaranlıqda sinəsinə axan göz yaşlarını əli ilə silərək, dodaqlarını dodağına sıxdı.

Ramella ayağa durub çarpayının üstündəki yorğan-döşəyi döşəmənin üstünə sərdi.

– Nə iş görürsən Ramella? Namiq soruşdu.

– Başa düşmürsən? Çarpayı səs eləyər, anam eşidər.

– Dəli olmusan, nədi? Mən əsgər gedirəm. Yoxsa sən toy eləmək istəyirsən?

– Hə, Namiq, mən toy eləyirəm. Ramella Namiqi döşəmədə saldığı ağ mələfəli yorğan-döşəyə salaraq özü də soyunub yanına girdi və yorğanı başlarına cəkdi:

– Namiq, mən sənənəm. Ayrı heç kimin ola bilmərəm – deyən Ramella Namiqin qoynuna qısıldı.

– Ramella, mən iki illik yola gedirəm. Başıma min cür iş gələ bilər. Nə üçün…

– Namiq, bilirsən sən əsgər gedəndən sonra ola bilər Slavik məni zorla qaçırtsın. Nə qədər nəfəsim var mən ona arvad olmaram. Sən əsgər gedəndən sonra evdə yekə bir bıçaq var, onu həmişə başımın altına qoyub yatacağam. Qorxma, mən sənənəm, sənin də olacağam. Mən istəyirəm uşağımız olsun. İşdi gücüm çatmasa, qoy uşaq səndən olsun. İndi başa düşdün?

– Ehtirasın alovunda çırta-çırtla yanan Ramellanın bədəni Namiqin əzələli qolları arasında sıxılmağa başladı. Bir azdan aşağı nahiyyədən başlayan ağrının təsiri bütün bədənini sardıqca Ramella özündən asılı olmayaraq Namiqi bütün gücü ilə daha çox özünə sıxırdı. Bədənini saran ağrının gözlənilmədən qəflətən bir anlığa kəskinləşməsindən bütün bədəni gərilən Ramella özünü saxlaya bilməyərək Namiqin qulağına:

– Yavaş, ö l d ü r d ü n m ə n i ! – desə də bir azdan ağrını əvəz edən, heç vaxt təsəvvürə gəlməyən, insanın ömürlük xoş bir xatirə kimi həmişə xatırladığı, yaşantısına dönmək arzusunda olduğu bir həzz Ramellaya ağlagəlməz xoşbəxtlik yaşadırdı. Bu xoşbəxt anları təkrar-təkrar yaşayan Ramella

ilə Namiq özlərinə gəlib pəncərədən dan yerinin söküldüyünü gördülər. Tez qalxıb paltarını geyinən Namiq:

– Səhər açılıb, xəbərimiz olmayıb. Görən olsa, biabır olacağam, – dedi.

– Niyə biabır olursan? Qorxma, görən olmaz. Namiq, heç bilirsən bu gecə mənə necə xoşbəxtlik bəxş etdin? Ən böyük arzuma çatdım. Axır ki, sənin arvadın oldum. Mənim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Qoy Slavik məni qaçırtsın. O elə biləcək ki, uşaq ondandır. Amma bilməyəcək ki, uşaq Namiqdəndir. Slavik uzağı mənim meyidimə sahib ola bilər. Bu uşağı təmiz sənin uşağın kimi dünyaya gətirəcəyəm. Bilirsən, Namiq, bu addımı niyə atdım? Atamın anama dediklərini eşitdiyim üçün belə bir işi gördüm. Get, qurban olum. Atam hələ sən yola düşənə kimi gəlməyəcək. Gedənə kimi hər gecə gözləyəcəyəm. Heç olmasa gedənə kimi bir yerdə yataq. Onsuz da səndən doya bilmirəm. Di yaxşı yol. Namiqin getdiyinə əmin olandan sonra tez aşağı düşüb pilləkəni pəncərənin ağzından götürüb həmişəki yerinə qoydu və otağına qalxdı. Yorğan-döşəyi götürüb çarpayının üstünə qoydu. Mələfədəki sarı, solğun qırmızımtıl ləkələr Ramellanın diqqətini cəlb etdi. Ləkələr Ramellaya bakirəliyi ilə vidalaşdığı anları xatırlatsa da, gəlin olmağı xoş bir duyğu kimi bədənini çulğayıb dodağında sevinc təbəssümünə çevrildi.

Ramella bulanmış mələfəni qatlayıb bükdü və aparıb gizlətdi ki, anası görməsin. Döşəyin üstünə ütülənmiş yeni mələfə sərdi və soyunub yatağına girdi. Yorğanı başına çəkdi. Burnuna Namiqin ətri

gəldi. Bədənində elə bil yara var idi. Bədəninin sızıldaması, yorğun, əzgin olması həyatında yaşadığı axşamkı xoş anların üstündən xətt çəkə bilmirdi. Ramella axşamkı anların çevrəsindəki həzlərin təmasını bədənində duya-duya yuxuya necə getdiyini bilmədi.

Sabah axşam gecə yarıdan keçəndə Namiq yenə həminki yolla, həmin qayda ilə, pilləkənlə ikinci mərtəbəyə qalxıb pəncərədən içəri daxil oldu. Gecəni Ramella ilə birgə keçirtdi. Dan yeri ağarmağa az qalmış qalxıb paltarını geyindi və Ramellanı bağrına basıb boyun-boğazını, saçlarını, sinəsini öpüşlərə qərq etdi. Ramella isə Namiqin sinəsinə damcılayan göz yaşlarını əlinin arxası ilə silərək:

– Namiq, istəmirəm gedəsən. Qal, qal, mənim yanımda. Mən səndən doya bilmirəm, – yalvarırdı.

– Ramella, harda qalım? Görmürsən səhər açılır? Sabah axşam gələ bilməyəcəm, – deyən Namiqin qarşısında diz çöküb ayaqlarını qucaqlayan Ramella hıçqırtısını içində boğaraq:

– Niyə gəlmirsən, qurban olum Namiq? Hökmən gəl. Qorxursansa, hara deyirsən mən oraya gəlim. Heç olmasa axırıncı gecəni də birlikdə keçirək. Sonra nə bilim başımıza nə gələcək. Bir də qismət ola görüşməyimiz, ya olmaya. Onu Allah bilir.

– Ramella, yoldaşlarım, qohum-əqrəba mənlə görüşməyə gələcəklər. Mən nə bilim məclis nə vaxt dağılacaqdı?

– Namiq, heç bir şey eşitmək istəmirəm. Lap dünya dağılsa da, bir saatlıq da olsa işıqlaşana kimi yatmayıb səni gözləyəcəyəm. Söz verirsənmi? Bu

canım sənə qurban Namiq. Ramella yenidən Namiqin qolları arasında – Namiqin boynuna sarıldı.

– Yaxşı, oldu. Gözlə, gələcəyəm. İndi icazə verirsənmi getməyimə? Namiq Ramelladan aralınıb pəncərəyə doğru addımladı.

– Hə, get. Yaxşı yol. Gözləyəcəyəm, hökmən gələrsən.

Namiqin getməyinə əmin olandan sonra, Ramella tez aşağıya düşüb pilləkəni pəncərənin ağzından götürüb öz yerinə – aparıb ot tayasına söykədi və gəlib yerinə girdi.

* * *

Şər qarışana yaxın qohum-əqrəba, yaxın dost-tanış Bəhlul kişinin darvazasından içəri keçir, qapıda dayanmış qonaqların yaşlıları Bəhlul kişi ilə, cavanları isə Namiqlə söhbət edirdilər.

Şölə arvadın: «A kişi, camaatı içəri dəvət etsənə. Ata-bala gələnin çöldə qabağını kəsmisiniz» deməsinə Bəhlul kişi: «Nə bilim, ay arvad, söhbətə başım qarışıb» cavabını verib üzünü yanında dayananlara tutaraq:

– Gəlin, gəlin içəri. Arvad ürəkli danışır, görək nə hazırlayıb? – deyərək hamını içəri dəvət etdi. Bir azdan məclis qızışmağa başladı. Dumanlanmış başlar bir-birinin arxasınca Namiqin sağlığına badə qaldırıb uğurlu yol diləyir, sağ gedib, salamat qayıtmasını arzuladıqca, Namiq «Sağ olun!» deyib əlindəki araq dolu stəkanı toqquşdurub içmədən yerə qoyurdu.

Namiqin içməməsini tay-tuşları irad tutsalar da, yaşca böyüklərin «Düz eləyib içmir. Səhər yol

gedəcəkdir. Həm də içkidən nə qədər uzaq olsa, bir o qədər yaxşıdır» fikri ilə Namiqə dəstək olmalarını Namiq ürəyində razılıq hissi ilə qarşılayırdı.

Arabir xəlvəti saata baxan Namiq utanmasaydı, deyərdi ki, siz yeyin-için, amma məni üzürlü hesab edin. Gözü yolda qalanım var!

Getdikcə başların dumanlanması, məclisin ahənginin dəyişməsi masabəyi Əkbər kişinin diqqətindən yayınmadı.

Ayağa qalxan Əkbər kişi, üzünü məclisdəkilərə tutdu:

– Artıq gecədən xeyli keçibdi. Səhər hamı işə gedəcək. Namiq də bir az yatıb dincəlsin. Kimin imkanı varsa, səhər gəlib Namiqlə rayona getsin. Namiqi oradan yola salsın. Bu, daha yaxşı olar. Yerlərdən «Düz deyir. Gecədən keçibdi. Qalxağın» deyən məclis əhli ayağa durdu.

Əkbər kişi ayağa durmuş adamlara üzünü tutaraq:

– Xahiş edirəm, hamı bir dəqiqə məni eşitsin.

Hamı sakitləşib masabəyinin nə deyəcəyinə qulaq asmağa başladı.

– Hamı bilir ki, Bəhlul kişi kəndimizin hörmətli ağsaqqallarından biridir. Gözəl ailə başçısıdır. Namiq də hörmətli cavanlarımızdandır. Tezdən Namiq hərbi xidmətə yola düşür. Hamının adından hərbi xidmətə yola düşən cavanlara «Yaxşı yol!» arzulayıram. Namiq, vətənə layiq övlad ol. Azərbaycanın adını uca tutmağa çalış. Gedib küncdəbucaqda başını girləməyə çalışma. Həzi Aslanov, Mehdi Hüseynzadə, Gəray Əsədov və başqa qəhrəman oğullarımızın adına layiq əsgər ol. Elinə-oba-

na, vətəninə baş ucalığı gətirən oğul ol. Mən əminəm ki, bizim arzuladığımız əsgər olacaqsan! Fikrini yekunlaşdıran Əkbər kişi, «İndi gecəniz xeyrə qalsın», – deyib evdən qapıya çıxdı. Hamı da onun arxasınca çıxdı. Çöldə hamı bir-bir Namiqlə öpüşüb ayrılaraq iki bir, üç bir darvazadan çıxıb yola düzəlirdi.

Hamını yola salandan sonra «A bala, get yat, tezdən duracaqsan» deyən Bəhlul kişi Namiqi qapıda qoyub öz otağına keçdi.

Atasının evə girdiyinə və bir azdan işığı söndürdüyünə əmin olan Namiq yavaşca darvazadan çıxıb dalda yerlərlə yola düzəldi.

Yatmayıb pəncərənin ağzında dayanıb çölə diqqət kəsilən Ramella pəncərədən içəri keçən Namiqi görcək tez onun əlindən tutub içəri saldı və yavaşca pəncərəni örtdü.

– Bəs niyə gec gəldin? Sən gələnə kimi neçə dəfə ölüb-dirildim.

– Qonaqlar indi dağıldı. Mən neyləyə bilərəm. Onlar gedən kimi mən də özümü sənə çatdırdım.

– Yaxşı eləmisən, qurban olum. Səhərə az qalıb. Soyun, tez soyun, yataq – deyən Ramella paltarını çıxartdı. Bir azdan dəli bir ehtirasın qoynunda bir-birinə sarılaraq xoşbəxt anlar ilə sanki bir azdan qapını döyəcək ayrılığa meydan oxuyur və acıq verirdilər.

Dan yerinin ağartısı pəncərədən görünən kimi, Namiq qoynuna sığınmış Ramellanın gözlərindən öpərək:

– İcazə ver, durum. Dan yeri ağarır, – pıçıldayan Namiqə

– Qadam alım, qoy bir az da belə durum. Bir dəqiqə artıq sənin qolların arasında qalmaq neçə il ömrümü uzadır, – deyən Ramella az qalırdı ki, əriyib Namiqin bədəninə hopa. Namiq qızın bu cür istəyini gördükcə içindən bir fikir keçirdi: «Ağlım kəsmir ki, mən gələnə kimi Ramella ayrılığa dözə bilsin. Özü də təzyiqlər altında. Heç inanmıram».

– Dur, qadan ürəyimə, dur. Bir azdan hər tərəf işıqlanacaq. Fərqi yoxdu nə qədər qalsan da, axırda getməlisən. Ramella Namiqin onun lüt bədənini sinəsinə sıxmış qolları arasından yavaşca çıxaraq qalxıb paltarını geyindi.

Namiq də geyinib pəncərənin ağzına gəldi.

– Ramella, sənə yazacağım məktubu Telmana göndərəcəyəm. Susannaya versin, o da gətirib sənə verər. Bir də görəcəksən ki, vaxt gəldi keçdi. Gözlə, qayıdacağam.

– Gözləyəcəyəm, Namiq. Qorxma, sən gəlincə bir oğlumuz da olacaq.

– Nə bilirsən oğlumuz olacağını?

– Ürəyimə damıbdı.

Hər ikisi güldü və qucaqlaşaraq bir-birinin nəfəsini boyun-boğazlarında hiss etdilər.

– Yaxşı, di mən gedim – deyən Namiq sonuncu dəfə Ramellanın təzə qönçələnmiş dodaqlarından öpərək pilləkənlə aşağı düşdü – bir daha «Gözlə, qayıdacağam» deyib bir anda dalda yerlərlə gözdən itdi.

Ramella tez aşağı düşüb pilləkəni aparıb yerinə qoyandan sonra otağına qalxıb yerinə girdi. Göz yaşlarını saxlaya bilməyərək yorğanı başına çəkdi.

* * *

Günortadan bir az keçmiş, Susanna darvazanı döyüb içəri keçdi. Əlində qab yuyan Siranuş darvazanın döyülüb açılmasına çönüb darvazaya baxdı. Susannanın içəri girdiyini görən kimi əlindəki qabı yerə qoyaraq qəddini düzəldib, ayağa qalxdı. «Xoş gəlmisən, qızım! Həmişə sən gələsən. Niyə heç Siranuş xalanı yada salmırsan?» deyib qollarını açaraq Susannanı qucaqlayıb bağrına basdı və hər iki üzündən öpdü. Susanna Siranuşla görüşəndən sonra «Ramella evdədirmi, Siranuş xala?» soruşdu.

– Hə evdədir. Yaxşı gəlmisən, qızım. Ramella elə bil ağrıyır, neçə gündür heç özündə deyil. Elə bil qızın huşu üstündə deyil. Deyirəm, qızım, gəl səni doxtura aparım. Deyir yox, ana, heç bir şeyim yoxdur. Bir az ağrıyıram, o da keçib gedər. Nə bilim, qızım, elə qalmışam naəlac…

– Fikir eləmə, Siranuş xala. Hər şey yaxşı olar. İndi görüşəndə soruşaram görüm vəziyyəti necədir. Həkimlik iş olsa, zorla da olsa apararıq.

– Hə, Susanna, başına dönüm. Bir gör dərdi nədi? Sən də başa sal, a qızım. İstahı da yoxdur.

– Yaxşı, oldu, Siranuş xala. Yəqin yuxarıda, öz otağındadır, eləmi?

– Hə qızım, öz otağındadır – deyən Siranuş Susannanın qapıdan içəri salıb, özü yumaq üçün yarımçıq qoyduğu qabların yanına qayıtdı.

İkinci mərtəbəyə qalxan Susanna qapını açıb içəri girəndə Ramellanı yatmış gördü. Ayağının ucunda yavaş-yavaş çarpayının yanına gəlib dayandı. Ramellanın yatışına xeyli tamaşa etdi. Ağ yor-

ğan-döşəkdə hər şeydən xəbərsiz uzanmış qızın qara saçlarının bir hissəsi balınca dağılmış, bir hissəsi də qar kimi ağappaq olan açıq sinəsində şaftalı çiçəyi rəngində olan köynəyini qabartmış yumru döşlərini sanki yad baxışlardan qoruyurdu. Qara qaşları, uzun kirpikləri girdə sifətinə bir gözəllik verirdi. Arabir nazik dodaqlarında dalğalanan təbəssümünün sifətinə yayılması, qızın gözəlliyini birə on qat artırırdı.

Susanna Ramellanın yatışına bir xeyli tamaşa edəndən sonra əyilib dodaqlarından öpdü. İsti nəfəsdən gözünü açan Ramella Susannanı yanında görcək sevincək ayağa durub rəfiqəsini aylar-illər həsrətlisi kimi qucaqlayıb bağrına basaraq öpüşlərə qərq etdi.

– Nə yaxşı gəlmisən?

– Dedim gedim bir bacımı yoxlayım, görüm necədir?

– Sağ ol, hələ ki yaxşıyam.

– Ramella, bir şey soruşum, düzünü de. Bicbic güldü Susanna.

– Sənə də düzünü demiyəndə, kimə düzünü deyəcəyəm. İndiyə kimi yalan danışdığımı eşitmisən? Ramella incik-incik Susannanın üzünə baxdı.

– Yuxuda gülürdün. Namiqi görürdün yuxuda?

– Düz tapmısan. Yerə girən kimi Namiq yuxuma gəlir. Elə yenicə görüşmüşdük, ayıldım. Hətta elə bildim məni öpən Namiqdir. Demə, sən imisən.

– Yuxuda gülümsədiyini görən kimi başa düşdüm ki, Namiqlə «danışırsan». Ona görə dodaqlarından öpdüm ki, elə biləsən Namiqdir.

– Düz bilmisən. Elə bil adamın ürəyindən keçənləri bilirsən. Susanna, Namiq gedəndən heç dözə bilmirəm. Hər günüm bir ilə dönür. Hətta bir-iki dəfə istəmişəm özümə qəsd edəm. Namiqə görə qalmışam.

– Axçi, sən dəli olmusan, nədi. Əsgərlikdi də, bir də gördün qəflətən çıxdı böyürdən. Bax, bunun kimi, – deyən Susanna qoynundan çıxartdığı məktubu Ramellaya uzatdı.

Zərfin üstünü oxuyan Ramella tez zərfin ağzını açdı. Zərfin içərisindən çıxan məktubun arasında hərbi formada olan Namiqin şəklini görcək Susannanı qucaqlayıb öpdü. Susanna isə:

– Axçi, məni yox, onu, – əlindəki şəkili öp, – deyərək gülməyə başladı.

Ramella əlindəki şəkli öpüb ürəyinin başına qoydu; «Məni niyə tək qoydun, Namiq? Dərdin ürəyimə gəlsin. Ayrılığına dözə bilmirəm» deyərək yanaqlarından axan göz yaşlarına hakim ola bilmirdi.

– Axçi, məktubu oxu görək nə yazır? – Ağlasan da, ağlamasan da, Namiq iki ildən sonra gələcəkdir.

Susanna çarpayıda əyləşdi və Ramellanı da yanında otuzdurdu. Ramella toxtayıb, özünü ələ alandan sonra əlində tutduğu məktubu oxumağa başladı:

– Əzizim Ramella! Bizi Almaniya Demokratik Respublikasına gətirdilər. Artıq əsgərik. Əsgər paltarında şəkil çəkdirdim. Birini sənə göndərirəm.

Ramella, bir dəqiqə də olsun yadımdan çıxmırsan. Sənlə keçirtdiyim son gecələrin xoş anları, xatırimdən çıxmır. Elə çox istəyirəm ki, bir quş olub yanına uçaydım. Bu iki ili sənsiz necə keçirəcəyəm? Ayrılığına dözmək olmur, Ramella.

Mənə məktub yazanda ver Susannaya, versin Telmana. O da gətirib rayondan poçta salsın. Kənddən məktub yola salsan, bilib səni incidərlər. Mən sənə məktub yazanda Telmana yazdığım məktubun içərisinə qoyub göndərəcəyəm.

Ramella, yaz görüm atangil səni incitmir ki? Bir təhər döz. Çətini mən gələnə kimidir. Daha nə yazım. Sənin sağlığın. Məndən Susannaya və Telmana salam deyərsən.

Öpürəm səni.

Səni sevən Namiq.

1968-ci il

Ramella məktubu oxuyub qurtaran kimi öpüb gözünün üstünə qoydu və «Səni yazan barmaqlara bax bu gözlərim qurban olsun» deyib başını rəfiqəsinin çiyninə söykədi.

– Axçi, məktubda oxudun ki, Ramella, sənlə keçirtdiyim axırıncı iki-üç gecəni unuda bilmirəm. Məni başa sal görüm, o nə deməkdir. Susanna Ramellanın çiyninə söykənmiş qara saçlarını sığallamağa başladı.

Ramella başını qaldırıb dolmuş gözlərini rəfiqəsinin gözlərinə dikdi.

– Yoxsa…

Susanna Ramellanın pörtmüş sifətinə və gözlərinin içinə baxdı.

Ramella yalvarıcı, günahının bağışlanmasını, imdad diləyən baxışlarını utanaraq aşağı dikdi və qəhərini boğazında boğaraq: «Onda günah olmadı, mən belə istədim. Onun üçün peşiman deyiləm», – dedi.

– Axçi, dəli olmusan, nədi? Uşağa qalsan, heç bilirsən nə olacaqdır? – Susanna canıyanmcılıqla soruşdu.

– Susanna, Slavikin acığına elədim. Qulağımla eşitmişəm ki, Namiq əsgər gedəndən sonra zorla da olsa məni Slavikə ərə verəcəklər. Mən də ona görə bu işi tutdum ki, son məqamda açıb deyəm, məni başqasına ərə verməsinlər. Uzaq başı məni öldürərlər. Ölümdən qorxmuram, bacım. Namiq üçün ölümə gedərəm. Bu mənim üçün xoşbəxtlikdir.

– Ramella, mənim sənə sözüm yoxdur. Bir onu deyə bilərəm ki, Allah özü sənə kömək olsun. Yaxşı, mən gedim.

Susanna ayağa durdu.

Ramella Susannanı ötürmək üçün çölə çıxdı. Həyətdə təndir odlayan Siranuşu görən Susanna gülə-gülə ona tərəf gəldi və dedi:

– Siranuş xala, görürsən Ramellanın kefi yaxşıdır. Görünür, onun dərdi məni görmək imiş.

– Sağ ol, ay qızım. Allah ağzından eşitsin. Təki özün dediyin kimi, elə onun dərdi səni görmək olsun.

Siranuş razılığını bildirdi.

Susanna Siranuşla xudahafizləşib Ramella ilə darvazadan çölə çıxdı.

– Bir çətinliyin olsa, xəbər elə. Özündən muğayat ol. Darıxanda bizə gəl.

– Gələ bilmirəm. Qorxuram yolda o alçağa rast gələm. Heyvandır, elə bir şeyi əzbərləyib ki, səni mənə veriblər.

– Denən mən səni sevmirəm.

Güldü Susanna.

– Deyirəm. Elə bilirsən başa düşür? Qandırmaq olmur.

– Allah, adamı elə qanmazdan qorusun, – deyən Susanna Ramella ilə xudahafizləşib ayrıldı.

* * *

Namiq əsgər gedəndən sonra Ramella sərvaxt yatmağa çalışırdı. Namiqin əsgər getməyindən bir aydan bir az keçmişdi.

Gecə ailə axşam yeməyini yeyib qurtarandan sonra Makar çölə çıxdı. Siranuş isə çarpayıda Makarla öz yerini hazırladı. Ramella üst mərtəbəyə, öz otağına qalxdı. Paltarını soyunub işığı söndürdü. Yerinə uzanıb əlini balıncın altına uzatdı. Bıçağın orada olduğunu yoxladı və ürəyi arxayın oldu. Atasının və Arturun ailəsi tərəfindən narahat edilmədiyinə görə Ramella çaş-baş qalmışdı. Ağlına gəlirdi ki, bəlkə, atam peşiman olub, qızına təzyiq etdiyi üçün. Bəlkə, qızının Namiqə getməyinə razıdır. Yox, bu ola bilməz. Atam musurmana nifrət eləyir. Nə isə, bu susmaqda bir əmma var. Allah sonrasından saxlasın. Bu cür düşüncələr məngənəsində necə yuxuya getdiyini bilmədi:

Zülmət qaranlıqdı. Göz-gözü görmür. Əlini atıb darvazanın dəstəyindən tutub içəri itələdi. İçəri keçib ətrafı dinşədi. Heç bir səs-səmir eşitməyib səssiz addımlarla evə yaxınlaşdı. Arxayın olandan sonra pilləkənlə ikinci mərtəbəyə qalxdı. Şüşəbəndin qapısını ehmalca aralayıb içəri keçdi. Qapının ağzında dayanıb nəfəsini dərdi, şüşəbəndi və içərini dinşədi. Öz ürəyinin döyüntüsündən başqa heç bir şey hiss etmədi. Yavaşca əlini qapının dəstəyinə uzadıb qapının açıq olub-olmadığını yoxlamaq üçün ehmalca qapını içəri itələdi. Qapı açıq idi. Qapının açıq olduğunu görüb ilan ehtiyatı ilə otağa keçdi. Barmağının ucunda, nəfəs almadan belə çarpayıya yaxınlaşdı. Qızın açılmış sinəsində açıq yumru döşlərinin gilələri qaranlıq otaqda gözlərinə girərək içində vəhşi bir ehtirasin birdən-birə baş qaldırmasına səbəb oldu.

Bir anlığa nə üçün gəldiyini unudaraq, qızı qucaqlayıb döşünü ağzına saldı. Qəflətən kürəyindən bədəninə yayılan ağrıdan «Vay mama, öldüm!» deyib qışqıraraq açıq qalmış qapıya doğru getməyi bir göz qırpımında baş verdi. Pilləkəndə ayağı büdrəyərək yıxıldı və dığırlanıb pilləkənin ayağında uzanaraq zarımağa başladı. Hələ də nə baş verdiyini dərk eləyə bilməyən Ramella köynəkdə, əlində bıçıq ayaq üstdə uçunurdu.

Səsə tez Makarla Siranuş işığı yandırıb təntimiş özlərini pilləkənin ayağında paltarı qana bulaşmış və ağzı üstdə uzanmış Slavikə yetirdilər. Tez Slaviki öz otaqlarına gətirdilər və paltarını dəyişib, qanı kəsməyə çalışsalar da, bir şey çıxmadığını görən, Makar qapıda «QAZ-51» maşınını işə salıb

Slaviki kabinədə, yanında əyləşdirdi və rayona – xəstəxanaya sürdü.

Özünü itirən Siranuş özünə gələndən sonra yuxarı qalxdı və qızının otağına girib işığı yandırdı. Qızın köynəkdə, əlində bıçaq hələ də ayaq üstdə matdım-matdım baxdığını gördü.

– A qarabaxt, bu nə iş idi bizim başımıza açdın – deyən Siranuş qızının qımıldanmadığını görüb tez aşağı düşüb su gətirdi və bir təhər bir az su içirdəndən sonra, yavaş-yavaş qızın özünə gəldiyini görüb paltarını gətirdi ki, geyinsin.

Ramella paltarını əyninə geyindi, anasının qolundan tutaraq çölə çıxdı və əl-üzünü yuyub evə qayıtdı Ana-bala stulda əyləşdilər.

– Yaxşısan? – anası soruşdu.

– Hə, özümə gəlirəm. – Ramella cavab verdi.

– Sən otur, ya da uzan. Mən gedib Artura xəbər verim ki, Makarın dalınca rayona getsin, – deyən Siranuş çölə çıxdı və əlinə bir ağac alıb Arturgilə yollandı.

* * *

Həkim xəstəni təcili əməliyyat otağına götürməyi tapşırdı. Makar həkimə nə qədər yalvar-yapış etdisə, yenə mümkün olmadı. Həkim rayon Daxili İşlər Şöbəsinə məlumat verdi. Əməliyyatdan salamat çıxan xəstəni palataya yerləşdirdilər. Xəstə özünə gələndə ağ xalatı çiyninə atmış müstəntiq Slavikdən hadisə barədə sorğu-sual edərək qeydlər aparırdı. Müstəntiqin müxtəlif variantlı suallarına baxmayaraq Slavik elə dediyini dedi ki, tövlədə yıxılmışam, kürəyimə armatur girib. Müstəntiq xəs-

tə olduğu üçün üstünü vurmayaraq izahatı yekunlaşdırıb Slavikə qol çəkdirərək ayağa qalxdı və xudahafizləşib palatadan çıxdı.

Slavik sağalandan sonra, istintaq zamanı hər şey aydınlaşdı. Üzləşmə zamanı Makar qızının qaçırılması üçün Arturla razılığa gəlmələrini tamamilə dandı. İstintaq Slavikin gecə Makarın evinə oğru kimi daxil olmasını, ikinci mərtəbəyə qalxaraq Ramellanın otağına girməsini və yatdığı yerdə qıza təcavüz etməsini aydınlaşdıraraq, işi sənədləşdirib məhkəməyə göndərdi.

Məhkəmə zamanı Makar və Ramella Slavikin bağışlanmasını xahiş etdi. Arturun qazanıb-qoyduğu əlindən çıxandan sonra Slavik iki il azadlıqdan məhrum edildi. Artur yanırdı. Tüstüsü təpəsindən çıxırdı. Oğlunun heç bir şeydən güdaza getməsinə dözə bilmirdi. İllah da Makarın və arvadı Siranuşun hər şeyi danmalarını fikirləşdikcə Arturun cızdağı çıxırdı.

Slavikə iş kəsiləndən sonra Makar Arturun gözünə görünməməyə çalışırdı. Bütün bu işlərin günahkarı qızı Ramellanı bilirdi. Slavik tutulandan sonra Makar qıza bir söz demirdi. Qorxurdu ki, qıza bir söz deyər, Slavikin başına gələn oyun onun da başına açılar.

* * *

Ramella özünü evin arxasına, ağacın daldasına güclə çatdırdı və başladı öyüməyə. Qusandan sonra əl-üzünü yuyub toxtadı. Bir az qapıda hərlənib otağına qalxdı. Həm sevindi, həm də nə edəcəyi barədə düşünmək istədi. Amma başqa cür düşün-

məyi bacarmadı. Sevinc hissi bütün beyninə, şüuruna hakim kəsilmişdi. Yerinə uzanıb əlini köynəyinin altından salaraq qarnının üstündə gəzdirməyə başladı. Qarnının böyüdüyünü hiss etdi. Namiqə bu barədə yazmaq lazımdır. Qoy sevinsin. Az vaxtdan sonra Namiq ata, mən isə ana olacağam. Ayağa durub paltarını dəyişib çölə çıxdı.

Aradan dörd aya yaxın bir vaxt keçmişdi. Siranuş qızının bədənində olan dəyişikliyi ilk vaxtlar başa düşmədi. Sonra ağlına nə gəldisə: «birdən olmaya…», – deyə fikirləşəndə az qaldı ürəyi gedə. Özünü ələ alıb qızını yanına çağırdı.

– Eşidirəm, ana!

– Qızım, bir az yaxın gəl, işim var.

Əlindəki su dolu vedrələri taxçaya qoyan Ramella anasının bir-iki addımlığına yaxınlaşdı və sual dolu baxışlarla Siranuşa baxdı.

– Axçi, düzünü de, mən səndən şübhələnirəm. Olmaya…

– Hə ana, düz bilmisən. Mən…

Sözünün dalını bitirə bilməyən Ramella doluxsunmuş baxışlarını yerə dikdi.

Elə bil Siranuşun başına bir qazan qaynar su tökdülər. İki əli ilə başına vuraraq:

– Mən sənin əlindən başıma haranın daşını salım, a qancıx. Arturun gül kimi uşağını bədbəxt elədin, indi də bu qalmışdı. Yaxşı, bu bic kimdəndir? Olmuya o musurman gədəsindəndi?

– Hə, ondandır, – deyən Ramella güclə səsini çıxartdı.

Siranuş qəflətən ayağa qalxıb Ramellanın saçından tutub evə doğru sürüyüb otağa saldı və

qapını bağladı. Həyətə qayıdıb bir ağac qırığı tapıb geri qayıtdı. Qapını açıb içəri girdi.

– İt qızı, it! Sən başımıza açmadığın oyun qalmadı. İndi biz kəndin içinə nə cür çıxaq. Erməni tapmırdın, gərək musurmannan bic doğasan… deyib Ramellanı yerə yıxılınca döyməyə başladı. Qızın çığırtısına fikir verməyən Siranuş Ramellanın qolları yanına düşəndə, elə bil özünə gələn ana, ağacı qapıdan çölə tullayaraq tez su gətirib qızın üzünə çiləməyə başladı. Gözünü açıb zarımağa başlayan Ramellanın başını dizi üstünə alan Siranuş ağlaya-ağlaya:

– Anan qurban, bu nə iş idi tutdun. Kənddə nə qədər erməni var bizə lağ edəcək. Bizi binamus kimi göstərəcəklər. Atan bilsə, ürəyi partlayıb öləcək. İndi biz neyniyək?

Siranuş qızının qollarından tutub bir təhər ayağa qaldırdı. Qoluna girib zorla pilləkənlə yuxarı, otağına çıxartdı və paltarını soyundurub yerinə uzandırdı.

Gecəni ilan vuran yatdı, Siranuş yatmadı. Bu ləkəni üstlərindən necə götürmək barədə düşünüb daşındı. Çətinlik onda idi ki, Siranuş elə eləmək istəyirdi ki, Makar hadisəni bilməsin.

Səhər açılanda evin, qapı-bacanın işini sahmanlayandan sonra Siranuş Ramellanın yanına qalxdı. Qızı qaldırıb aşağı düşürtdü. Ramella əl-üzünü yuyandan sonra, anası çay-çörək qoyulmuş stolun ətrafında oturdu və qızını da yanına dəvət etdi. Ramella bir stəkan şirin çay içəndən sonra qalxdı ki, stolun üstünü yığışdırsın, lakin anası qoy-

madı və stolun üstünü özü yığışdırıb qızı ilə üzbəüz əyləşdi.

– Ramella, qızım, atan bilməmiş səhər gedək rayona, həkimə, – rədd eləyək getsin.

– Bütün daxili gücünü toplayıb kəskin baxışlarla anasının üzünə baxan Ramella qətiyyətlə dedi:

– Ana, bil və eşit! Mən heç hara getməyəcəyəm. Bu uşağı da mən özüm istəmişəm. İstəyirsiniz öldürün, istəyirsiniz mənə dəyməyin, bu sizin öz işinizdir. Aborta məcbur etsəniz, şikayət eləyəcəyəm. Mənim arzum ana kimi bu uşağı sağ-salamat dünyaya gətirməkdir. Bildin? Bir də xahiş edirəm bu söhbətə qayıtmayaq. Sənlə bu cür danışdığım üçün məni bağışla. Ana və qadın kimi başa düş ki, bu cür danışmaqdan başqa ayrı yolum yoxdur.

Ayağa qalxıb qızının başını sinəsinə sıxıb göz yaşları içərisində, Ramellanın saçlarını sığallaya-sığallaya:

– Anan sənə qurban, sən çalış atanın gözünə görünmə. Mən atanı yola gətirim ki, burdan köçək. Bundan başqa ayrı yolumuz yoxdur. Biz burda yaşaya bilmərik. Bir tərəfdən Arturgillə düşmənçilik, bir tərəfdən bu uşaq məsələsi. Daha bizim bu kənddə yaşamaq haqqımız yoxdur. Başa düşdünmü, qızım? – Siranuş qızından soruşdu.

– Ana, burdan beləsini siz bilirsiniz.

Ramella başını aşağı dikərək, anasının üzünə baxmaqdan çəkindi.

Ana qızından ayrılıb çölə çıxdı. Dən töküb bir beçə tutub kəsdi. Axşama yemək hazırlamağa başladı. Artıq çöl işlərini qurtarandan sonra süfrəni hazırlamağa başladı. Hələ Makarın çöldən gəlmə-

yinə xeyli var idi. Ramellanı çağırdı və yeməyini çəkib stolun üstünə qoydu.

– Axçi, sən çörəyini ye, çayını iç, atan gəlməmiş çıx yuxarı.

Ramella anasının bu qayğısından mütəəssir olub, yediyi kötəklərin ağrısını unutdu və stulda əyləşib tez çörəyini yedi və sonra qalxıb üst evə, öz otağına getdi.

Axşamdan xeyli keçmiş Makar maşını darvazadan içəri saldı və əllərini yuyub cib dəsmalı ilə qurulaya-qurulaya evə daxil oldu və stolun üstünün hazır vəziyyətdə olduğunu görəndə içində Siranuşa göstərdiyi qayğıya görə «Sağ ol, arvad!» dedi.

Arvadı ilə üz-üzə əyləşən Makar yemək boşqabını qarşısına çəkdi. Tez Siranuş ayağa qalxdı və şkafın gözündə üç kiloqramlıq bankalardan tut arağı ilə dolu olanın birini gətirib stolun üstünə qoydu. Geri qayıdıb iki qədəh da gətirib bankanın yanına qoydu. Siranuş qədəhləri araqla doldurub:

– Ara, götür! – qədəhini götürüb Makarın üzünə baxdı.

– Axçi, bu nə münasibətlədir? – qədəhi götürüb arvadının qədəhsı ilə toqquşdurub sualına cavab gözlədi.

– Heç bir şey. Elə həmişə qanın qara olur. İstəyirəm bir balaca kefin açılsın. Arvadın borcu ərinin qayğısına qalmaqdır. Sənin kimi kişini hardan tapardım? Sənin o qabarlı əllərinin sağlığına içək, – deyən Siranuş qədəhini başına qaldırdı.

– Sağ ol, Siranuş. Sənin sağlığına, – deyən Makar da qədəhini başına qaldırdı.

Arağın təsirindən ər və arvadın başları dumanlandıqca, kefləri də açılırdı. Makarın kefinin tam durulduğuna əmin olan Siranuş artıq vaxtın çatdığını hiss etdi. Ona görə də Makara bir qədəh da araq süzərək «Götür, içək!» deyib özünün yarımçıq qədəhini ərinin qədəhsı ilə vuruşdurub başına qaldırdı.

– Makar, ağlıma bir fikir gəlib. İstəyirəm sənə də deyim. Görüm ağlın nə kəsir? – deyən Siranuş ərinin üzünə baxdı.

– Nə fikir, arvad. Makar siqaret çıxardıb yandırdı.

– Deyirəm, a kişi, gəlsənə bu kənddən köçək.

Siqaretinə bir qullab vurub acgözlüklə içinə çəkib çölə üfürən Makar maraqla soruşdu:

– Haraya köçək?

– Pyatiqorskiyə.

– Nəyə görə, bu fikrə düşmüsən, arvad?

– Bilirsən kişi, bir qohumumuz var idi, onunla da düşmənik. Yazığın gül kimi balası zay oldu. Mən xəcalətimdən onların üzünə çıxa bilmirəm.

– Elə mən də sənin kimiyəm, arvad. Düzdü, boynumdan hər şeyi atsam da, vicdan əzabından xilas ola bilmirəm. Arturun gözünə görünməmək üçün işə oğurluq etmiş adamlar kimi çəpərlərin dibi ilə gedib-gəlirəm. Yaxşı fikirdir, mən də razı. Köçdüyün yerdə bir tanış, qohum olsa, daha yaxşı olar. Bizim elə bir adamımız yoxdur axı.

– Nə gəlib qohumumuza, tanışımıza.

– Kimdi, axçi?

– Kənddən köçən ermənilərin çoxu, Raçik, Buğus, Levon, Seroj hamısı Pyatiqorskiyə köçmə-

yiblərmi? Ondan başqa xalam qızı Roza, əri Zador orada yaşamırlarmı? Niyə, bilmirsən?

– Axçi, heç ağlıma gəlmir. Düz deyirsən. Bu Slavik tutulandan sonra tamam başım itibdi.

Bu qancıx bizim başımıza oyun açdı. Gör kimin ağlına gələr ki, qız başının altında bıçaq saxlasın. Nə isə yadıma düşəndə qanım itin qanına dönür.

– A kişi, sədrdən icazə al, get Zadorgilə. Zador neçə ildi orada yaşayır. Tanışı-zadı çox olar. Kömək eləsin, bir ev tapıb alın. Sonra yığışıb gedək.

– Yaxşı fikirdir. Bəs Zadorgilin ünvanını bilirsənmi?

– Artur çox gedib-gəlir. Onlarda olacaq. Qretaya deyəcəm, öz adına alıb mənə versin. Neynirsən, sən ünvanı tapmağı mənə çıx.

– Oldu, arvad. Ünvanı tap. Səhər bir ərizə yazıb sədrdən icazə alım, birisi gün yola düşüm. Burda bir neçə ay da qalsam, xəcalətimdən öləcəyəm.

Siranuş ürəyində «Yazıq Makar, hələ nədən xəbərin var. Bilsən özünü ağacdan asarsan, ay yazıq» fikrini keçirərək: – Durum yeri hazırlayım yataq. Gecə yarıdan keçibdir, – deyib çölə çıxdı.

* * *

Makarın getdiyi bir aya yaxın idi. Hələ bir xəbər-ətər yox idi. Siranuş yaman narahat idi. Qorxurdu ki, kişinin başına bir iş gələr. Gecələr də yuxusu ərşə çəkilirdi. Bir yandan da qızın qarnı gündən-günə böyüyürdü. Uşaq doğulana kimi Makardan sirri necə gizlətmək barədə plan düşünürdü.

Birdən fikirləşirdi ki, gec-tez Makar biləcəkdi. Gəl məsələni bəri başdan Makara aç, de. Bir də qorxurdu ki, kişinin əlindən bir xata çıxar. Yox, qoy qalsın. Köçəndən sonra orada deyərəm. Qonum-qonşuya da bir yalan uydurarıq ki, əri avtomobil qəzasında ölübdü. Bu fikri özlüyündə bəyənən Siranuş tapdığı çıxış yolu üçün ürəyində sevindi.

Axşam oturub televizora baxan Siranuş gözlənilmədən Makarın qapıdan içəri girdiyini görcək sevincək ayağa durdu və Makarı qucaqlayıb üzündən öpdü.

– A kişi, ölüb-dirildim. Bir aydı harada qalmısan? De görüm, əli dolu gəlmisən, yoxsa yox?

– Arvad, yaxşı bir ev almışam. Hazırlaşın, on-on beş günə köçürük. Gözəl yerdi. Heç olmasa, qalan ömrümüzü adam kimi yaşayarıq.

Səhər yorğan-döşəkdən başqa nə var hamısını satmaq lazımdır. Yükümüz yüngül olsun. Gedəndə hamısını orada alarıq.

– Makar, heç demədin Rozagil necədir?

– Hamısı yaxşıdır. Bəs qız hanı?

– Qız yatır. Gündüz o qədər işləyir ki, yazıq yorulub əldən düşür. Sən Allah Makar qızı çox istə. Sən gec gəldin, ağlayıb özünü öldürürdü. Vallah deyir ki, atama bir şey olsa, o saat özümü öldürərəm. Atasız bir gün də yaşamaram. Qurban olum, ay ata, sənin səsinə. Sən yoxsan, elə bil evimiz suyu sovulmuş dəyirmana oxşayır.

– Onun boynu sınsın. Onu mən onsuz da çox istəyirəm. Mən də onun xoşbəxt olmağı üçün çalışmırammı?

– Yemək hazırlayım? – Siranuş soruşdu.

– Yox. Yorulmuşam, yatacağam. Makar ayağa qalxıb çarpayıya yaxınlaşdı.

***

Makarla Siranuş yorğan-döşəkdən və paltarlarından başqa nə var idisə yavaş-yavaş dəyər-dəyməzinə satmağa başladılar. Az bir vaxtda köçməyə hazır oldular.

Susanna tez-tez Ramellanın yanına gəlir, vəziyyətlə tanış olur və təskinlik verirdi. Ramella Susannaya anası ilə söhbəti danışandan sonra rəfiqəsinin də fikrini öyrənmək istədi.

– Axçi, Siranuş xala düz fikirləşir. Bura kənd yeridir. Ata-anana, özünə də yaxşı deyil. Pis baxacaqlar. Ona görə köçmək yaxşı fikirdir. Orada – şəhərdə kim-kimi tanıyır.

– Düz deyirsən, Susanna. Mən sənlə razıyam. Namiq gələndə necə olacaq? Bax, onu bilmirəm. Telmana deyərsən, hər şeyi ona yazar. Oradan məktub yazacağam sənə. Cavab yazarsan, yaxşımı? Ramella kövrəldi.

Susanna tez durub rəfiqəsini qucaqlayıb könlünü oxşamağa başladı.

– Axçi, dəli olmusan? Niyə kövrəlirsən. Bu palçıqlı kənddən, pambıq yığmaqdan, kətmən vurmaqdan canın qurtarır. Kurort yeridir. Ye, iç, özün üçün gəz. Nə istəyirsən?

– Düzdü, sən deyənlə razıyam. Onu bilirsənmi ki, orada Susannanı tapa bilməyəcəyəm.

– Heç kefini pozma. Orada o qədər Susanna, Namiq var ki, bir az öyrənəndən sonra heç bizi yada da salmayacaqsan. Musurmanların bir yaxşı sözü

var: «Molla aşı gördü, “Quran”ı yaddan çıxartdı». O gözəl şəhər, gözəllik az bir vaxtdan sonra elə eliyəcək ki, heç bizim barəmizdə fikirləşməyə vaxtın da olmayacaq.

– Yaxşı, sən elə danışdın ki, elə bil şəhərdə doğulub yaşamısan. Sənin kimi qızı yaddan çıxartmaq olar?

– Axçi, Rudiqin qızı Tamara ilə çox yaxın idik. Çox vaxtı bir yerdə yatıb qalırdıq. Onlar da köçdülər. Bir az məktublaşdıq. Yunusu tanıyırsanmı?

– Hə, tanıyıram. Ramella cavab verdi.

– Bax, Tamara həmin Yunusu sevirdi. Tez-tez də görüşürdülər. Köçəndən sonra mənimlə və Yunusla bir beş-altı aya kimi məktublaşdı. Sonra mənə yazdı ki, Susanna, məni bir yaxşı oğlan istəyir. Savadlı, imkanlı oğlandır. Ona ərə getmək istəyirəm. Həm də buranın oğlanları çox mədənidirlər. Oğlanı Yunusla müqayisə edirəm. Yunusun mədəniyyəti, dünyagörüşü nə qədər geri qalıbdır. Yunus 10-15 il burada yaşamalıdır ki, bu mədəniyyətə uyğunlaşa bilsin.

Bax beləcə, Tamara mənimlə də, hər gecə görüşdüyü Yunusla da əlaqəni kəsdi. Qorxma, bu gün Namiq üçün ağlamağına baxma. Orada elə oğlanlar görəcəksən ki, Namiq heç yadına da düşməyəcək.

– Axçi, nə axmaq-axmaq danışırsan. Bəs qarnımdakını neyləyəcəyəm? – Ramella acıqlı-acıqlı cavab verdi.

– Onun haqqında Siranuş xala bir şey fikirləşmiş olar. Yəqin bir planı var ki, köçməyə tələsir,

həm də səni Makar dayıdan gizlətməyə çalışır. Ola bilsin, bəlkə də, çatan kimi səni ərə də verdilər.

– Susanna mən səni belə bilmirdim. Sən məni lap axmaq yerinə qoydun. Axçi, mən Namiqi yaddan çıxarda bilmərəm. Məni başqaları ilə dəyişik salırsan.

– Yox, xətirinə dəyməsin. Mən həyatın içindən danışıram. Amma bir bacı kimi, mən sənə bir şey deyim, heç vaxt yadından çıxartma.

– Nədi o elə?

Ramella dərdinə dərman tapılmış xəstə kimi sevincək Susannanın üzünə baxdı.

– Heç vaxt Siranuş xalanın sözündən çıxma. Özün deyirsən ki, səni ağacla döydü, aradan 5-10 dəqiqə keçməmiş səni sinəsinə sıxıb ağlamağa başladı. Yadında saxla ki, hər bir ana övladının xoşbəxtliyi üçün çalışır. Mənim fikrimcə, Siranuş xaladan heç bir sirrini gizlətmə, həm də məsləhətinə qulaq as. Çünki sənin orada elə bir yaxın dostun yoxdur ki, sirrini ona deyə biləsən. Ona görə də Siranuş xala orada həm sənin anan olacaq, həm də rəfiqən – Ramella. Başa düşdünmü?

– Sağ ol. Başa düşdüm. Ramella güldü.

– Yaxşı, Allah qoysa nə vaxt köçürsünüz?

– Atam gedib dəmir yol stansiyasından yorğan-döşəyi yığmaq üçün konteyner gətirsin. Yorğan-döşəyi qatarla yola salandan sonra bir-iki günə özümüz də gedəcəyik.

– Yaxşı, mən gedim. Gör nə vaxtdan gəlmişəm. İmkanlaşdırıb yenə sənə baş çəkərəm. Birdən işim olar, gələ bilmərəm. Mənimlə görüşməmiş gedərsən.

– Elə şey olar? Ramella ayağa duran rəfiqəsini yola salmaq üçün onunla birlikdə çölə çıxdı.

Makar yorğan-döşəyi və lazım olan əşyaları maşınla aparıb dəmir yolu stansiyasında qatarla yola saldı. Qayıdanda artıq gecəyarı idi. Yeməyini yeyib ayağa qalxdı və siqaret yandırıb qapının ağzına çıxdı. Siqaretini çəkib içəriyə qayıtdı. Boşalmış evə baxanda fikri çox uzaqlara getdi. Bir anlığa Siranuşla bu evi tikəndə çəkdiyi zəhmət və əziyyətlər gözü önündən keçdi. Özündən asılı olmayaraq bir ah çəkdi və öz-özünə dedi: «Ey gidi dünya, bu da Gültəpə kəndində keçən ömürün sonu. Şəhərdə bizi nə gözləyir, onu bir Allah bilir».

– Makar, nə fikirləşirsən? Siranuşun sualına başını yelləyən Makar doluxsundu:

– Heç, Siranuş. Nə isə elə qəlbim dolandı. Yaxşı, hazırlaşın, sabah günorta yola düşək Bakıya, oradan da Pyatiqorskiyə. Bir az gözümün acısını alım. Yaman yorulmuşam, – deyən Makar Siranuşun qonşudan bir gecəlik gətirdiyi yorğan-döşəkdə uzandı.

Günortaya az qalmışdı. Qonum-qonşu, dost-tanış Makarı və ailəsini yola salmaq üçün qapıya yığılmışdı. Susanna ilə Ramella bir kənara çəkilib, heç kim eşitməsin deyə yavaşca söhbət edirdilər.

– Axçi, Telmanla evlənəndə bizi yaddan çıxartma. Susanna, sən bəxtəvərsən. Telmanın valideynləri oğlanlarının səni istəməyinə etiraz etmirlər. Yazıq mənim günümə. Nə mənim atam-anam razıdır, nə də Namiqin. Biz neyliyəcəyik, onu bilmirəm.

– Axçi, Ramella, fikir eləmə. Allah sizə də kömək olar. Bilmək olmaz dünyanın işini.

– Axçi, Ramella, gəl görək, maşın yola düşür. – Siranuş dedi.

Susanna yaxınlaşıb hamı ilə görüşdü. Ramella ilə qucaqlaşıb xeyli sükutda qaldılar. Sonra ağlaya-ağlaya ayrıldılar.

Maşın yola düşdü. Adamlar isə xeyli maşının arxasınca baxdılar və yavaş-yavaş dağılmağa başladılar.

* * *

Makarın ailəsi Pyatiqorsk şəhərində yeni alınmış evdə məskunlaşmışdı. Yeni mühit ailənin hər bir üzvünə çox maraqlı gəlirdi. Siranuşun qohumu olan Zadorla Roza bir qutu şokoladla gəlib Makarın ailəsi ilə tanış oldular. Siranuş kənd qonaqpərvərliyindən irəli gələn adətə uyğun zəngin bir süfrə hazırladı. Kənddən gəlmiş tut arağının təsirindən keflər durulmuş, başlar isə dumanlanmışdı. Zadorla Roza Ramellanın gözəlliyindən söhbət salaraq onu yaxşı bir oğlana ərə vermək lazım olduğunu xüsusi qeyd etdikcə Makarla Siranuş hər ikisi «Siz necə məsləhət bilirsinizsə, elə də olsun» deyib fikirlərini bildirdilər.

Siranuş Rozanı ayağa qaldırıb otaqların birinə apardı və qapını örtdü ki, söhbətlərini heç kim eşitməsin.

– Axçi, qohum, sənə bir söz deyəcəm, amma öz aramızda qalsın.

– Siranuş, elə demə, onda xətrimə dəyirsən. Dərdini mənə demiyəndə, bəs kimə deyəcəksən? Roza maraqla qohumunun nə deyəcəyini gözlədi.

– Sənə qurban olum Roza, Ramella hamilədir.

– Yoxsa, əri qoyub qaçıb…

– Roza, qurban olum, ərə getməyib.

– Hə başa düşdüm, qohum. O çox asan işdir. Səhər aparıb rədd eliyərik, çıxıb gedər.

– Elə deyil, qurban olum, Roza. Ramella razı olmaz, həm də məsələ başqa cürdür. Sən bilmirsən.

Siranuş gözlərini sildi.

– Axçi, ağlama. Ölümdən başqa hər bir dərdin çarəsi var. Bir məni əməlli başa sal görüm, dərdin nədi?

Roza stul çəkib əyləşdi. Siranuş Ramellanın məsələsini ətraflı Rozaya danışıb qurtardı və yazıq bir görkəmdə yenidən üzünü qohumuna çöndərdi.

– Qohum, ayaqlarının altında ölüm. Bura köçməyimizin səbəbi mən olmuşam. Ümidim bircə sənədir. Makar Ramellanın hamilə olduğundan xəbərsizdir. Əlac sənə qalıbdır.

– Bir az səbr elə, bir yol fikirləşərəm. Çalış hələ Makar bilməsin. Bəlkə, Allah elə birini yetirdi ki, hamilə ola-ola sırıya bildik. Bir az musurman küçüyü olması ləzzət eləmir.

– Elə bizim dərdimiz də uşağın musurmandan olmasıdır. Ermənidən olsa, bir təhər dözmək olar. Bilmirəm, əlac sənə qalıbdır qohum.

– Fikir eləmə, qohum. Belə şeylər Rozanın əlində çox asan bir işdir. Bir iş çox yaxşıdır ki, qız çox gözəl, boylu-buxunludur. Şəhərdə belə gözəl qıza çox az rast gəlmək olar. Bir söz deyim.

– Nə deyirsən, qurban olum, Roza?

– Qızı təzə ərə vermişdik. Əri içib maşınla qəza törədib, ölüb. Nə dediyimi başa düşdün də? Roza Siranuşun üzünə baxdı.

– Başa düşdüm. Axçi, sənə qurban olum, başın yaxşı işləyir. Sevincək ayağa qalxan Siranuş o biri otağa keçdi və bir azdan əlində bir qızıl üzük geri qayıtdı.

Rozanın əlindən tutub üzüyü barmağına taxdı.

– Axçi, neynirsən?

– Sən Allah bir bax, elə bil barmağının üstündə kəsilibdi. Necə də yaraşır?

– Siranuş, heç düz iş görmürsən. Roza üzüyü barmağından çıxartmaq istəsə də, Siranuş qəti şəkildə bildirdi:

– Axçi, əgər üzüyü barmağından çıxartmaq istəsən, mənlə sənin qohumluğun burda da qurtardı.

– Yaxşı, sən deyən olsun. Amma, düz iş görmədin.

Roza əlini işığa tərəf tutdu, üzüyə və qaşına baxdı. Üzüyün qiymətli üzük olduğuna ürəyində sevindi və dedi:

– Siranuş, payın çox olsun. Hə qaldı Ramellanın işi. Qorxma, xalası onu elə oğlana ərə verəcək ki, hamilə nədi, lap uşaqla birlikdə qəbul etsin. Malımız bahalı maldır. Ucuz satmaq olmaz.

– Başa düşmədim?

– Burda başa düşülməyən nə iş var. Qız çox gözəldir. Onu hər yoldan ötənə ərə vermək olmaz. Özünə layiq oğlana, boylu-buxunlu, gözəl, subay.

– Necə, subay oğlana? Siranuş heyrətlə içini çəkdi.

– Bəli, subay oğlana, – Roza razılıqla gülümsündü.

– Axçi, sənə qurban olum, arvad boşamış, arvadı ölmüş, yaşlı bir kişi də olsa, mən razıyam. Təki bu töhmətdən qurtaraq.

– Axçi, sən nə danışırsan! Burdan beləsi sənlik deyil.

– Roza, qurban olum, qorxuram qız getməyə.

– Öz başınadı ki, getməyə. Bu boyda şəhərdə bir erməni dığası tapa bilməyəcəyik. Yox bir kişinin qızı musurmana vurulub. Unutma, səndən soruşan olsa, denən toydan bir az sonra əri içib maşınla qəza törədib, ölübdü. Özüm də gəlib qızla söhbət edib onu da başa salacağam.

– Hə, qurban olum, Roza. Gəl. Özünü başa sal, o gədədən əl çəksin. Birinə ver, rədd olub getsin. Biz də rahat nəfəs alaq. Qorxuram Makar bilə, vurub öldürə.

– Qorxma, tezliklə məsələni yoluna qoyacağam. Elə ömrün boyu mənə dua oxuyacaqsan.

– Axçi, Roza, bizi bu töhmətdən qurtar. Ölənə kimi sənin qulunam.

Qapı açıldı və Ramella «Ana, atam çağırır» deyib geri qayıdıb öz otağına keçdi.

– Axçi, hara getmisən? Oradan araq gətir: Makar dedi.

– Yox, Makar qardaş, sən Allah bəsdirin. Gedək, səhər işə gedəcəyik. Çox içəndə Zador narahat olur. Qaçmırsınız, o qədər gəlib-gedəcəyik ki, lap bezəcəksiniz.

– Axçi, o nə deməkdir. Bu ev-eşik hamısı sizə qurbandı. Ürəyiniz nə vaxt istəyir gəlin, öz evinizdir. Hə, yaxşı yadıma düşdü, Zador. Mənə bir usta tap, qapıda bir əl damı tikdirəcəyəm.

– Makar, əl damını neynəyirsən? O böyüklükdə zirzəmin var. Bir qaraj tikdir, deyim hə. Yoxsa əl damı. Ara bura Gültəpə deyil ki, hərənin yarım hektar həyətyanı torpağı ola. Burada bir qarış torpaq qızıldır.

– Ara elə mən də qaraj nəzərdə tutmuşam. Özüm əl damı deyirəm.

– Bu, başqa məsələ. Bir yaxşı usta tanıyıram. Əlindən hər iş gəlir. Cavan oğlandı. Səhər tapıb deyərəm, gələr.

– Sağ ol, Zador. Qohumluqdan əskik olmayasınız. Makar öz razılığını bildirdi və qonaqlarla xudahafizləşib onları ötürdü.

* * *

Qapının döyülməsinə Siranuş qapıya doğru getdi və qapını açdı. Qapının ağzında cavan bir oğlan dayanmışdı. Oğlan:

– Makar dayının evi buradır? – soruşdu.

– Bəli, buradır. Siz kimsiniz?

Siranuş diqqətlə oğlanı başdan-ayağa süzdü.

– Mən ustayam. Məni Zador dayı ilə Roza xala göndərib.

– Xoş gəlmisiniz. Buyurun içəri.

Siranuş oğlanı içəri dəvət edib qapını örtdü.

– Makar, ay Makar, çölə çıx! Səni soruşurlar.

Siranuş çölə çıxan Makara oğlanı göstərərək:

– Ustadır, Zadorla Roza göndərib.

– Çox yaxşı. Xoş gəlib, – deyən Makar oğlanla əl verib görüşdü və:

– Gəl yaxından tanış olaq. Mənim adım Makardır. Bəs sizin adınız? – dedi.

Makarın ərkyana danışması, xoşsifət olması oğlanda qarşısındakı adama qarşı bir rəğbət hissi oyatdı və gülə-gülə:

– Mənim adım Edikdir, – dedi.

– Çox yaxşı. Gəl, Siranuş xalanın bir stəkan çayını içək, həm də bir balaca söhbət edək. Makar stolun arxasından stulu çəkib oğlanın oturmasını təkid etdi.

Makarla Edik bir-iki stəkan çay içib tikinti ilə bağlı söhbət etdilər. Razılaşandan sonra ayağa qalxıb ölçü-biçi işini apararaq təxminən tikintiyə nələr və nə qədər material lazım olduğunu müəyyənləşdirib siyahı tutdular.

– Bunları alın, iki gündən sonra gəlib işə başlayım. Olarmı? – Edik əlində tutduğu siyahını Makara verdi.

Əlindəki siyahıya baxan Makar, – dedi:

– Edik, mən buraları yaxşı tanımıram. Xamlığımdan istifadə edib məni aldadarlar. Məsləhətdirsə, səhər gəl birlikdə gedək bu materialları alaq. Sənin də hörmətini edərəm.

Bir az fikirləşən Edik.

– Yaxşı Makar dayı. Görürəm, sən yaxşı adama oxşayırsan. Heç bir hörmət lazım deyil. Səhər gələrəm birlikdə gedib alarıq, – dedi və Makarla xudahafizləşib qapıdan çıxdı.

* * *

Artıq qapıda iş gedir. Makar Edikin əlinin altında fəhləlik edir. Bu həm tikintinin ucuz başa gəlməsi, həm də Makarın bekarçılıqdan azad olması idi.

Axşam Zadorla Roza gəldilər. Siranuş həmişəki kimi yaxşı stol hazırlamışdı. Makarla Zador tut arağından bir-iki qədəh vurandan sonra başları söhbətə qarışdı. Roza ilə Siranuş isə otaqlardan birinə çəkilib xısınlaşırdılar.

– Axçi, bu Ediki mən çoxdan gözaltılamışdım. Çox yaxşı oğlandır. 24-25 yaşı var. Ata-anası bir il olar ki, rəhmətə gedib. Evin tək oğludu. Ürəyin istəyən evi-eşiyi, boy-buxunu, gözəlliyi də ki, öz yerində. Ramellaya yaraşandır.

– Roza, qurban olum, üç-dörd gündür bizdə işləyir. Görürəm, mərifətli oğlandır. Hiss edirəm ki, Makarın da xoşu gəlir. Düzü oğlanı görən kimi hiss etdim ki, sən bunu nə məqsədlə göndərmisən. Şərait yaratdım qızı da gördü. Qızı görəndən bəri hiss edirəm ki, gözü elə hey qızı axtarır.

– Yaxşı fikirləşmisən. Elə et ki, Edik ürəkdən vurulsun Ramellaya.

– Sənə qurban olum Roza, canı yanmış qız heç fikir vemir oğlana. Qalmışam belə.

– Sən fikir eləmə Siranuş. Qız uşaqdı. Nə qanır dünyanın isti-soyğunu. Onu başdan elə çıxardacağam ki, heç o musurman gədəsi bir də yadına düşməsin. Belə oğlan hər vaxt ələ düşməz. Sən də yaxşı hörmət elə. Mən Ediklə söhbət etmişəm. Onların ailəsini, özünü çoxdan tanıyırıq. Atası Zadorla dost idi. Edik evlənmək istəyir. Tanımadığı qıza risk etmir. İndi hər şey öz-özünə düzəlir. Burda bir qalır bizim az-maz köməyimiz. O da Ramellanı yola gətirməkdir. Narahat olma, sabah axşam gələrik. Zador Makarla danışar. Mən də Ramella ilə.

– Hə, başına dönüm Roza. Bizi bu töhmətdən qurtar. Canım sana qurban, qohum. Bu iş sənlikdi, – Siranuş az qalırdı ki, Rozanın ayaqları altına düşsün.

– Gedək. Gecə yarıdan keçibdir, – deyən Roza Siranuşla birlikdə Zadorla Makarın yanına qayıtdı.

Ayağa qalxan Zador «Gecəniz xeyrə qalsın», – deyib Makarla qapının ağzında xudahafizləşib taksi saxlatmaq üçün uzaqdan görünən yaşıl işığa əl etdi.

Sabah axşam Zadorla Roza Makarın evində stolun ətrafında əyləşmişdilər. Bir-iki qədəh tut arağından sonra Roza Zadora him elədi. Evdə arvadının dediklərini xatırlayan Zador üzünü Makara tutaraq:

– Makar, neçə gündü Ediklə işləyirsən. Necə oğlandı? – soruşdu.

– Çox yaxşı, tərbiyəlidir. Necə bəyəm? Dalağı sancan Makar gülümsünərək Zadorun üzünə baxdı.

– Ara, deyirəm, məsləhətdisə Ramellanı verək Edikə. Necə fikirləşirsən?

– Zador, bir-neçə gün bir yerdə işləməklə adamı yaxından tanımaq olmur. Bir söz deyə bilmərəm.

– Ara, nə söz deyəcəksən? Mən onun atası ilə yaxın dost olmuşam.

– Hə, Makar qardaş. Biz onlarla ailəvi yaxın olmuşuq. Ev-eşiyi, özü də tək oğlan. Daha nə istəyirsən? – deyə, Roza ərinin sözünə dəstək verdi.

– Bir halda ki, siz məsləhət bilirsiniz, mən bir söz demirəm, – Makar cavab verdi.

Zadorla Roza məsələni hərtərəfli dağ eləyəndən sonra Roza dedi ki, Makar qardaş, sən də, Siranuş da, maraqlanan olsa, deyərsiniz ki, Ramellanın toyu olandan heç bir ay keçməmiş yoldaşı avtomobil qəzasında ölübdü. Edik qızı görüb və qıza vurulubdu. Məndən soruşdu, mən də elə dedim. Sonra mənim sözüm yalana çıxmasın. Ağlına heç bir şey gəlməyən Makar «Yaxşı, Roza, sən deyən olsun», dedi.

– Yaxşı, indi bir söhbət edin, mən gəlirəm, deyən Roza durub Ramellanın otağına keçdi.

– Axçi, niyə burda tək oturmusan. Gəlib bizim söhbətə qarışmırsan? Roza Ramellanı qucaqlayıb üzündən öpdü.

– Roza xala, nəyə gəlim. Bəlkə, mənə aid olmayan söz danışırlar. Başını aşağı saldı Ramella.

– Axçi, elə söhbət səndən gedir də.

– Mənim nəyimdən?

Ramella təəccüblə Rozanın üzünə baxdı.

– Səni ərə veririk.

– Mən ərə gedirəm ki, məni ərə verəsiniz? Ramella incik-incik müsahibinin üzünə baxdı.

– Sən öz başınasan ki, ərə getməyəsən? Ərə getmək vaxtındı, biz də veririk.

– Deyin görək, kimdi mənim dərdimdən ölən?

– Edik.

…….

– Hə, niyə susursan? Pis oğlandı? Ömrün boyu əli çıraqlı gəzsən, elə gözəl, boylu-buxunlu, ağıllı oğlan tapa bilməzsən. Hazır evi, heç kimi də yox. Bir sən, bir də ərin. Ye-iç, ömrün boyu özün

üçün yaşa. Aradabir yadına düşəndə Roza xalana da dua edərsən.

– Edikin baxışlarından hiss etmişdim.

– Axçi, bir könüldən min könülə sənə vurulubdu.

– Sağ ol, Roza xala. Mən ərə getmirəm. Mənim öz istədiyim var.

– Axçi, mən hər şeyi bilirəm. Siranuş mənə danışıbdı. Sən mənə düzünü de görüm, o oğlanın ata-anası səni oğlanlarının almağına razı idilər?

……

– Hə, niyə susursan. De də! De, bilim, – Roza təkid etdi.

– Yox, razı deyillər, – deyən Ramella yanaqları aşağı axan göz yaşlarını əlinin dalı ilə sildi.

– Ay sağ ol. Bax, qızım, sənin atan-anan da razı deyillər, oğlanın ata-anası da razı deyil. Uzaqbaşı qoşulub qaçarsınız. Ev yox, eşik yox, əlinizin sənəti yox. Heç başa düşürsən necə yaşayacaqsınız? Bilmək olmaz, o musurman gədəsi əsgərlikdən gələndən sonra sənə yaxın duracaq, ya yox. Bilirəm «Əsli-Kərəm»dən misal gətirəcəksən. Onlar boş şeylərdir. Gördün ata-ana xeyir-duası olmadı deyin Əsli Kərəm də xoşbəxt olmadılar. Bunlar hamısı nağıldı.

– Yox, mən söz vermişəm, onu gözləyəcəyəm. Edik pis oğlan deyil, amma mən onu sevə bilmərəm.

Ramella ümid uman baxışlarla Rozanın üzünə baxdı.

– Axçi, atan bilmir. Siranuş nə qədər gizlədəcək. Niyə başa düşmürsən. Qarnın günü-

gündən böyüyür, lap axıra kimi anan bir təhər elədi. Bəs qarnındakı bic doğulanda nə deyəcəksən? Hələ bir qan orada əkmisən. İki qohumu düşmən eləmisən. Xalxın gül kimi uşağı türmədə yatır, heç bir şeyin üstündə. İndi də hərlədiyin odur ki, Makar səni öldürsün, qalan ömrünü də türmələrdə çürütsün. Heç fikirləşirsən, nə iş tutduğunu?

– Roza xala, mənim qarnımdakı bic deyil, onun gül kimi atası var. Ramella üzünü yana tutdu.

– Axçi, kimdi onun atası? Musurman. Ermənilərin düşməni. Axçi, ayıbdı. Heç harda danışma. Gör sənin kimi gözəl bir erməni qızı bizim dədəbaba düşmənimizdən uşaq qazanmısan. Ermənilər bilsə, benzin töküb bizi oddayarlar. Hələ mən deyirəm, aparım səni həkimə, görüm onu rədd elətdirə bilərəmmi?

– Yox, yox! Nə danışırsınız Roza xala, ölümümə razı olaram, amma aborta getmərəm.

– Elə ona görə də mən demişəm ki, Ramellanı təzə ərə veriblər. Aradan bir az keçməmiş əri içib maşınıyla qəza törədib, ölüb. Ona görə də bunlar köçüb gəliblər.

– Kimə demisiniz, Roza xala? – deyən Ramellaya maraq üstün gəldi.

– Edikə demişəm.

– Nə fikirlə demisiniz?

– Hamilə olduğunu bilmir. Sənlə razılaşandan sonra, görüm səni hamilə-hamilə ona verə bilirəmmi? Sən başa düşürsənmi, bir azdan qarnın özündən yekə olacaqdır. Amma səni ərə verə bilsək, bütün hər şeyin üstü ört-basdır olacaq, sən də təmizə çıxacaqsan. Olacaqsan xətirli-hörmətli bir arvad. İndi de

görüm mənimlə razısan? Edikə ərə verəkmi səni? Nə deyirsən?

– Roza xala, sənin dediklərin düzdü. (Roza ürəyində sevindi ki, qızı yola gətirə bilib, deyəsən). Başa düşürəm, məni istəyib deyirsən. Canın yanıb deyirsən. Axı, mən başqasını sevə bilmirəm. Mənim ürəyimi o aparıbdır.

– A sənin qadanı Roza xalan alsın. Çox az adam ilk məhəbbətinə qovuşa bilir. Qorxma Ediklə də beş-altı gün yatıb-durandan sonra onu elə sevəcəksən ki, canından da artıq. Yadında saxla ki, məhəbbət yorğanın altına girənə kimidir, – güldü Roza.

– Yaxşı, qoy fikirləşim, bir cavab deyərəm, – dedi, Ramella.

– Axçi, musurmanların bir misalı var, «Papağını qoy qabağına fikirləş». İndi sən də bu gecə nə qədər istəyirsən, fikirləş. Həm də sabah Edikə bir müştəri gözü ilə bax, gör necə oğlandır. Bilmirəm, mən səhər səndən «hə» cavabı gözləyirəm. Oldumu?

Roza Ramellanı otaqda qoyub özü Makargilin yanına qayıtdı.

* * *

Ramella bütün gecəni yatmadı. O üzə çevrildi, bu üzə çevrildi. Heç bir çıxış yolu tapa bilmədi. Rozanın dediklərini bir-bir xəyalında canlandıraraq saf-çürük etdi. Gördü ki, Roza düz deyir. Bu izdivaca heç bir tərəf razı deyil. Hələ Namiq gələnə kimi doğulan uşağın taleyi. Mənim məhəbbətimə sadiqliyim bu olar ki, uşağı sağ-salamat dünyaya

gətirim və onu böyüdüm. Bu da olar mənim ilk sevgimin təntənəsi. Həm də Roza düz deyir. Atam yaşlı adamdır. Mən də evin bir uşağı. Çörək qazanan bir atam var. Onun da başına bir iş gəlsə, ana-bala bizim axırımız necə olar? Yox, real həqiqəti görmək lazımdır. Birdən əlini qarnının üstündə gəzdirdi. Qarnının böyüdüyünü hiss etdi. Yazıq Namiq dedi ki, lazım deyil. Mən əl çəkmədim. Bəlkə də, bu uşaq məsələsi olmasa idi, bir çıxış yolu tapa bilərdim. Bu vəziyyətdə bütün qapılar bağlıdı. Yox, yaxşı elədim. Bu, mənim ilk məhəbbətimin meyvəsidir. Roza xala düz deyir, ayrı yolum yoxdur. Təmizə çıxmaq üçün ərə getmək lazımdır. Bir az da geciksəm, məsələ tamam açılacaqdır. Arxası necə olacaqsa, bir Allah bilir. Beləcə çalpaşıq fikirlər aləmində nə vaxt yuxuya getdiyini bilmədi.

Anasının səsinə qalxanda saata baxıb gördü ki, günortaya az qalıbdı. Tez paltarını geyinib, əl-üzünü yudu və səhər çörəyini tələsik yeyib evi səliqəyə salmağa başladı.

– Ay qız, Ramella, çay dəmlə, atangil bir stəkan çay içsinlər, – deyən Siranuş qızına tapşırıq verdi, özü isə günorta üçün yemək hazırlamağa başladı.

Ramella stolun üstünü səliqəyə salıb, təzə dəmlənmiş çaydan iki stəkan süzüb stolun üstünə qoydu və anasına dedi:

– Ana, çay hazırdır.

– Makar, ay Makar, gəlin çay için, Ramella təzə çay dəmləyibdi, – dedi Siranuş.

Makarla Edik əllərini yuyub stolun arxasına keçdilər. Edik elə oturmuşdu ki, Ramellanı yaxşı görə bilsin.

Arada Ramella gözünün altı ilə Edikə müştəri gözü ilə nəzər saldı. Telefon zənginə içəri keçən Siranuş bir azdan Ramellanı «Axçi, Roza xalan səni telefona çağırır. Gəl, gör nə deyir» dedi.

Ramella Rozanın hal-əhvalla bağlı suallarına cavab verəndən sonra «Axçi, nə fikirləşdin? Mənimlə razısan? Niyə dinmirsən»? suallarına «Nə bilim? Heç özüm də bilmirəm nə deyim?» -dedi.

– Axçi, mənə dəqiq bir söz de. Mən axşam Edikə bir söz deməliyəm. O məndən cavab gözləyir.

– Roza xala, özün bildiyin kimi mən hamiləyəm. O subay oğlandı. Məni qəbul etməz.

– Axçi, Ramella, de görüm, sən razısan, qalan məsələlər sənlik deyil.

– Yaxşı, sən necə bilirsən, elə olsun, – deyən Ramellanın elə bil üstündən dağ götürüldü.

– Ay sağ ol. Bax indi oldun ağıllı qız. İndi gör xalan səni necə xoşbəxt edəcəkdir. Di sağ ol. Axşam gəlib səni bizə gətirəcəyəm. Hazırlaş, yaxşımı? Rozanın səsində bir sevinc hiss olunurdu.

Dəstəyi telefonun üstünə qoyan Ramellanın «Deyəsən, erməni oğlanlarının hamısı bir bezin qırağıdır. Bunlarda namus-qeyrət adlı şey yoxdur. Slavik də belə, Edik də belə. Başqasının artığını necə də qəbul edə bilirlər. Görünür, erməni oğlanları üçün namus anlayışı əvvəldən olmayıbdır.» – fikri beynini məşğul etdi.

* * *

Roza Ramellanı öz evinə qonaq gətirmişdi. Gecə səhərə kimi nə lazım idisə, Ramellaya dedi və başa saldı. Səhər açılanda Zadoru işə yola salan Roza Ramellanı qaldırdı. Bir az keçmiş qapı döyüldü. Roza sevincək qapını açdı və qapıda Ediki görən kimi «Xoş gəlmisən, həmişə sən gələsən» deyib içəri dəvət etdi.

İçəri keçən Edik Ramellanı görəndə özünü itirdi. Bunu hiss edən Roza:

– Ara, deyəsən qızın gözəlliyi səni çaşdırdı. Gör heç dünyada belə gözəl qız tapa bilərsən? Siz oturun, mən bir çay dəmləyim. Roza mətbəxə keçib çaydanı doldurub qaz plitəsinin üstünə qoydu.

Təzə dəmlənmiş çayı armudu stəkanlara süzüb stolun üstünə qoydu və özü də cavanların yanında əyləşən Roza, üzünü Edikə tutaraq dedi:

– Edik, mən sənə demişdim ki, Ramellanın təzə toyu olub. Toydan bir az keçmiş yoldaşı maşın qəzası zamanı dünyasını dəyişibdi. Sonra Makargil qızının taleyi gətirmədiyi üçün köçüb bura gəlibdi. Bizim yaxın qohumumuzdur. Sən də qızı görəndən sonra vurulmusan ona. Bu da yəqin taleyin qismətidi. İndi sənə bir söz deyim. Ramella hamilədir. Bu vəziyyətdə onu qəbul edirsən, yoxsa yox. Əməli-başlı fikirləş, cavab ver. Sən deyə bilərsən ki, bunu mənə əvvəldən nə üçün demirdiniz? Bu məsələni heç kim bilmirmiş. Mən deyəndə Ramella özü mənə dedi.

– Roza xala, mən Ramellanı canım qədər sevirəm. Nə cür olsa, mənə qəbuldur. Edik gözünün altı

ilə başını aşağı dikmiş Ramellanın qızarmış yanaqlarını seyr etdi.

– Edik, bala sən də mənimkisən, Ramella da. Mənim dediyim odur ki, xoşbəxt olasınız. Sənin də atan yox, anan yox, elə Makarla Siranuş da yaxşı adamlardı. Sənə yaxşı ata-ana olarlar. Bir növ yaraların sağalar. Amma bəri başdan deyim ki, uşaq doğulanda sənin soyadını daşıyacaqdır. Kəsəsi, bu uşaq bu gündən olur sənin uşağın. Mən bildiyimə görə, Ramellanın toyundan heç on gün keçməmiş bu hadisə baş veribdir. Roza bütün bənd-bərələri bağladı.

– Mən Makar dayıdan da, Siranuş xaladan da razıyam. Yaxşı insanlardı. Gör neçə gündür onlarda işləyirəm. Xoşuma gəlir, yaxşı ailədirlər. Məsləhət olsa, tezliklə…

– Edik Rozanın üzünə baxdı.

– Ramellanın valideynləri ilə danışım, tezləşdirək, nə deyirəm. Roza özündən razı halda gülümsündü.

– Evdə çox çətinlik çəkirəm. Daha bəsdi, – Edik dedi.

– Başa düşürəm. Oğlan uşağı üçün çox çətindir. Yaxşı, siz söhbət edin, mən də gəlirəm. Roza başını aşağı sallamış Ramellanın çənəsindən tutub qaldırdı və güldü.

Roza özü qəsdən şərait yaradırdı ki, cavanlar özlərini sərbəst hiss etsinlər. Roza gedəndən xeyli sonra Edik özünü cəmləyib, «Toyumuzu nə vaxta salaq?» deyib Ramellanın pörtmüş sifətinə baxdı.

– Sən nə vaxta məsləhət bilirsənsə, – deyən Ramella fikrində Namiqlə danışırdı. Və Namiqin

xəyanətkarlıqda onu qınadığını «eşidirdi». Özünə gələndə dodaqlarında isti bir nəfəsin, sinəsində bir əlin gəzdiyini hiss etdi. Heç bir müqavimət göstərmədi. Bütün çıxış yollarının bağlandığını başa düşən Ramella etirazını ancaq yanaqları aşağı axan və yumru çənəsinin altında birləşən göz yaşları ilə bildirirdi. Ehtirasın alovunda özünü unudan Edik Ramellanı kimsənin onun əlindən alacağından ehtiyatlanaraq getdikcə qızı sinəsinə daha möhkəm sıxırdı. Qızın məsum duruşu, şəhvət oyununa sözsüz tabe olması Ediki təsəvvürə gəlməz xoşbəxtlik zirvəsinə qaldırmışdı. Bu zirvədə Edik ancaq özünü və bir də Ramellanı görürdü.

Axşam Roza Ramellanı evlərinə gətirdi. Makar və Siranuşla danışdı. Məsləhət etdi ki, sabah axşam Makarın evində xırda bir məclis düzəltsinlər. Oğlan tərəfdən Zadorla Roza ağsaqqallıq edirdilər.

Bütün gecəni Ramella Namiqlə «söhbət» etdi. Namiqin ittihamları qarşısında özünə bəraət qazandıra bilməyən Ramella anasının səsinə yuxudan ayıldı.

– A qızım, qalx işimizlə məşğul olaq. Ayıbdı, axşam, bəlkə, bir neçə qonaq gətirdilər. Gərək biabır olaq? Stolu səliqəyə sal, yemək hazırlayaq.

Şükür Allaha, ölmədim bu günü də gördüm. Fikir verirsən, atanın kefi necə açılıbdı. İnşallah, xoşbəxt olduğun günü də görsəm, sonra ölsəm də, – dərdim olmaz.

Yerindən qalxan Ramella:

– Qorxma, ana, arzuna çatacaqsan. Sən nə desən, hər şey elə də olacaq, – dedi.

– Ay sənə qurban olum, qızım. Belə ol, biz də beş-on gün yaşayaq də. Tez ol, yemək hazırlayaq. Kömək elə mənə. Siranuşun sevindiyindən bircə qanadları yox idi uçmağa.

***

Gözlərini açanda Edikin qolları arasında özünü görən Ramella keçən günü xəyalında canlandırdıqca özü-özündən iyrəndi. Nə qədər fikirləşdi ki, özünə bəraət qazandıracaq bir dayaq nöqtəsi tapsın, amma tapa bilmədi. Və taleyi ilə barışmalı oldu. «Çıxış yolu bəlkə də bundadır» fikri ilə özünə təskinlik verən Ramella durub paltarını geyinərək səhər yeməyi üçün hazırlıq görməyə başladı.

* * *

Namiq hərbi xidmətə gedəndən sonra doğma kəndində baş verən hadisələr haqqında və o cümlədən, Ramella barədə də hərtərəfli məlumat əldə edə bilirdi. Telman hər məktub yazanda Namiqi məlumatlandırmağa çalışırdı. Ramella ailəlikcə Pyatiqorskiyə köçəndən sonra Telmanın məktubunun içərisində Ramellanın iki məktubunu ala bilmişdi. Namiq Ramellanın onun məhəbbəti yolunda nələr çəkdiyini oxuduqca özünü qınamaqla bərabər, qıza yazığı da gəlirdi. Uşaq məsələsi Namiqin bütün fikrini gecə-gündüz məşğul edirdi. Elə hey düşünürdü ki, bu işin günahkarı mənəm. Çox da Ramella təkid etdi, bəs mən nə üçün işin sonunu fikirləşmədim. Ağlı ola uşağı rədd eləyə. Tez də fikrini dəyişirdi. Yox, yox, olmaz! Bu, bizim birbirimizə əhdimiz, sədaqətimiz deməkdir. Birdən

atası məsələni biləndə qızı öldürər. Əgər işdi Makar elə bir iş görmüş olsa, əsgərlikdən gedən kimi onu öz əllərimlə öldürərəm. Ramellanın vəziyyəti barədə nə qədər düşünsə də, heç bir çıxış yolu tapa bilmirdi. Beləcə fikirləşə-fikirləşə hərbi xidmətə gəldiyindən altı aydan artıq bir vaxt keçmişdi.

Namiq Telmandan təzə bir məktub aldı. Sevincək məktubu açdı və içərisində Ramellanın məktubunu görcək elə bil dünyanı ona bağışladılar. Tələsik məktubu açdı və oxumağa başladı. Ramella yazırdı:

«Əzizim Namiq!

Bu mənim sənə axırıncı məktubumdur. İncimə, Namiq. Sən bilirsən ki, mən səni canımdan artıq sevirəm. Səni sevməsəydim, bu qədər çətinliklərə dözməzdim. Sənə qarşı olan sevgimi əməlimlə sübut etmişəm. Amma vəziyyətim getdikcə daha da çətinləşir. Uşaq məsələsinə görə. Anam və anamın bir qohumu çox təkid etdilər ki, uşağı rədd elətdirsinlər, lakin nə qədər çalışdılarsa, mən razılaşmadım. Döz demək asandır. Amma dözmək olmur. Atam hələ uşaq məsələsindən xəbərsizdir. Onun üçün də anamın qohumu məni tələsik bir subay oğlana ərə verməyə çalışır. Lakin mən razılaşmadım. Qohum arvad məni başa saldı ki, getdikcə qarnın böyüyür. Atan bilində sənin üçün yaxşı olmayacaq. İki yolun var, dedi. Birincisi uşağı rədd eləmək lazımdı. Uşaq böyük olduğu üçün bəlkə həkim bu işə risk etmədi. Əgər həkim bu işə qol qoyası olsa, ola bilər ki, bu

yolda həyatını itirəsən. İkinci yol isə, başını götürüb evdən qaçmaqdır. Yaxşı, qaçdın, hara gedəcəksən, necə yaşayacaqsan? Həqiqət acı da olsa, yenə həqiqətdir. Gördüm, qohum düz deyir. Heç bir çıxış yolum yoxdur. Uşağı xilas etməyin xatiri üçün qohum arvadın fikri ilə razılaşmalı oldum. Namiq, oğlan mənim hamilə olduğumu bilə-bilə məni qəbul edir. Bu oğlanda da Slavik kimi qeyrət deyilən şey yoxdur. Özüm erməni ola-ola indi başa düşürəm ki, erməni oğlanlarında, ümumiyyətlə, kişilərində namus çox da vacib olan əxlaqi kriteriyalardan deyil. Təki qız oğlanın xoşuna gəlsin. Əgər belə olmasaydı, Slavik və Edik hər şeyi bildikləri halda məni qəbul etməyə hazır olduqlarını bildirməzdilər. Amma bir məsələni qeyd etməyi özümə borc bilirəm: – Edikə deyiblər ki, Ramellanı kəndlərində bir erməni oğlana ərə veriblər. Toydan beş-on gün sonra oğlan içkili vəziyyətdə öz maşını ilə qəza törədib ölübdü. Nə isə... Edik mənimlə evlənməyə razıdır. Mən də uşağımızın salamat qalması üçün məcbur olub razılaşmalı oldum.

Bir şeyi bil ki, sənin yadigarın üçün bu yolu seçməli oldum. Məni vəfasızlıqda, xəyanətkarlıqda günahlandırma. Mən sənin olmuşam və ölənə kimi də sənin olacağam. Ünvanımı yazıram. Əsgərlikdən qayıdanda gələrsən, görüşərik. Allah qoysa, sən gələndə həm mənlə görüşərsən, həm də öz uşağınla. Sonuncu dəfə göz yaşları içərisində

səni sinəmə sıxıb doyunca öpürəm. Məni bağışla, canım və iki gözüm".

İmza: Həmişə səni sevən və sənin olan sevgilin Ramella.

19 fevral 1969

Məktubu oxuyub qurtarandan sonra xeyli özünə gəlmədi Namiq. Bir anlığa Ramella ilə keçirtdiyi anlar, dəqiqələr, gizli görüşlər, sonuncu gecə bir-bir xatirəsində çözələnməyə başladı.

Ramellanın düşdüyü vəziyyətin ağırlığı indi Namiqə aydın oldu. Mən oğlan ola-ola atam mənim qarşıma qəti olaraq şərt qoydu ki, sən erməni qızı alıb məni ağsaqqal vaxtımda el-oba içində bihörmət eləyə bilməzsən.

«Əgər işdi elə bir iş tutmuş olsan, erməni qızını da götür kənddən çıx. Gözümə görünmə, yoxsa qoca vaxtımda səni öz əlimlə güllələyərəm», – deyən atamın sözü qarşısında kişiləşib bir söz deyə bilmədiyim halda, köməksiz, imkansız və zərif qız uşağı azərbaycanlını görməyə gözü olmayan bir atanın qarşısına hansı cəsarətlə çıxsın? Mənim vəziyyətimlə müqayisə edəndə Ramella məndən çox cəsarətlidi. Cəsarətli olmasaydı, uşağı çoxdan rədd etmişdi. Yox, Ramellanı günahlandırmağa heç cür haqqım yoxdur. Bu əsgərliyi qurtara bilsəydim, yenə bir şey fikirləşmək olardı. Yoxsa burda nə fikirləşmək…

Namiq məktubu qatlayıb dolabında Ramellanın məktublarının və şəkillərinin yanına qoydu.

* * *

Ramellanı ərə verəndən sonra Makarın rəngi-rufu açılmışdı. Hamı ilə səmimi və mehriban olmuşdu. Siranuşla da ki lap ayrı cür. Ərinin mehribanlığını görən Siranuş özünü saxlaya bilməyib:

– A kişi, qız gedəndən bəri kefin lap açılıbdı! – dedi.

– Bilirsən, rəngim niyə açılıbdı? İçimdən çürüyürdüm. Bu qız mənə bir bəla olmuşdu. Töhmətdən yaxşı qurtardıq. Zadorla Rozanın yaxşılığından ömrü boyu çıxa bilmərəm. Makar ürəyindən keçənləri arvadına səmimiyyətlə etiraf etdi.

– Edik də yaxşı oğlandı. Bu bizim üçün lap göydəndüşmə oldu. Ev-eşiyi var. Ramellanın çalanı yox, çevirəni yox, öz əli, öz başıdı. Getsin dolansın Roza ilə Zadora ölüncə dua oxusun. – deyən Siranuş da sevincini əri ilə bölüşdü.

Makar Zadorun köməyi ilə işə düzəlmişdi. Tezdən gedib, axşam gəlirdi. Elə olurdu ki, birdən uzaq reysə çıxırdı, həftələrlə evə gələ bilmirdi. Ona görə Ramella ərə gedəndən, demək olar ki, qızı ilə görüşməmişdi. Qızı haqqında məlumatı Siranuşdan öyrənirdi, bir də evə tez gələndə telefonla qızının vəziyyətini soruşurdu.

Roza Ramellaya məsləhət görmüşdü ki, uşaq doğulana kimi atası evinə getməsin, gedəndə də atası evdə olmayanda getsin. Bu barədə Siranuşa da lazımi təlimatlar vermişdi.

Beləcə günlər bir-birini əvəz edirdi. Ramella ər evində əri ilə qoşa yaşasa da, ilk vaxtlar özünü tənha hiss edirdi. Edikin mehribanlığı, Ramellaya

həddən artıq qayğı və sevgi göstərməsi Ramellanın içində bir kövrəklik yaradırdı. Çox vaxtı Ramella da özünü məcburən Edikin sevgisinə layiq aparmağa çalışsa da, hiss edirdi ki, alınmır. Qorxurdu ki, göstərdiyi nəvazişin boğazdan yuxarı olduğundan Edik şübhələnə bilər. Ramella hiss edirdi ki, Edik ona olan sevgisi üçün canından belə keçməyə hazırdır. Qadın üçün bundan böyük xoşbəxtlik olmadığını başa düşən Ramella öz mehribanlığı, qayğıkeşliyi ilə ərinin ona olan sevgisinə cavab verməyə çalışırdı. Edik Ramellaya elə bağlanmışdı ki, körpə bir uşaq kimi onu əzizləyirdi. Bəlkə də, Edikin Ramellanı bu dərəcədə sevməsinin səbəbi ata-anasının və heç kiminin olmaması idi. Edik o tənhalığı yaşamışdı deyə, qorxurdu tənhalıqdan. Qorxurdu ki, birdən Ramellanı da itirər. Bu itirmək qorxusu getdikcə Ediki Ramellaya daha möhkəm sevgi telləri ilə cəzb edirdi.

Gecənin bir aləmi telefon zəng çaldı. Yuxudan ayılan Siranuş dəstəyi götürərək, «Alo, kimdir?» dedi.

– Mənəm Siranuş xala, Edikdi.

– Xeyir ola, oğul, gecənin bu vaxtı: – Siranuş səsindəki, tələşı gizlətməyə çalışsa da, bacarmadı.

– Qorxma Siranuş xala. Makar dayıya denən səni gətirsin. Ramellanı xəstəxanaya aparmaq lazımdır.

– Qurban olum Edik. Makar dayın Rostova yük aparıbdı. Kim bilsin, nə vaxt gələcəkdir. Bir maşın tap tez gəl məni apar. Hazırlaşıram. Tez gəl. Qıza bir şey olar. Gözləyirəm.

Qapıda gözləyən Ediklə Siranuş içəridən çıxan tibb bacısına yaxınlaşaraq «Nə oldu?» deyə soruşsalar da «Gözləyin, hələ bir şey yoxdur» cavabını eşitcək qayıdıb yenidən yerlərində otururdular.

Gecə öz yerini yavaş-yavaş səhərə təhvil verirdi. Edik bir yerdə qərar tuta bilməyir, dəhlizdə o başa, bu başa gəzişir, Siranuş isə gözlərini tez-tez ovxalayıb yuxusunu qovmağa çalışırdı.

İçəridən çıxan tibb bacısının «Ramellanın adamları kimdir?» sözlərinə Siranuşla Edik sevincək özlərini çatdırdılar və «bizik» deyib tələşlə nə xəbər eşidəcəklərinə diqqət kəsildilər.

Tibb bacısı Edikə tərəf səhadət barmağını tuşlayaraq soruşdu:

– Siz xəstənin nəyisiniz?

– Həyat yoldaşıyam. Edik cavab verdi.

– Gözünüz aydın, gözəl bir oğlunuz oldu! – deyən tibb bacısını gözlənilmədən Edik qucaqlayıb üzündən öpdü və «Çox sağ olun!» deyib tez cibindən bir 25-lik (rubl) çıxardıb tibb bacısının xələtinin cibinə qoydu.

Bir həftədən sonra Edik qaynanası Siranuşla birlikdə Ramellanı xəstəxanadan çıxardıb evə gətirdilər.

Edikin uçmağa qanadı yox idi. Uşağın doğulmasına, xüsusən də oğlan uşağı olmasına hamıdan çox Edik sevinirdi.

İşə gedəndə də, işdən gələndə də birinci soruşduğu uşağın vəziyyəti idi. Edik dükanlara yolu düşən kimi uşaq üçün müxtəlif oyuncaqlar, paltarlar almamış qayıtmazdı. Az bir vaxtda ev oyuncaqla dolmuşdu. Edik uşağa atasının adını qoymaq istəsə

də Ramella çox ustalıqla ərini bu fikirdən daşındırdı. Ölünün adının düşər-düşməzi olar. Mənlə razılaşsan, elə ad qoyarıq ki, hər millət onu asanlıqla çağıra bilsin. Ramella sınayıcı nəzərlərlə ərinin üzünə baxdı.

– Elə bir ad de görək. Edik dilləndi.

– Hamlet necə addı? İngilis də, fransız da, rus da, yəhudi də, azərbaycanlı da, erməni də bu adı sevir.

– Bir söz demirəm. Bir halda ki, yaxşı addır olsun. Bir gör bu adı kim xoşlayır? Mənim canım, nəfəsim Ramella. Edik Ramellanın başını özünə tərəf çəkib dadoqlarından öpdü. Səhər Edik günortadan keçmiş evə döndü. Yemək stolunun arxasına keçdi.

– Ramellacan, soyuducudan arağı bura gətir.

Edik iki qədəhə araq süzdü.

– Axçi, götür görüm, – dedi.

Ramella ərinin sevincini hiss etsə də, səbəbini soruşmadı. Bilirdi ki, axırda özü deyəcək.

Ramella qədəhi götürdü və ərinə diqqət kəsildi.

– Mən bu gün çox sevinirəm. Bu sevinci sən mənə bəxş etmisən. Bu gün artıq mən ata kimi qeydiyyatdan keçdim. Edik stolun üstündə qəzetin arasından yaşıl rəngli «Doğum haqqında şəhadətnamə»ni götürüb fəxrlə oxudu:

– Baqdasaryan Hamlet Edikoviç! Necədi sənin üçün, canım Ramella? Götür, bu sağlığa vuraq! – deyən Edik əlindəki dolu qədəhi arvadının qədəhi ilə toqquşdurub birnəfəsə başına çəkdi. Ramella isə qədəhi dodağına yaxınlaşdırıb stolun üstünə qoydu.

Edik əlini cibinə salıb «Axçi, gör sənə nə almışam?» deyərək cibindən qırmızı balaca bir qutu çıxartdı. Ramella isə maraqla ərinin hərəkətlərini izləyirdi.

Qutunu açan Edik qutudan brillyant qaşlı bir üzük çıxardıb, Ramellanın barmağına taxdı.

– Axçi, bu da mənə oğul doğduğun üçün sənin hədiyyəndir. Razı qaldınmı? – Şəstlə dilləndi Edik.

– Hə, çox sağ ol, diqqətinə görə.

Ramella razılıqla gülümsündü.

– Yaxşı, razı qaldınsa, onda sən məni öpəcəksən, mən də Hamleti. Necədir sənin üçün? – deyən Edik qədəhini doldurdu və: «Arvad, sənin sağlığına», – deyib başına qaldırdı.

Ramella ayağa durub Edikin üzündən öpdü və «Çox sağ ol!» dedi.

– Bax belə! İndi sən oldun ən yaxşı arvad. Edik qalxıb kolyaskaya yaxınlaşıb Hamleti qucağına aldı və hər iki üzündən öpərək yerinə qoydu.

* * *

Makar işdən tez gəlmişdi. Əllərini yuyub yemək stolunun arxasına keçdi. Siranuş yemək dolu boşqabı ərinin qabağına qoydu və özünə də yemək çəkib əyləşdi.

– Oradan o arağı bura gətir.

Siranuş yarımlitrlik şüşəni Makarın qarşısına qoydu.

– Axçi, qədəh gətir də.

Ərinin səsindəki, qəzəbi hiss edən Siranuş bir söz demədən durub bufetin gözündən bir qədəh gətirib araq butulkasının yanına qoydu və qayıdıb

öz yerində oturub yeməyini qabağına çəkdi. Hər ikisi səssizcə çörəklərini yeyirdi. Arabir Siranuş fikir verirdi ki, əri araqla qədəhini doldurub dinməzcə başına çəkir. Hər ikisi yeməklərini yeyib qurtardı. Siranuş qalxıb stolun üstünü təmizlədi. Araq şüşəsinin tamam boşaldığını gördükdə nə isə dalağı sancmağa başladı. Makar heç vaxt belə araq içən deyildi. Görəsən, buna nə olub? – fikri ilə təzə dəmlədiyi çaydan iki stəkan süzüb birini ərinin qarşısına, birini də öz qarşısına qoydu.

Makar bir siqaret yandırdı. Acı tüstünü acgözlüklə sinəsinə çəkib havaya üfürdü. Gözünün altı ilə ərini müşahidə edən Siranuş Makarın narahat olduğunu hiss etsə də, bir söz deməyə cəsarət etmirdi.

– Axçi, sənin qızın ərə getdiyi neçə aydır? Gözlənilmədən verilən bu sualdan özünü itirən Siranuş ilk baxışda çaşsa da, tez özünü ələ alıb sifətinə təbəssüm donu geyindirərək dedi:

– Sən bilmirsən ki, məndən soruşursan.

– Mən bilirəm. Yaxşı, arvad neçə ayında doğur?

– Nədi, yoxsa evlənmək istəyirsən? Gülümsünən Siranuş ərinin üzünə baxsa da, içində acı bir külək əsirdi.

– Axçi, mən sənlə zarafat eləmirəm ey, söz soruşuram. Makar səsinin tonunu bir az da qaldırdı.

– Ara, nə bilim, elə gülməli sual verirsən ki. Arvad doqquz ayında doğur. Ola bilər ki, altıaylığında da doğar.

– Altıaylıq necə olur?

– Yarımçıq doğulur. Siranuş artıq hiss etmişdi ki, Makar daşı hara atır.

– Sənin qızının uşağı yarımçıq doğulubdu?

– Yox. Yarımçıq doğulmayıbdı. O nədəndir mənim qızım olur, sənin qızın yox. Siranuş vəziyyətin kəskinləşdiyini başa düşsə də, özünü o yerə qoymadı.

– Yaxşı, onda sənin qızının doğduğu uşaq kimdəndir?

– Kimdən olacaq? Öz ərindən! Siranuşun ağzından söz çıxar-çıxmaz qulağının dibinə dəyən şapalaqdan zərblə döşəməyə yıxılmağı gözlənilmədən baş verdi.

– İt qızı, it! Səni əkənin…… Mənim başıma qatma salıb hərləyirsən. Musurman tulasından küçük tutursunuz, mənim də xəbərim yox. Hələ indi başa düşürəm ki, bu qız niyə məndən qaçırmış. Mən nə bilim torbada pişik var. Səhər gedib it qızı, it, o musurman küçüyünün ağzına bir balınc qoyarsan, ölüb rədd olsun. Eşitdin? Sənin doğduğun qancıq axır ki, erməninin düşmənindən küçük doğdu. Bu qız tikə-tikə doğranmalıdır.

Bir təhər özünü düzəldib ayağa duran Siranuş ağlaya-ağlaya üzünü ərinə çevirərək:

– Qurban olum, Makar. Niyə başa düşmək istəmirsən? Mən biləndə artıq iş işdən keçmişdi. Neyləyim? Sənə demədim ki, əlindən bir xata çıxar. Onun üçün də oradan tez köçməyə can atırdım. İndi də, Allaha şükür, ərə verdik, töhmət üstümüzdən götürüldü. Əri bilmir uşağın musurmandan olduğunu. Amandı, birdən ağzından çıxar, sənə qurban olum Makar. Əri boşayar, ondan sonra şəhərdə

biabır olarıq. Rozaya qurban olum, verdi ərə. Əri də çox istəyir. Edik uşağı elə istəyir ki, heç doğma ata öz uşağını elə sevmir.

– Bəs eşitməmisən, bic dadlı olar də! Makar acıqlı-acıqlı siqareti külqabında söndürdü.

– Ara Makar, hər nə oldusa, keçdi getdi. Təzədən fikirləşməyə dəyməz.

– Axır ki, sənin qızın mənim sümüyümü düşmən sümüyünə caladı.

– Ara, Makar, bu musurman nə vaxtdan ermənin düşməni oldu axı? O qədər musurmana gedən erməni qızı var ki, bizimki də onlardan biri.

– Axçi, o qızlar səhv eləyiblər. Gərək biz də səhv edək?

– Ara, niyə hirslənirsən, sənə qurban olum. Edik uşağı yazdırıb öz adına. Uşaq nə bilir ki, kimin uşağıdı. Bunu sənlə mən, bir də Zadorla Roza bilir. Qorxma, uşaq erməni uşağı kimi böyüyəcək.

– Axçi, yadında saxla ki, onun damarlarında musurman qanı axır. O heç vaxt erməni torpağına, erməni millətinə sədaqətli ola bilməz. Əhliləşdirilmiş vəhşi ömründə bir dəfə də olsa, öz vəhşiliyini büruzə verməlidir. Yadında qalsın, yaşasaq, görəcəyik. Bu uşağı nə qədər erməni adət-ənənəsi ruhunda tərbiyələndirsən də, bir dəfə də olsa, azərbaycanlı olduğunu göstərəcəkdir. Gen var, arvad, gen! Qandın?..

– Ara, o nə olan şeydir?

Siranuş Makarın sakitləşdiyini hiss edərək bir az ürəkləndi.

– Heç görmüsən gilas ağacı tut meyvəsi gətirə?

– Yox! – deyən Siranuş maraqla cavab verdi və ərinin üzünə baxdı.

Makar özündən razı halda dedi:

– Bax, gen deyilən də elə bir şeydir!

* * *

Vaxt azaldıqca Bəhlul kişi ilə Şölə arvadın canını qoymağa yer tapmırdı. Ər-arvad günləri sayırdılar. Bəhlul kişi Namiq hərbi xidmətə yola düşəndə qapıdakı qara inəyin balasını qurban demişdi. İkiillik cöngəni açıb-bağlamaq çətin olduğu üçün tövlənin bir tərəfində yoğun bir zəncirlə bağlanmış cöngənin yemini, suyunu çox ehtiyatla verirdilər.

Artıq SSRİ Müdafiə Nazirliyinin hərbi xidməti başa çatan əsgər və matrosların ehtiyata buraxılması haqqında əmri qəzetlərdə dərc olunmuşdu.

– Ay arvad, qapını-bacanı təmiz saxlayın. Bir də görəcəksən ki, oğlun qəflətən girdi qapıdan.

– Allah ağzından eşitsin, ay kişi. Anası ölmüş hər gecə yuxuma girir. Təki gəlsin. Qapı-bacanın dərdi asandır. Qorxma, hər şey yerli-yerindədir. Uşaqlar ev-eşiyi təmizləyiblər. Elə hamının gözü yoldadır. Beləcə hər gün üzücü və intizar içərisində keçirdi. Arabir darıxan Bəhlul kişi kəndin adamlar yığışan yerinə, kolxoz idarəsinin yanına çıxardı ki, bəlkə, təzə bir şey öyrənə bildi.

Axşamçağı damağında siqareti, əlində təsbehi yavaş-yavaş kəndin ortasına yollandı. Fikirli-fikirli evdən xeyli aralanmışdı ki, yanında bir maşın dayandı. Maşının qapısının açılması ilə əsgər paltarlı

Namiqin Bəhlul kişini qucaqlayıb öpməsi gözlənilmədən necə baş verdisə, kişi bir anlığa çaş-baş qaldı. Bilmədi gördüyü yuxudur, yoxsa reallıqdır.

– Dədə, nətərisən? Allaha şükür, yaxşısan.

Bəhlul kişi oğlunu qucaqlayıb bağrına basdı, bir anlıq duruxdu və qolları arasındakı əsgərin oğlu Namiq olduğunu dərk edəndə təkrar-təkrar Namiqin üzündən öpdü və: «Ə, qırışmal, bir xəbər verə bilməzdin? Gözləməkdən gözümüzün kökü saraldı ki».

Qonşu uşaqlar darvazadan içəri doldular və bir-birinə aman vermədən çığırışmağa başladılar.

– Şölə xala, muştuluğumuzu ver, Namiq gəldi.

Özünü saxlaya bilməyən Şölə arvad yaylığının ucu ilə gözünü silərək, hər iki əlini göyə qaldırdı:

– Allah, sənə min şükür, balam sağ getdi, salamat qayıtdı. Ey Yaradan, sənə qurban olum, heç bir ananın gözünü yolda qoyma.

Tez içəri keçib sandığı açdı və pul kisəsini götürüb qapıda gözləyən uşaqlara muştuluq paylamağa başladı.

Qapıda dayanan maşından düşən Namiq tələsik darvazanı açıb qapıya doğru gələn anasını qucaqladı.

Maşından düşən Bəhlul kişi sürücüyə «Oğlum, düş gedək evə» dedi.

– Yox, dayı, sağ olun. İşim var, gedirəm. Sürücü maşını işə saldı.

Bəhlul kişi tez əlini cibinə salıb bir 25-lik çıxardıb sürücüyə uzatdı: «Çox sağ ol, oğul, sən Allah, azdısa yenə verim. Utanma, düzünü de!», – dedi.

– Çox sağ olun dayı. Bu lap çox oldu. Allah razı olsun, əvəzini versin. Gözünüz bir də aydın olsun, dayı, – deyən sürücü pulu alıb cibinə qoydu və razı halda maşını döndərib yola düzəldi.

Bir az keçmiş qonum-qonşu, məhəllənin adamları Bəhlul kişinin qapısına yığışmışdılar. Gələnlər: «Gözünüz aydın olsun», – deyib Bəhlul kişinin və onun ailəsinin sevincinə şərik olurdular.

Bəhlul kişi qapıya yığışmış cavanlara üzünü tutdu və dedi:

– Ə, Heydər, sən fərasətli, həm də üz ağardansan. Get Novruzu çağır, işim var.

Kimsə söz atdı:

– Allah qəbul eləsin, o heç, onu bu dəqiqə kəsib paylayacağıq, sonrası….

– Əlif, bura gəl. Bəhlul kişi əlini cibinə saldı və bir qom qırmızı onluq çıxardıb 150 manat (rubl) sanıyıb Əlifə uzatdı.

Pulu alan Əlif: «Bunu neynim, Bəhlul dayı?» dedi.

– Qoy cibinə, get rayona. Nə lazımdısa, ürəyiniz istəyəni al gətir. O zəhrimardan da neçə yeşik istəyirsiniz alarsan. Erkəyi kəsirsən, kəsdirirsən, o sənin öz işindir. Burda əməlli-başlı bir stol təşkil edirsən, gəlib-gedən çörək yesin. Bu işi sən təşkil edirsən, başa düşdün?

– Hə, bildim, Bəhlul dayı.

– Di sənə yaxşı yol.

Heydər Novruzla gəlib Bəhlul kişinin qarşısında dayandılar və «Eşidirik, Bəhlul dayı» dedilər.

– Uşaqlar da kömək eləsinlər, o cöngəni kəsib maşınla qapı-qapı paylayın. İmkansıza, xəstəyə, qocalara bir az çox pay qoyun. Elə eləyin ki, pay layiqli olsun. Cöngənin 250 kilodan artıq əti var. Eşitdinizmi?

– Oldu, Bəhlul dayı. Çalışıb üz ağardan iş görərik.

* * *

Namiqin hərbi xidmətdən gəldiyi on beş gün olardı, Telman və Susanna ilə görüşüb söhbət etmişdi. Öyrənmişdi ki, Ramella ərə gedib. Ərə gedəndən sonra Susannaya bir dəfə məktub yazıbdı. Sonra əlaqə kəsilibdir. Bundan artıq heç bir məlumat əldə edə bilməyən Namiq Susannadan Ramellanın ünvanını aldı ki, hökmən gedib özü ilə görüşsün. Getmək üçün bir bəhanə tapa bilmirdi. Çox götür-qoydan sonra Namiq çıxış yolu tapdı və atasına dedi.

– Ata, sabah Bakıya getmək istəyirəm.

– Xeyir ola, ay oğul.

– Əsgər yoldaşım var. O da əsgərlikdən gəlibdi. Sifariş göndərib ki, gəlmişəm, gəl bir-iki gün qonaq qal, Bakını gəzək.

– Nolar, gedirsən get. Evdən pul götürərsən. Bir pay da alarsan. Get qal, bir azda gəz, dincəl. Amma özünü ağıllı apar. Daha yekə oğlansan.

Səhər tezdən Namiq Bakıya yola düşdü. Dəmiryol vağzalında kassaya yaxınlaşıb Pyatiqorskiyə bilet aldı. Qatardan düşəndə ömründə görmədiyi bu yad şəhərdə özünü qərib və kimsəsiz hiss etdi. Taksi saxladıb mehmanxanaya sürdürdü. Yax-

şı bir otaq alıb yuyunub yatdı. Axşam çağı qalxıb restorana düşüb çörək yedi və çıxıb şəhəri hərləndi.

Axşam otağa qayıdanda otağında təzə otaq yoldaşı gördü. Tanış oldular, Xarkovdan olan otaq yoldaşı 35-40 yaş arasında bir rus idi. Vitya adlı otaq yoldaşı ongünlük ezamiyyətə gəlmişdi.

Səhər yeməyini Vitya ilə birlikdə yeyən Namiq otağa qalxıb özünü səliqəyə saldı və soruşdu:

– Vitya, siz otağa nə vaxt qayıdacaqsınız?

– Bilmirəm. Gedim, qeydiyyata düşüm ki, gəlmişəm. Mən elə bilirəm ki, axşama ancaq qayıdacağam.

– Tez qayıtsan, gözlə, birlikdə çörək yeyək.

– Yaxşı, oldu. Vitya gülümsündü və Namiqlə xudahafizləşib ayrıldı. Namiq xeyli şəhəri gəzdi. Əlindəki ünvana baxdı. Lermontov küçəsi, 3-cü döngə, ev 17. Öz-özünə düşündü.

– Yaxşı, bir taksi saxladıb getdim. Birdən əri evdə oldu, nə deyim? Yox, əvvəlcə ünvanı tapım. Sonra xəlvətə çəkilib bir az pusum və vəziyyəti öyrənim. Bəlkə, heç orada yaşamır. Susanna dedi ki, əlaqə kəsilib, bəlkə, əri razı olmayıb məktub yazmağa. Bəlkə, heç özü əlaqə yaratmağı istəmir. Bilmək olmaz. İnsandı, dəyişib. Ola bilər məni görəndə tanımadığını desin. Nə bilmək olur dünyanın işini. Hər nə cür olur-olsun, bir dəfə də olsa özü ilə görüşməliyəm. İnanmıram o cür alovlu məhəbbət bu tezliklə külə çevrilsin. Qarşıma əri çıxsa, deyərəm ki, kirayə ev axtarıram. Yaxşı fikirdir. Çıxış yolu tapdığı üçün sevincək yolla gələn taksiyə əl edib saxlatdı. Əyləşdi və ünvanı dedi.

Sürücünün «Buyura bilərsiniz, dediyiniz ünvan buradır» sözləri ilə özünə gələn Namiq sürücünün pulunu verib maşından düşdü. Bir xeyli ətrafı nəzərdən keçirtdi və qapıda 17 nömrəsini görəndə içərisini anlaşılmaz bir hiss bürüdü. Özünü cəmləşdirib qapıya yaxınlaşdı. Ətrafa boylandı, elə bildi ki, gəlib-gedənin hamısı ona baxır və nə üçün gəldiyini hamı bilir. Bir də gəlib-gedənə baxdı, gördü ki, hamı öz işi ilə məşğuldur, heç kim ona fikir vermir.

Sağ əlini qaldırıb qapının zənginə doğru uzatdı və şəhadət barmağını zəngin düyməsinə basmağı ilə içəridən gələn «bülbül cəhcəhi» bədənini üşürgələndirdi. Olumla ölüm arasında qalan adam kimi hər saniyə bir il kimi uzanırdı sanki.

Qəfil beynindən keçən «Xalq ərə gedib, ailə qurub. Başqasının ailəsini niyə dağıdırsan axı? Buna sənin haqqın yoxdur. Qayıt geri! Görüşməmək hamısından yaxşıdır» fikri içinə hakim kəsildi. Geri döndü, addımını atmaq istəyəndə içindən gələn yeni bir səs: «Sən nə iş görürsən? Yoxsa, ərindən qorxdun? İki ildir gecə-gündüz onu fikirləşmirdinmi? Vəfan bura kimi imiş? Elə idisə, onda bir belə yolu basa-basa nəyə gəlmişdin? Gəlmişdin qapıdan qayıtmağa? Ordan bura gəlmisən, heç olmasa görüş. Səni qəbul etməz daha yaxşı, yenə qayıt get. Səni burda tutub saxlayan yoxdur» qətiyyətlə qapının açılmasını gözləməyi təkid etdi.

Qapı açıldı, hər ikisi dondular. Heç kəs gözünə inanmadı. Hər ikisinin sanki nitqi batmışdı. Bir anlığa yaranmış bu vəziyyəti təsvir etməkdə sözün

gücü çox zəifdir. O anı ancaq uzun illər həsrət çəkmiş sevənlər duya bilər.

– Bu s…ə…n..s..ə…n? Y...o…x, ola bilməz, deyən Ramella Namiqi qucaqlayıb bağrına basdı. Namiq qolları arasında ayağı ilə qapını örtdü. Namiqi öpüşlərə qərq edib buraxır və kənardan durub «Yox, ola bilməz! Sən deyilsən! İnanmıram gözlərimə! Qoy bir də səni qucaqlayım, doğrudanmı sənsən!» deyən Ramella təkrar-təkrar Namiqi qucaqlayıb həm öpür, həm də ağlayır.

Ramellanın məhəbbəti qarşısında əriyib yox olan Namiq handan-hana özünə gəldi və soruşdu: «Evdə başqa adam yoxdur?»

– Yox, arxayın ol. Gör Allahın nə xoşbəxt bəndəsisən ki, sənin gəlməyin nə gözəl vaxta düşübdü.

– Nolub ki? Namiq maraqla soruşdu.

– Edik bir həftəlik vacib işlə bağlı başqa yerə gedib. Ramella sevinclə cavab verdi.

– Nəyə gedib, bilmirsən? Qəflətən qayıdar, yaxşı olmaz.

– Qurban olum sənə, Namiq. Arxayın ol, getməyinin səbəbini mənə demədi, heç mən də soruşmadım. Ramella çöl qapını bağladı və qayıdıb Namiqi yenidən qucaqlayıb içəri apardı.

Hər ikisi əyləşdi. Namiq evi nəzərdən keçirtdi və dedi:

– Maşallah, yaxşı eviniz var.

– Namiq, istəyir bu ev qızıldan olsun, mənim gözümdə bir qəpiyə dəyməz. Sənin əsgərliyi qurtarmağının günlərini sayırdım. Bilirdim ki, gəlmisən. Düzü inanmırdım ki, bura mənim arxamca gələsən.

Allahıma qurban olum, sənin gəlişin gör nə gözəl vaxta düşdü. Dur, dur ayağa, qoy bir səndən doyum. İki ildir sənin üçün için-için ağlamaqla özümə təsəlli vermişəm. Ramella Namiqi təkidlə stuldan qaldırıb yataq otağına apardı.

– Namiq «Yaxşı deyil» dedi.

– Nə yaxşı deyil. Azərbaycanlılar nə cür deyir: «Qonaq ev yiyəsinin quludur» – İndi sən mənim qulumsan. İstəsəm, öldürərəm, istəsəm, sağ buraxaram. Qurban olum sizin atalar sözlərinizə. Hər birində bir kitablıq məna var. Fikir ver nə gözəl deyib: «Qonaq ev yiyəsinin quludur». Bu misalı mənim üçün deyib sizin babalarınız. Eləmi, Namiq? Ramella Namiqin pencəyini soyundurmağa başladı.

– Düz deyirsən, sənin üçün deyiblər o misalı. Güldü Namiq.

– Yaxşı, qoy özüm soyunaram.

– Yox, yox, Namiq! Səni özüm soyunduracağam. Ramella Namiqi soyundurub onunla birgə yatağa girdi. Namiqin qolları arasında sıxılan Ramellanın bədəninə yayılan xoş duyğular sanki yaralarına məlhəm olurdu.

Namiqi alovlu bir ehtirasla sinəsinə sıxan Ramella:

– Namiq, bax, əvvəl də sənin olmuşdum, indi də səninəm və ölənə kimi də sənin olacağam! Qucaqladığın bu canım sənə qurban olsun.

Bir xeyli vaxtdan sonra Ramella Namiqin qolları arasında yuxuya getmişdi.

Ağlamaq səsinə ayılan Ramella cəld qalxıb paltarını geyinib o biri otağa, uşağın yatdığı otağa keçdi. Başladı uşağı yedizdirməyə. Birdən yadına

düşdü ki, Namiqin gəldiyi gör neçə saatdı, hələ bir şey yeməyibdi. Uşağı çarpayısına qoyub, oyuncaqları qabağına tökdü, özü isə mətbəxə keçib əlüstü yemək hazırladı. Sonra uşağı qucağına alıb Namiqin yanına getdi. Namiq hələ yatırdı. Uşağı Namiqin yanına qoyub:

– Gör kim gəlib, qadan alım. Bir bax, dedi.

Üstündəki ağırlıqdan və səsə oyanan Namiq gözlərini ovxalayıb bir uşağa baxdı, bir də Ramellaya. Namiqin baxışlarındakı sualı oxuyan Ramella uşağı qucağına aldı.

– Nə təəccüblə baxırsan? Oğlundur də.

– Necə? Mənim oğlumdur? Bəs niyə bu barədə bir şey yazmırdın?

– Özüm yazmırdım. Səni gördüm yadıma düşmədi ki, səni muştuluqlayam. Heç sən də soruşmadın ki, deyirdin hamiləyəm, bəs hanı uşaq?

– İmkan verdin ki, soruşam.

Namiq güldü və uşağı alıb sinəsinə sıxdı, üzündən öpüb oxşamağa başladı.

Ramella uşağı qucağına alıb.

– Dur, paltarını geyin, güzgünün qabağında dur, uşağa və özünə bax. Elə bil bir almasınız, yarı bölünmüsünüz, – dedi Ramella.

Namiq paltarını geyinib əl-üzünü yudu və qurulanandan sonra uşağı qucağına alıb güzgünün qarşısına keçdi.

– Ramella düz deyir, eyni özüməm, deyib uşağın üzündən öpməyə başladı.

– Bəs məni, Ramella süzgün baxışlarla Namiqə baxdı.

Namiq Ramellanın ona tərəf uzatdığı dodaqlarından öpərək «Sağ ol, mənə belə oğul gətirdiyin üçün. Adını nə qoymusunuz»? dedi və soruşdu.

– Adı Hamletdir.

– Yaxşı addır. Yaxşı ki, erməni adı qoymamısınız.

– Mən fikirləşmişdim. Ramella güldü.

Çörək yeyəndən sonra Namiq dedi:

– Mən gedim.

– Hara gedirsən. Dedim ki, Edik bir həftə yoxdur. Axşam mənlə qalacaqsan.

– Ramella uşağın neçə yaşı var?

– Bir yaşını adlayıbdır.

– Səhər aparaq şəklini çəkdirək.

– Lap yaxşı.

– Ramella, nə yaxşı uşağınız yoxdur?

– Namiq, mənə uşaq lazım deyil, canım qədər sevdiyimdən bir oğlum var. Amma Edik istəyir ki, bir uşağı olsun. Mən elə başa düşürəm ki, indi də həkimə gedibdi. Ona görə mənə demir.

– Uşağa necə münasibəti var?

– Uşaqla nəfəs alır. Çox yaxşı adamdır. Uşağı öz adına yazdırıbdır. Gecə hər şeyi sənə danışacağam. Bir gör bu uşaq üçün nələr çəkmişəm. Atam bilir uşağın səndən olduğunu. Ona görə mənlə arası yoxdur.

Səhər yeməyindən sonra Namiq Ramella ilə Hamleti götürüb şəhərə çıxdı.

– Ramella, sən şəhəri yaxşı tanıyırsan. Elə dükana gedək ki, oradan bir fotoaparat alım. Maraqlı yerlərdə şəkil çəkəcəyəm. Taleyin işini bilmək olmaz, bəlkə, bir də görüşmək imkanı olmadı.

– Sən Allah, Namiq, elə demə. İmkan olanda gəl görüşək. O nə deməkdir? Demək məni birdəfəlik unudacaqsan? İnanmıram.

– Yox, mən elə demirəm. Demək istəyirəm ki, kim nə bilir sabah başına nə gələcək. Qorxma, nə qədər sağam, imkanlaşdırıb sənin görüşünə gələcəyəm.

– Bu, başqa məsələ. Ramella gözlərindəki gülüşü Namiqlə paylaşdı.

Ramella Namiqlə yolun solundakı dükana girdi. Dükanda müxtəlif fotoaparatları nəzərdən keçirən Namiq «FED-3» fotoaparatını bəyəndi. Ramellaya da göstərdi və fikrini öyrənmək istədi. Ramella isə «Sən bəyəndiyin şeyi mən də bəyənirəm» dedi.

Namiq 45 rubl verib fotoaparatı götürdü. Dükandan çölə çıxan kimi küçənin ortasında, dükanın qarşısında Ramella ilə Hamletin şəklini çəkdi. Sonra uşağı özü qucağına alıb fotoaparatı Ramellaya verdi.

–Oğlumla mənim şəkilimi çək. Ramella şəkli çəkib üzünü Namiqə çevirdi.

– Namiq, gedək həm gəzək, həm də tarixi abidələrlə bağlı yerlərdə şəkil çəkdirək. Bu daha yaxşı olar.

– Mən razı. Şəhər barədə bildiklərindən danış. Yaxşı olar ki, Lermontovla bağlı yerlərə gedək. Uzaqdırsa, taksi saxladım.

– Hə xeyli uzaqdır. Ramella dedi.

Namiq taksi əylətdi və maşına oturub Maşuq dağında Lermantovun öldürüldüyü yerə sürməyi dedi.

Taksidən düşən Namiq bir anlığa ətrafı nəzərdən keçirərək: «Demək, böyük sənətkar burda öldürülüb, heyf», deyərək təəssüfünü bildirdi.

– Namiq gördüyün bu Pyatiqorski şəhəri 1830-cu ildə salınıb. Pyatiqorski Beşdağın ruscaya tərcüməsidir. Böyük rus şairi M.Y.Lermontov ömrünün son aylarını burada yaşayıbdır. 1841-ci ildə Lermantov bax burada, dueldə öldürülübdür.

– Ramella, Puşkin də 1837-ci ildə alcaq Dantesin əli ilə dueldə öldürüldü. Bu iki böyük dahinin çox cavan yaşlarında öldürülməsindən rus xalqı itirdi.

– Düz deyirsən, Namiq. Hər iki sənətkar yaradıcılıqlarının çiçəkləndiyi bir vaxtda həyatdan getdilər.

– Ramella, Lermontovun yəqin ki, heykəli ucaldılmış olar?

– Hə, gözəl heykəli qoyulub.

– Burdan qurtarandan sonra gedək ora. Həm heykəli görüm, həm də orda da şəkil çəkdirək. Bilirsən ki, mən ədəbiyyatı çox sevirəm.

– Bilirəm. Mənə məktub yazanda, nədi sizin o qızlardan yazan şairin adı?

– M.P.Vaqifi deyirsən?

– Hə, hə, onun şeirlərindən də nümunələr yazardın.

– Vaqif gözəl qızlardan yazıb. Rəhmətlik sənin gözəlliyini görsəydi, bəlkə də sənin haqqında bir kitab yazardı.

– Yəni, mən o qədər gözələm? Ramella özündən razı halda gülümsündü.

– Gözəl olmasaydın, səndən ötəri bu qədər yolu gələrdimmi?

Namiq Ramella və oğlu ilə müxtəlif pozalarda şəkillər çəkdirdi. İşlərini yekunlaşdırıb taksi ilə Lermontovun heykəlini ziyarət etməyə getdilər. Qranitdən və tuncdan qoyulmuş heykəl sanki canlı idi. Heykəli diqqətlə nəzərdən keçirən Namiq «Əhsən, bunun heykəltəraşına. Var olsun əlləri. Şairə layiq abidə ucaldıbdı», dedi.

– Namiq, bilmirsən bu heykəlin müəllifi kimdir?

– Yox, bilmirəm.

– Heykəlin müəllifi A.M.Oneksindir. Heykəlin açılışı XIX əsrin axırlarında, 1889-cu ildə olub.

– Turizm idarəsində bələdçi işləyə bilərsən.

Namiqin sözünə gülən Ramella:

– Görmürsən, bələdçi işləyirəm. Turist kimi səni şəhərin görməli yerləri ilə tanış edirəm, həm də lazımi məlumatları verirəm. İndi də səni aparacağam Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin yanına. O da gözəl abidədir. Gedəkmi?

– Hə, Ramella, haranı yaxşı bilirsən, ora gedək.

Namiq Ramella ilə şəhərin gəzməli-görməli yerlərində oldu, həmin yerlərdə gözəl anları xatirə kimi təzə aldığı «FED-3» fotoaparatının yaddaşına köçürdü.

Edikin gəlməyinə iki gün qalmış Namiq Ramella və oğlu ilə görüşüb yola düşməyə hazırlaşdı. Qapının ağzında Namiqin boynunu qucaqlayıb ağlayan Ramella: «Namiq, qurban olum, get evlən.

Görürsən ki, mən ailə qurmuşam. Uşağıma da, özümə də çox yaxşı baxır. Mən bir uşaq qucağımda sənə qoşulub hara gedim? Nə bilim hansı çətinliklərə rast gələcəyəm. Sənin də atan, mənim atam kimi bizim evlənməyimizə razı deyil. Atanın sözünə bax, evlən. Onsuz da mən də sənin arvadınam. Musurmanda çox arvad almaq moddu. Sənin böyük arvadın kimi icazə verirəm, get evlən. Amma məni də yaddan çıxartma. Sən mənimsən. Eşitdinmi?» – dedi.

Namiq sinəsinə söykənmiş Ramellanın çənəsindən tutub yuxarı qaldırdı və gözlərinin içinə baxdı. Yaşla dolu gözlərdə öz əksini gördü. Əvvəlcə nəmli gözlərdən, sonra gül ləçəyinə oxşar dodaqlardan öpdü. Hamleti sinəsinə sıxıb təkrar-təkrar öpüşlərə qərq etdi.

– Ramella, uşaqdan muğayat ol. Böyüyəndə atasının kim olduğunu deyərsən. Yaxşımı?

– Yaxşı!

Namiq qapıdan çıxıb çantasını götürmək üçün mehmanxanaya yollandı.

* * *

Namiqin hərbi xidmətdən gəldiyi bir ilə az qalmışdı. Evdən nə qədər evləndirmək istəsələr də, lakin Namiq oxuyacağını deyirdi. Bu sözün qarşısında evdə bir söz demirdilər. Bəhlul kişi ürəyində razı qalırdı oğlundan. Oxumaq fikri var, daha yaxşı. Qəbul vaxtı sənədlərini hazırlayıb Kənd Təsərrüfatı İnstitutuna verdi. Avqustun axırı idi. Namiq instituta gəldi ki, görsün qəbul olub, yoxsa yox. İnstitutun qarşısında vurulmuş siyahıda adını

oxuyanda sevindiyindən bilmədi ki, neyləsin. Qəbul kağızını alıb özünü avtovağzala çatdırdı.

Ailə üzvləri sevinc içində idi. Tay-tuşları Namiqi təbrik edir, Bəhlul kişi ilə Şölə arvada göz aydınlığı verirdilər. Namiq şəhərə bir-iki gün tez yola düşdü.

Fikri var idi ki, ev kirayə etsin. Kirayəyə yaxşı bir ev tapdı. Artıq dərslərə davam edirdi Namiq. Qış imtahan sessiyası yaxınlaşırdı. Mühazirələr qurtarmışdı. İmtahan və zaçotlar başlamışdı. Arada boş gün olduğu üçün evə getdi. Axşam şər qarışanda evə çatdı. Evə girəndə atasını yorğan-döşəkdə görən Namiqin dünya gözündə qaraldı. Atasının balıncının yanında oturdu və atasının vəziyyəti ilə maraqlandı.

– Oğul, qorxub eləmə. Elə bir şey deyil, keçib gedər. Yəqin soyuqlamışam. Həkim dərman yazıb, indi bir az yaxşıyam.

– Ata, bəs niyə xəbər eləmirdin?

– Ay oğul, özüm məsləhət görmədim. İstəmədim, dərsdən ayrılasan.

– Ata, nə dərs bazarıdı. Uzaqbaşı oxumaram.

– Elə demə, oğul. Oxumaq gözəl şeydi. İmtahanlarını qurtar, sonra ərizə ver, keç qiyabiyə. Evdəkilər əsir olurlar. Gəl həm evə göz-qulaq ol, həm də oxu.

– Düz deyirsən, ata. İmtahanlar başlayıbdı. Qurtarsın, qiyabiyə keçim, gəlim.

– Hə oğul, evdə kömək lazımdır.

Namiq imtahanları qurtaran kimi ərizə verib qiyabiyə keçdi. Həm kolxozda işləyirdi, həm də ev

işlərinə kömək eləyirdi. Bəhlul kişi də yaxşılaşmışdı.

* * *

Şəhla otaqları yığışdıran zaman Namiqin stolunun üstündə bir fotoalbom gördü. Başladı albomu vərəqləməyə. Hərbi xidmətdə çəkdirdiyi şəkillər idi. Albomun axırında xeyli şəkil dəst şəklində albomun arasına qoyulmuşdu. Şəhla şəkillərə baxan kimi qardaşının yanında Ramellanı o saat tanıdı. Bəs bu uşaq kimdi? – sualı ətrafında gəzişərkən Namiqin məhəbbətlə uşağı qucaqlamasını, öpməsini, əlindən tutub yeritmək istəməsi anlarının fotoda dondurulması Namiqin oğludur, fikrini təsdiqlədi. Şəklə diqqətlə baxan Şəhla: «Necə də Namiqə oxşayır. Elə bil bir almadır ikiyə bölünübdü», fikrini beynindən keçirtdi. Şəhla şəkilləri dəstələyib əlinə yığdı və aşağıya düşdü. Otağa girdi. Gördü ki, atası dirsəklənib qarşısında armudu stəkanda çay buğlanır. Ağ samovar başında çaynik dızıldayır. Anası isə qənd doğrayır.

– Ana, bir buna bax, gör tanıyırsan? Şəhla əlindəki şəkillərdən birini anasına verdi. Şölə əlindəki qənd qayçısını qənd qabının içərisinə qoyub qızının uzatdığı şəkli alıb baxdı.

– Bu Namiq deyilmi? Bəs bu yanındakılar kimdi, ay qız?

– Dədə, al sən də bax. Anam tanımadı. Şəhla şəkillərdən birini atasına uzatdı. Bəhlul kişi şəkilə baxdı və acıqlı-acıqlı Şöləyə tərəf: «Niyə tanımırsan, ay arvad. Görmürsən oğlun Namiqdi, yanındakı da erməni qızıdı. Gəlinin. Uşaq da nəvəndir.

Uşaq elə bil fırt eliyib oğlunun burnundan düşüb», dedi.

Bəhlul, Şölə və Şəhla şəkillərə bir-bir baxdılar.

– Ölmədin Bəhlul, bu günü də gördün. Oğlun səni yaxşı yerə caladı. Nə dərdimiz var ay Şölə. Fikir eləmə, öləndə Makarın qızı üstümüzdə ermənicə bir ağı desin ki, o biri dünyada inkir-minkir bizi sorğu-suala da tutmasın. Yas məclisimizdə bir tərəfdə molla «Quran» oxuyar, o biri tərəfdə keşiş əyləşib ruhumuza badə qaldırar. Görun çatlasın, a Bəhlul!

Bəhlul kişi bir siqaret yandırıb tüstüsünü acgözlüklə sinəsinə çəkdi və dedi:

– Bu qırışmal hər dəfə Bakıya dostugilə getmək adıyla evdən çıxanda deməli Makarın qızının dalınca gedirmiş. Çox şükür ki, erməni kənddən köçdü. Yoxsa qohum-əqrəba, el-oba içində rüsvay olardıq.

– Ay qız, (Bəhlul kişi üzünü Şəhlaya tərəf tutub acıqlı-acıqlı dedi) apar şəkilləri haradan götürmüsən qoy yerinə. Bu barədə bir kəlmə də ağzınızdan çıxmasın. El bizə söyər. Nə bizə qız verməzlər, nə də qızımızı almazlar. Təcili bu alçağı evləndirmək lazımdır. Əyyubun qızı Nərgiz necə qızdır? Əyyub özü, arvadı qohum olunası adamlardır. Arvad, əl altından Əyyubun arvadının fikrini öyrənin.

– Ay dədə, oğlunun xəbəri yox. Bəlkə, heç razı olmayacaq. Qoy bir oğluna deyək, sonra. Niyə tələsirsən?

– Oğlum qələt eləyir. Nə deyib razı olmayacaq? Hə, deyin görüm Əyyub erməni Makarcan deyil, yoxsa qızı Makarın qızından əskik qızdı?

– A kişi, kim nə deyir? Biz də səninlə razı. Qoy bir uşağın fikrini öyrənək, sonra yenə sən deyən olsun, dayna!

Şölə ərinə etiraz etsə də içində ərinin fikri ilə razı idi. Bilirdi ki, Bəhlulu dediyindən döndərmək çətindir.

– Arvad, mənə vəz oxuma. İki-üç günə Əyyubun arvadıyla ağzıbir olub, mənə bir söz deyərsən. Qalan işlər sənlik deyil. Eşitdinmi? Bəhlul kişi soyumuş stəkandan bir qurtum alıb, stəkanı nəlbəkiyə qoydu və acıqlı ayağa qalxıb çölə çıxdı.

Bəhlulun çölə çıxdığını görən Şölə qızına tərəf çönüb: «A səni qarabaxt olasan. Sənə kim dedi ki, o şəkilləri gətirib dədənə göstərirdin?» – deyə, acıqlı-acıqlı soruşdu.

– Pis iş görmədim ki? Gördün, dədəm təcili elçi getmək fikrindədir.

– Namiq bilsə ki, o şəkilləri gətirib kişiyə göstərmisən, bil ki, meyidini atacaq.

– Eybi yoxdu. Təki evlənsin. Toyunda oynayanda döydüyünün ağrısı canımdan çıxacaq. Ay ana, dədəm yaxşı fikirləşib.

– Nəyi, ay qız?

– Əyyubun qızını deyirəm də. Nərgiz həm gözəldi, həm qoçaqdı, həm də təmiz qızdı. Namiq nə olsun ki, qardaşımdı. Nərgiz razılaşsa, qardaşım getsin papağını göyə atsın.

– Nə bilim, a bala. Axşam qardaşının ağzını ara. Gör fikri nədi. Yaxşımı? Şölə qızına tapşırdı.

– Yaxşı, ana, deyərəm! Şəhla sevincək tez yuxarı otağa qalxdı. Şəkilləri yerinə qoydu və döşəməni silməyə başladı. Təmizlik işini başa çatdırıb aşağıya düşdü.

* * *

Namiq işdən gəldi. Mal-qaranı rahatladı. Əlüzünü yudu və çörəyini yeyib yuxarı, otağına qalxdı. Kitabları qarşısına töküb yoxlama işlərini yazmağa başladı. İmtahana qədər tapşırılan yoxlamalara müsbət rəy almalı idi ki, imtahana buraxılsın. Xeyli işləmişdi ki, Şəhla əlində çayla dolu stəkan və «Çinar» şokoladı içəri girib çayı və şokoladı Namiqin qarşısına qoydu.

– Səndən çıxmayan iş. Bu nə xəcalətdi verirsən? Güldü Namiq.

– Xəcalət niyə olur. Bacının borcu qardaşına qulluq etmək və onun qayğısına qalmaqdır. Şəhla arxadan Namiqin boynunu qucaqlayıb, başını sığalladı, ürəkdən gələn istəklə qardaşının üzündən öpdü.

– Bacısının hərəkətlərinin mənasını bir yana yoza bilməyən Namiq soruşdu:

– Haçandan mənim qayğıkeşim olmusan?

– Bu gündən.

– Bilmək olarmı bu qayğın nə ilə bağlıdır? Namiq Şəhlanın hərəkətinin arxasında dayanan məqsədi yenə başa düşə bilmədi.

– Yaxşı, otur görək, sənin mehribanlığının səbəbi nədir? Namiq yanındakı stulu göstərdi. Şəhla stula əyləşib şirin təbəssümlə qardaşının üzünə baxdı.

– Dədəm sənə elçi gedir.

Ağlına gəlməyən xəbərdən özünü o yerə qoymayan Namiq: «Kimə elçi gedirsiniz?» dedi.

– Bir şey boyun olmasan, demərəm.

– Mənim üçün əhəmiyyətli bir xəbər deyil.

– Bilsən kimə elçi gedirlər, qol götürüb oynayarsan.

– Evlənmirəm ki, oynayam da?

– Səhər anam Hüsniyyə xalamı göndərir qızın anasının yanına. Qızın ailəsinin fikrini öyrənsin.

– Deyəsən, sən lap gercəkləmisən. Namiq ayağa durub otaqda var-gəl etməyə başladı.

– Dədəmin canına, düz sözümdü.

– Axı qız kimdi? Maraq üstün gəldi Namiqə.

– Quru süfrəyə dua olmaz. Bir şey boyun ol, deyim.

– Yaxşı, ürəyin nə istəyir de. Yoxlama işlərimi aparanda şəhərdən alıb gətirərəm. Qaraçısan, qaraçı. Sözü də pulnan satırsan.

– Yaxşı, bir əl çantası almağa razısan?

– Hə, alaram. De görək kimdi o qız? Namiqin içini bürüyən maraq tamam hövsələsini daraltdı.

– Nərgizdi.

– Hansı Nərgiz?

– Əyyubun qızı Nərgiz. Tanıdınmı?..

– Nə fikrə getdin? Kəndin gözüdür. Gözəl-göyçək, namuslu-qeyrətli. Yoxsa bəyənmirsən? Bic-bic güldü Şəhla.

– Yox, qız barədə bir söz deyə bilmərəm. Bəlkə, qız razı olmadı. Onda necə?

Namiq Şəhlanın ağzından çıxacaq sözü səbirsizliklə gözlədi.

– Niyə razı olmur? Sənin kimi oğlanı haradan tapacaqdır. Onu mən başa salaram. Sən razı ol, arxası bizdikdi. Şəhla qətiyyətlə dedi.

– Yaxşı, icazə ver bu gecə fikirləşim, səhər bir söz deyərəm.

– Nə fikirləşəcəksən. Dədəm sənin də əvəzindən, bizim də əvəzimizdən fikirləşibdi. Sənin də ağzını xala-xətrin qalmasın deyə, mən arayıram. Bir bacı kimi. Bəlkə, köməyim dəydi. Dədəmizin xasiyyətini bilmirsənmi? Onun sözünün qabağına söz demək olmaz.

– Yaxşı, bir halda ki, dədəm mənim də əvəzimdən hər şeyi götür-qoy edibdi, gedin elçiliyinizi edin.

Şəhla Namiqin üzündən öpüb «Bacın sənin gözlərinə qurban olsun. Biz də bunu deyirik də. Allah qoysa, bir-iki günə məsələni yoluna qoyuruq. Amma çanta yadından çıxmasın. Yoxsa işini buraram», deyərək sevinclə qapıdan çıxdı.

* * *

Namiq yerinə girdi. İçində düşünməyə, olub keçənləri saf-çürük etməyə başladı. Atasının fikrinə bəraət qazandırdı. Ata övladının xoşbəxtliyini düşünür və onun üçün çalışır. Əyyubun özü də, ailəsi də mərifətlidi. İnsafən desək, Nərgizə də söz demək çətindir. Ailə qurmaq üçün layiqli qızdır. Əsl ailə qızıdır. Artıq Ramella ilə olan macəra sona yetdi. Bir-iki dəfə getdim, bəsdi. Əri bilər, ailəsi dağılar. Qoy xoşbəxt olsun. Ramella ağıllı qızdır. Reallığı qiymətləndirməyi bacarır. Yazıq dönə-dönə dedi ki, get evlən. Oğul-qız yiyəsi ol. Mən qıs-

qanmıram səni. Onsuz da qəlbinin təmiz vaxtı mən oranı zəbt etmişəm. Kim gəlsə də, orada ona yer yoxdur. Onsuz da mən sənindəm, – dedi. Bu cür düşüncələr qoynunda nə vaxt yuxuya getdiyini bilmədi. Qapının açılmasına oyananda Şəhlanı yanında gördü.

– Sabahın xeyir, əziz qardaş. Hövsələm çatmadı sənin qalxmağını gözləməyə. Bilirəm, gecə səhərə kimi dağı arana daşımısan, aranı da dağa. Onun üçün yatıb bu vaxta qalmısan. De görüm, qərarın nə oldu?

– Hə, mən razıyam. Nərgiz pis qız deyil.

– Ay sağ ol, bu oldu notarialnı cavab. Minnət qoyma. Nərgiz əla qızdır. İndi biz gedək öz işimizlə məşğul olaq, sən də öz işinlə. Allah, səndən razı olsun, əziz qardaşım. Şəhla razılıqla otaqdan çıxdı.

* * *

Toya hazırlıq gedirdi. Qapı-baca səliqəyə salınmışdı. Evin içinə-çölünə əl gəzdirilmişdi. Otaqlardan biri bəy otağı kimi hazırlanmışdı. Gəlinin cehizi gəlib bəzədilmişdi. Kənd, qohum-əqrəba və dost-tanış toya təklif olunmuşdu. Tay-tuşların köməyi ilə böyük bir mağar qurulmuşdu. Toy iki gün davam edəcəkdi. Birinci gün uzaqdan gələn qonaqlar üçün, ikinci gün kəndin adamları üçün. Xanəndə ilə bərabər, aşıq da dəvət edilmişdi.

Gültəpə kəndinin sakinləri bilirdilər ki, Bəhlul kişi elə-belə toy eləyən adam deyil. Hər şeyin yerini bilən, adamlara hörmətlə yanaşan Bəhlul kişi kəndin hörmətli ağsaqqallarından biri idi. Maddi baxımdan imkanı yaxşı olduğuna görə toy üçün hər

şeyi bola-bol hazırlatdırmışdı. Kişinin qapısında birinci xeyir işi idi.

Günortaya yaxın musiqiçilər hazırlıqlarını görüb qurtardılar. Əlüstü çörək yeyib yerlərinə keçdilər. Masabəyi ayağa durdu:

– Hörmətli məclis iştirakçıları!

Bu gün biz vətənimizin dilbər guşəsi olan Mil düzünün Gültəpə kəndindəyik. Kəndin hörmətli ağsaqqallarından Bəhlul dayının oğlu Namiqin toy məclisinə toplaşmışıq ki, xeyir-dua verək. Hər ağızda bir dua müstəcəbliyi var.

Bəhlul dayı gözün aydın olsun. Oğullu-qızlı olsun, Namiq balamız.

Hamı yerbəyerdən «Amin! Xoşbəxt olsun!» dedi.

Hörmətli məclis iştirakçıları, Gültəpə kəndində maraqlı bir adət var.

Toy başlayanda da «Qarabağ şikəstəsi» ilə başlayır, qurtaranda da. Bilmirəm bu adəti kim qoyub və nə vaxt qoyub, onu deyə bilmərəm. Mən belə başa düşürəm ki, gültəpəlilərin bu adəti vətənimizi, o cümlədən Qarabağı ürəkdən sevmələri ilə bağlıdır. Əhsən bu adətə! Mən bu adəti alqışlayıram. İndi xanəndəmiz «Qarabağ şikəstəsi» ilə məclisimizin açılışını edəcəkdir.

Eşidək!

Xanəndənin zənguləsi, gitaranın yanıqlı səsi toyun başlanmasını Gültəpəyə car çəkdi.

Toyun ikinci günü gecə saat üç-dörd radələrində xanəndənin oxuduğu «Qarabağ şikəstəsi» gecənin səssizliyində məclisin başa çatdığını bildirdi. İki günlük məclisin yorğunluğundan sonra gecə saat

3-4 radələrində «Qarabağ şikəstəsi» oxumaq xanəndə üçün çox çətin sınaqdır. Bunu hər xanəndə bacara bilməz. Ona görə də Gültəpə kəndində hər xanəndə toya getməyə cəsarət edə bilmirdi. Hansı xanəndə Gültəpədə toy məclisində iştirak edibsə, o, sənət sınağından çıxmış hesab olunurdu.

* * *

Namiq tamam evə, ailəyə bağlanmışdı. Ali məktəbi bitirmişdi. Kolxozda baş mühəndis vəzifəsində çalışırdı. Turan adında bir oğlu, Solmaz adında bir qızı var idi. Uşaqlar orta məktəbdə oxuyurdular.

Bəhlul kişi ilə Şölə arvad dünyalarını çoxdan dəyişmişdilər. Şəhla Bakıda yaşayırdı.

Telmanla Susanna komsomol xətti ilə BAM-a (Baykal Amur Magistralı) getmişdilər. Orada evlənmişdilər. Bir qızları da var idi.

Beləcə günlər bir-birini əvəz etdikcə Namiq yaşa dolurdu. Namiq qabaqcıl işçi kimi SSRİ Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin Qızıl medalına, «Lenin» ordeninə və bir sıra medallara layiq görülmüşdü. Elə bir iclas olmazdı ki, Namiqin adı orada yaxşılığa çəkilməsin.

* * *

Makar təşkilata üzv yazılandan bəri gecə-gündüz bir fikri var idi. O da təşkilat üzvlərinin sayının artırılması idi. Növbəti iclasların birində kürəkəni Ediki də özü ilə apardı. Edik iclasda eşitdiklərini fikirləşəndə öz-özünə nifrət edirdi ki, mən bunları indiyə kimi bilməmişəm. İclas zamanı

1915-ci ildə türklərin ermənilərə qarşı apardığı soyqırım barədə eşitdiyi sözlər və Böyük Ermənistanın sərhəd xəttini görəndə heyrətdən Edikin gözü böyüdü. Dənizdən-dənizə yaradılacaq Böyük Ermənistan xülyası tədricən Edikin beyninə nə cür yeridildisə, təşkilata ayda yığılan 3 rubl əvəzinə 10 rubl ödəyirdi.

Uzun illər idi ki, təşkilatın sirri gizli saxlanılırdı. İş elə qurulmuşdu ki, mərhələ-mərhələ həyata keçirilməli idi. Nüfuzlu adamları təşkilata cəlb etmək əsas məsələlərdən biri idi. Xüsusən, görkəmli elm adamları, Sosialist Əməyi Qəhrəmanları, SSRİ Ali Sovetinin deputatları diqqətdə saxlanılırdı.

Edikin övladı olmadı. Hamleti öz övladı kimi tərbiyə edib böyütdü. Sırf millətçi ruhunda, xüsusən azərbaycanlılara qarşı nifrət ruhunda böyütdüyü Hamleti Ali Hərbi Məktəbə qoydu. Hamlet artıq zabit kimi orduda qulluq edirdi. Edik Hamleti də təşkilata üzv eləmişdi.

Çoxdan gözlənilən zaman gəlib yetişdi. Ermənilər görkəmli adamların imzası ilə Moskvaya məktub göndərdilər. Dağlıq Qarabağın Azərbaycandan ayrılması tələbini qoymuşdular. Müsbət cavab ala bilməyən ermənilər 1988-ci ilin fevral ayında Xankəndində nümayişə çıxdılar. Səngimək bilməyən nümayişi televiziya kanalları göstərməli oldu. Dinc nümayişə çıxan erməni millətçiləri yavaş-yavaş Ermənistanda yaşayan azərbaycanlıları dədə-baba torpaqlarından çıxartmaq üçün müxtəlif təzyiqlərdən istifadə edirdilər.

1990-cı ildən ermənilər torpaq iddiası ilə Azərbaycanın kəndlərinə və şəhərlərinə hücum et-

məyə başladılar. M.Qarbaçov Sovet İttifaqı Kommunist Partiyasının buraxıldığını elan etdi.

1990-cı ildə yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda azadlıq hərəkatını boğmaq üçün Bakıya qoşun yeridildi və SSRİ adlı imperiya çökdü. Din qardaşlarının və xaricdə erməni lobbilərinin köməyi ilə ermənilər tədricən azərbaycanlılar yaşayan ərazilərdə vəhşiliklər törətməyə başladılar. Vətənin təəssübünü çəkən azərbaycanlılar silahlanıb cəbhəyə yola düşürdülər. Hamının fikri ancaq cəbhədən gələn xəbərlərdə idi. Gündən-günə şəhidlərin sayı artmaqda idi. Xəstəxanalar hərbi xəstəxanalara çevrilmişdi.

* * *

Axşamdı. Kənddə əl-ayaq yığışdırılmış, kəndin müxtəlif tərəflərində, xüsusən giriş və çıxış yollarında cavanlardan təşkil olunmuş könüllü gözətçi postları isə öz yerində idi.

Ailə süfrə ətrafında əyləşmişdi. Ailə üzvləri əllərini süfrəyə uzatsalar da, hamının gözü televizora zillənmişdi. İntizar içərisində cəbhə ilə bağlı veriləcək xəbəri gözləyirdilər.

– Ata, biz, beş-altı nəfər şəhər Hərbi Komissarlığına getməyə söz vermişik. Turanın bu gözlənilməz müraciətindən Nərgiz: «Bıy, başıma xeyir, bu gədə dəli olub!» deyərək ərinin üzünə baxdı. Sanki bununla demək istəyirdi ki, bu nə danışır?

Solmaz tez soruşdu.

– Kim-kim gedir?

– Nə bilim, Muraddı, Həsəndi, Balaydı, Orucdu, Nağıdı, Daşqındı, Süleymandı. Kişiləşib söz verən çoxdur. Səhər Hərbi Komissarlıqda bilinəcəkdir. Turan bacısına cavab verdi.

– A kişi, niyə dinmirsən? Görmürsən, oğlun nə sayıqlayır?

– Oğlum düz eləyir. Bəs, bu torpağı, sənin və qızının namusunu kim qorumalıdır? Oğul bu gün üçün doğulubdu.

– Nə danışdığını bilirsənmi, Namiq?

– Niyə bilmirəm, ay arvad. Yəni o qədər qanmazam?

Ərinin səsinin intonasiyasındakı qəzəbi havada tutan Nərgiz:

– Allah eləməsin, mən elə demədim. Niyə o cür başa düşürsən? Yəni demək istəyirəm ki, bir uşaqdır. Gedər uzaq olsun, dilim-ağzım qurusun, başına bir iş gələr. Ondan sonra mən başıma haranın daşını tökərəm?

Nərgiz tamam yazıqlaşdı və üzünü yana çevirdi.

– Bəyaxları dedim, bəs bu torpağı kim qorusun, kim?! Hamının balası özü üçün əzizdir. Bir də yadında saxla ki, qismətin nədirsə, onu da görəcəksən. Heç kim qismətdən artıq yeməyibdir. Allah üstündə yar olandan sonra heç bir şey olmaz. Artıq söz lazım deyil, durun yataq. Namiq ayağa durub çölə çıxdı.

Səhər açıldı. Çay-çörəyini yeyəndən sonra Turan ayağa qalxdı.

– Hə ata, mən gedirəm, – deyib atası ilə görüşdü. Sonra bacısı Solmazla görüşdü. Anası Nərgizi qucaqlayıb üzündən öpdü.

– Qurban olum, ay Turan, amandı getmə, ay bala. Qoy kim gedir getsin, – deyən Nərgiz oğlunu qucaqlayıb buraxmaq istəmirdi. Elə bil kimsə Turanı onun əlindən alacaqdı.

– Qorxma, ana! Ermənilər geri otuzdurub, qayıdıb gələcəyəm. Ay ana, görmürsən, neçə rayonumuzu alıblar. Bəs biz kişi deyilik?

– Ay bala, alıblar, sonra hökumət qaytarar də. Gərək sən gedəsən?

– Ana, gülməli söz deyirsən. Hökumət kimdir? Mənəm, sənsən, o birisidir. Biz getməyəndən sonra hökumət kimlə qaytarsın torpaqları? Erməni heç könüllü torpaq verər? Tural anasını qucaqlayıb qapıdan çıxdı. Anası, bacısı və atası da arxasınca.

Qapının ağzında dayanmış «Jiquli»yə oturan Turan çönüb yanaqlarını əlinin arxası ilə silən anasına dedi:

– Ana, gözlə, qayıdacağam!..

* * *

Üç aydan artıq idi ki, Turan ön cəbhədə düşmənlə vuruşurdu. Hətta bir-iki dəfə yaxşı əsgər kimi televizorda da göstərmişdilər. Bacısı Solmaz, babaları Əyyub və Namiq Turan ilə içlərində fəxr etsələr də, Nərgiz yaman narahat idi. Turan könüllü cəbhəyə yola düşəndən Nərgiz özünə yer tapa bilmirdi. Ürəyi narahat, özü səksəkəli idi. Hər dəqiqə qulağı bəd xəbər gözləyirdi. Qonşu arvadları, qo-

hum-əqrəba təsəlli versələr də, Nərgizin narahatlığına son qoya bilmirdilər ki, bilmirdilər.

Turan döyüşə yollanandan Namiqin sözünün qabağına söz deməkdən çəkinən Nərgizin tez-tez əri ilə sözü düz gəlmirdi. Hər şeyi başa düşən Namiq arvadının çəmkirməyinə, hətta arabir ərinə bozarmağına belə fikir vermirdi. Bunların səbəbi Turanın cəbhəyə getməsində Nərgizin onu günahkar bilməsi idi. Ona görə də içində Nərgizlə razılaşmaqdan başqa ayrı çıxış yolu görmürdü. Axırda belə bir nəticəyə gəlirdi ki, hər nə cür olursa olsun, Vətən torpağı son damla qana kimi yağılardan qorunmalıdır.

Gecə yarı olardı, darvazanın döyülməsinə Namiq «Gəldim!» deyərək paltarını geyinib tələsik qapıya – çölə çıxdı və darvazanı açdı. Oğlu Turanı və yanında iki nəfər əsgəri gördü. Əsgərlərlə görüşdü və «İçəri gəlin!» deyib tez evə qayıtdı ki, Nərgizi oyatsın.

Tələsik paltarını geyinən Nərgiz qapıda dayanmış əsgərləri görəndə ilk baxışda çaşsa da, Turanı görən kimi özünü ələ alıb oğlunu qucaqladı:

– Anan sənə qurban, nə yaxşı gəldin? Qucaqlayıb Turanın üzündən öpdü və çönüb o biri əsgərlərlə də görüşüb «Xoş gəlmisiniz, keçin içəri» dedi. Nərgiz tez qaz sobasının xodunu artırdı, mətbəxə keçib çaydanı doldurub çay qoydu. Qonaqların yanına qayıtdı. Əsgərlərin üzlərini tüklü görüb «Üzünüzü niyə qırxmırsınız, ay bala?» deyərək Turanın üzünə baxdı.

– Ay ana vaxt yoxdur. Orda üz qırxmaq yada düşür? – Turan anasına cavab verdi.

– Ay bala, qoy su qaynasın beş dəqiqədə üzünüzü təmizləyin.

– Yox ana, lazım deyil! Bir stəkan çay içib gedirik. Turan dedi.

– Bıy, o nə deməkdir? Su qızsın, beçə kəsirəm. Yeyin, sonra gedərsiniz. Gör nə vaxtdan gəlmirsən, ay bala?

– Dedim ki, heç bir şey lazım deyil. Başqa yerdən gəlirdik, yolumuzun ağzı idi deyə, dedim bir sizə dəyim, sonra gedək.

– Başqa yer deyəndə, yəni hardan gəlirsiniz? Namiq soruşdu.

– Yoxsa, olmaya, ay oğul…Nərgizi yaş boğduğuna görə sözünü tamamlaya bilmədi.

– Ana, bir yaxşı əsgərimiz şəhid oldu. Onun cənazəsini aparmışdıq. Qonşu rayondan idi. İmişlidən. Bu gün dəfn etdik. Ordan gəlirdik. Yoldaşlara dedim ki, burda anama-atama toxunum, sonra gedərik.

– Ay bala, başınıza dönüm, özünüzü qoruyun. Nərgiz gözlərini sildi.

– Nərgiz, çay qaynayıbsa uşaqlara bir stəkan çay ver. Soyuqdan gəliblər, – Namiq dedi. Nərgiz tez mətbəxə keçdi.

– Turan, yəni ermənini qova bilmirsiniz?

– Dədə, elə danışırsan, elə bil erməni orada qoyun otarır. Ölənlərdən görürük ki, vuruşanın çoxu xarici ölkə vətəndaşıdır. Suriyadan, Rusiyadan, Fransadan, Amerikadan... nə bilim haradan gəlmiş müxtəlif millətlərdir.

– Hə, həm din qardaşlarıdır, həm də muzdlulardır. Namiq dedi.

– Ruslar daha çoxluq təşkil edir. Komandirlərin də əksəriyyəti ruslardır, dədə.

– Onda vəziyyətimiz çətindir?

– Nəyə görə deyirsən, dədə?

– Bilirsən, Turan, sən bilmirsən bala. Rus məsələyə qarışdısa, çətindi. Qarabağı ermənivə verməyə Qorbaçov söz vermişdi. Onun üçün də məsələ bu yerə gəlib çıxdı.

Nərgiz mürəbbəli çay gətirdi.

– İçin, qadanızı alım. Ay oğul, niyə qoymadın yemək hazırlayım? Bu uşaqlar birinci dəfədir ki, bizim evə gəliblər. Nərgiz narazılığını bildirdi.

– Ana, qoy ermənilərі yerində otuzduraq, ondan sonra tez-tez gələrik.

– Allah qoysa, ay oğul. Allah üstünüzdə yar olsun, ay balalarım. Nərgiz boşalmış stəkanları doldurmaq istəsə də, Turan qoymadı.

– Sağ ol, ana! Biz getməliyik. Turan və yoldaşları ayağa durdular. Namiqlə Nərgiz də Turangillə birlikdə çölə çıxdılar.

– Oğul, özünüzdən muğayat olun! Namiq onunla xudahafizləşən əsgərlərə dedi.

Oğlunu qucaqlayan Nərgiz: «Başına dönüm, ay bala, özünüzdən muğayat olun» dedi və ağlamsındı.

– Maşına oturan Turan: «Ağlama, ana! Gözlə, qayıdacağam», – deyib qapını örtdü.

Namiqlə Nərgiz «QAZ-69»-un qırmızı işığı gözdən itənə kimi maşının arxasınca baxdılar. Sonra darvazanı örtüb evə girdilər.

* * *

Ermənilərin silahlı hücumları nəticəsində boşalmış Azərbaycan kəndlərini televizorda gördükcə Edikin ürəyi köksünə sığmırdı. Hadisələri böyük maraqla izləyən Makar yeriyə bilmədiyi üçün tez-tez kürəkəninə zəng edərək əlavə məlumatlar öyrənirdi. Yenə zəng etdi:

– Ara, Edik, axşam bizə gələrsən. Oğlunu da, arvadını da gətir. Oldumu?

– Yaxşı, gələrik, – dedi Edik.

Axşam Edik Ramella və Hamletlə birlikdə Makargilə gəldilər.

– Xoş gəlmisiniz, oturun. Axçi, Ramella, bir yaxşı yemək hazırla, Siranuşa qalsa, gərək səhəri gözləyək. Görürsən ki, anan tamam əldən düşüb, güclə yeriyir. Mən də ki, çəliyə söykənə-söykənə bir təhər çölə çıxıb içəri girirəm.

Ramella çay hazırlayıb gətirdi və mətbəxə keçdi ki, yemək hazırlasın.

– Ara, Edik, məni apar Qarabağa. O, musurmanlardan heç olmasa bir-ikisini öldürüm.

– Nə demək istəyirsən, Makar dayı. Fikrini açıq de görək. Edik qaynatasının üzünə baxdı.

– Ara, nə deyəcəyəm. Görmürsən, ermənilər azərbaycanlıları Ermənistandan təmiz çıxartdılar. İndi də yavaş-yavaş Azərbaycan torpaqlarını ələ keçirirlər. Nə deyəcəyəm, ermənilərə kömək lazımdır. Görürsən Zador qoca vaxtında arvadı Rozanı da götürüb Qarabağa getdi. Eşitdiyimə görə, Zador çiynində avtomat vuruşur, Roza da döyüşən əsgərlərin yeməyini bişirir. Özün getmirsən getmə, məni

apar ora. O Qarabağa, belə bizim dədə-baba torpağımıza. Əlimə bir avtomat ver. Heç olmasa bir musurman da öldürə bilsəm, həm öz hayıfımı alaram, həm də ermənilərə kömək olar. Onsuz da mənim son günlərimdi.

– Yaxşı, bir şey soruşum, Makar dayı. Sən özün uzun müddət azərbaycanlılarla bir yerdə yaşamısan. Sənə nə pislik eləyiblər ki, onlardan bu qədər hayıflısan? Ramella həmişə onlar – musurmanlar barədə yaxşı sözlər danışır.

– Ramella qələt eləyir. Sən bilməzsən onların mənə elədikləri pisliyi. Ara, elə mən yaşadığım kənddə neçə gözəl-göyçək erməni qızları musurmana ərə gediblər. Bu pislik deyil, bəs nədi? Makar əsəbini cilovlamaq üçün siqaret yandırdı.

– Bu pislikdir, Makar dayı? Erməni qızı özü gedib, yəqin. Adamı zorla almırlar. Musurmanı sevib ona da gedibdir. Həm də burda erməni qızı öz millətinə daha çox yaxşılıq edibdir.

– Ara o yaxşılıq nədir, sən bilirsən biz yox? Makar acıqlı-acıqlı soruşdu.

– Bilmirsən, deyim, acığın niyə tutur? Həmin musurmana gedən erməni qızlarının uşaqları mən inanmıram ki, erməni dayılarına bu gün güllə atsınlar. Eşitməmisən uşaq həmişə dayısının canına and içir.

Edikin sözü Makarın fikrini Ramella Namiq macərasına apardı. Bir anlığa qızının keçmişini xatırlayan Makarın nəzərləri qeyri-ixtiyari Hamletin üstündə dayandı.

– Atanın bu fikrinə sən nə deyirsən, Hamlet bala. Makar nəvəsinin deyəcəyi fikri eşitmək arzusu ilə diqqət kəsildi.

– Baba, atamın sözündə həqiqət var.

Makar içində sevindi və Siranuşa tərəf çöndü:

– Nəvənlə razısanmı, ay arvad? Bu gün musurmana ərə gedən erməni qızlarından doğulan uşaqların erməni dayılarına güllə atmayacaqlarına inanırsanmı?

– Mən də inanıram. Süd güclü olur. Həm də uşaq anasına çox bağlı olduğuna görə ana tərbiyəsi beyninə, qanına daha çox həkk olur. Siranuş inamla ərinə cavab verdi.

– Hamınız bir şeyi unutmusunuz?

– Nəyi? Üçü də birdən dilləndi.

– Vəhşi nə qədər əhliləşdirilsə də, vəhşiliyində qalır. Qan çəkir. Alimlər ona bir cür deyir.

– Gen, baba? – Hamlet tez dilləndi.

– Hə, hə, qurban olum, Hamlet, düz deyirsən, – dedi Makar.

Stola yemək gətirən Ramella:

– Mətbəxdə, sizin danışığınıza fikir verdim, bir şeyi bilmirsiniz. Müharibə heç kimə xeyir vermir. Hələ İkinci Dünya müharibəsinin yaraları tam sağalmayıbdı. Qarabağ məsələsini qaldırdılar. Ermənilər Qarabağda kefləri istədiyi kimi yaşayırdılar. Onlara gözün üstə qaşın var deyən yox idi. Mən oxumuşam, o dediyiniz 1915-ci il məsələsində də günahkar bizimkilər olubdu. Lap deyək ki, ermənilər düz deyir. Dənizdən dənizə erməni torpağı olubdu? Onda indiki Rusiyanın çox hissəsi türklərindir. Hətta türklər Fransaya kimi gediblər. İndi

türklər iddia qaldırsınlar ki, o torpaqları qaytarın, bizimdir. Bir fikirləşin, görün nə qədər gülünc fikirdir. Sizin fikrinizə qalsa, dünya gərək təzədən bölünə.

– Axçi, sənin başın xarab olub. Belə erməni övladı ilə torpaq almaq olar? Belələridi də musurman gədələrinə ərə gedənlər. Makarın sözünə Edik və Hamletin gülməsinə Siranuşla Ramella da qoşuldu.

Makarın qızışdığını görən Ramella « Bilmirəm musurmana ərə getmək nə vaxtdan pis olubdur?» – dedi.

– Axçi, kəs səsini. Qoy çörəyimizi yeyək. Biriki qədəhdən sonra Makar üzünü Ediklə Hamletə tutdu:

– Nə vaxt yola düşürsünüz?

– Üç-dörd günə getməliyik, Edik dedi.

– Ramellanı da aparın.

– Onu nəyə? Edik maraqla soruşdu.

– Ara orada çörəyinizi hazırlayar, paltarınızı yuyar. Burada qalıb nə iş görəcəkdir. Elə etmək lazımdır ki, o torpaqda bizim də yaşamaq haqqımız olsun.

– Hə, Makar dayı düz deyir Hamlet, elə Ramellanı da aparaq.

– Özü gedirsə, aparmaq olar, Hamlet dedi.

– Ramella nə deyirsən? Gedirsənmi?

Edikin sualına Makarla Siranuş daha çox diqqət kəsildilər.

– Hə, gedərəm.

Ramellanın cavabından Makarla Siranuş məmnun qaldıqlarını belə ifadə etdilər.

– Bax, vətəni sevmək buna deyərlər.

Makar qədəhlərə araq süzdü və dedi:

– Bu qədəhləri içək sizin sağlığınıza. Sizə yaxşı yol arzulayıram. Tanrı sizə yar olsun. Böyük Ermənistanın sağlığına. Araq dolu qədəhlər bir-biri ilə toqquşdurularaq başlara qaldırıldı.

* * *

Bir aydan artıq olardı ki, Ediklə Hamlet Qarabağ uğrunda azərbaycanlılara qarşı vuruşurdular. Ata-bala olan bu döyüşçülərin erməni ordusu içərisində xüsusi hörməti var idi. Hətta Ermənistan televiziyası ata-bala döyüşçülər barədə xüsusi veriliş də hazırlamışdı. Ediklə Hamletin vətənpərvərliyi erməni gənclərinə nümunə kimi təqdim edilirdi.

Bir neçə Azərbaycan kəndinin alınmasında, hazırlanan əməliyyatların həyata keçirilməsində Edikin canfəşanlığı diqqətdən yayınmırdı. Qərargah rəisi Edikə təşəkkür etmişdi. Hamletin hazırladığı bir neçə əməliyyatın planı uğurla nəticələnmişdi. Bacarıqlı mütəxəssis kimi Hamletə mayor rütbəsi verilmiş və batalyon komandiri vəzifəsinə irəli çəkilmişdi.

Alınmış Azərbaycan kəndlərinin birində anası Ramellanı yerləşdirən Hamlet tez-tez özü anasını yoxlayar və ərzaq baxımından nə çatıb-çatmadığını öyrənərdi. Əsgər vasitəsi ilə anasına qənd-çay, çörək, vermeşil, düyü, kolbasa, konserv və s. göndərərdi.

Cəbrayıl rayonunun işğalından sonra Edik icazə alıb iki günlük Ramellaya dəyməyə gəlmişdi.

Paltarını dəyişib, yeməyini yeyəndən sonra həyəti gəzdi. Çox səliqəli şəkildə salınmış meyvə ağacları, gül-çiçəklər ev sahibinin səliqəli adam olduğundan xəbər verirdi. Ərinin paltarlarını yuyub məftildən asan Ramella ağacları diqqətlə nəzərdən keçirən Edikə sarı üzünü tutub dedi:

– Görürsən, ağaclar tumurçuqlayıbdı. Bir azdan bu ağaclar yaşıl donunu geyinəcək, gördüyün bu güllər açacaq. Qızıl güllərin ətiri adama ləzzət verəcək. Heç olmasa, evləri yandırmayın, bunların hamısı insan zəhməti deməkdi.

Edik arvadının yanına gəldi, onun saçını sığallayaraq mehribancasına dedi.

– Ramellacan, sən düz deyirsən. Amma müharibənin öz qanunları var. Ola bilsin ki, bu gün bizdə olan kəndi bir neçə gündən sonra azərbaycanlılar geri qaytarsınlar. Onda onlar ev-eşiklərini olduğu kimi görsələr, bizi axmaq adlandırarlar.

– Edik, mən onları tanıyıram. Onlar dağıdılmamış evlər üçün heç vaxt siz ermənilərə axmaq deməzlər. Vallah, onlar çox yaxşı adamlardı.

– Ramella, sən həmişə azərbaycanlıları tərifləyirsən, onlara yaxşı adam deyirsən. Bu fikrin nə ilə bağlıdır?

– Edik, mən onlarla bir kənddə yaşamışam, bir məktəbdə oxumuşam. Heç vaxt nə atam, nə anam, nə də özüm onlardan bir pislik görməmişik.

– Bəs onda Makar dayı nə üçün deyirdi ki, onlar mənə o qədər pislik ediblər.

– Yalan deyir. Atam da onların həmişə xətrini istəyirdi. Məktəbimizin direktoru atamı bir dəfə yanına çağırmışdı. Onunla söhbət edəndən sonra kişi-

nin beyni bax sənin beynin kimi tamam zəhərləndi. O söhbətdən sonra kişi sənin kimi Böyük Ermənistan xəstəliyinə tutuldu.

– İndi sən deyirsən ki, atan da, mən də, Hamlet də xəstəyik? Edik arvadına acıqlı-acıqlı baxdı. Etirazını baxışları ilə ifadə edən Edik hələ neçə illəri birgə yaşadıqları vaxtda, bir dəfə də olsun Ramellanın xətrinə dəyməmişdi, nə də onun fikrinə qarşı heç vaxt etiraz etməmişdi. Həmişə arvadının fikirlərinə hörmətlə yanaşan Edik indi onunla razılaşmırdı. Ramellanı dəlicəsinə sevməsəydi, bəlkə də, yerindəcə güllələyərdi.

– Mən düz deyirəm. Atam da, sən də və Qarabağ eşqinə düşən bütün ermənilər də xəstədir. Ermənilərin başbilənləri bir həqiqəti gizlədirlər.

– Ramella, o hansı həqiqətdir? Edik maraq dolu baxışlarla arvadının cavabını gözlədi.

– Edik, həqiqət ondan ibarətdir ki, ermənilər Qarabağa gəlmədilər. Çarizm tərəfindən Azərbaycan torpağında vaxtilə məskunlaşdırılıblar. Azərbaycanlılar dedikləri kimi, yersiz gəldi, yerli qaçdı. Edik, dəqiq bir məsələni bilin, mən azərbaycanlıların mərdliyinə, qeyrətinə bələdəm. Bayaq dediyim kimi, onların içində iyirmi ilə yaxın yaşamışam. Siz ermənilər bax bu gördüyün Azərbaycan torpaqlarını alsanız da, bütün azərbaycanlıları qırıb qurtarsanız da, əgər bir azərbaycanlı sağ qalsa, bilin və açın qulağınızı eşidin, yenə bu torpaqları sizə verməyəcəklər. Çünki bu torpaqlar onların ata-baba yurdlarıdır. Həqiqət bundan ibarətdir. Havayı yerə bu qədər insanları qırğına verməyin, bu qədər nahaq qan tökməyin. Bunu Allah götürməz. Azərbaycanlıların

da, ermənilərin də Allahı birdir. Nahaq qan yerdə qalmaz.

Edik iki gün bundan əvvəlki hadisəni Ramellaya danışmağa başladı.

– Axçi, sən də musurman qocaları kimi dedin.

– Musurman qocaları nə demişdi? – Ramella maraqla soruşdu.

– Bura gəlməmişdən iki gün qabaq bir musurman kəndinə girdik və evlərdə bir-iki qocaya rast gəldik. Əsgərlər dedilər dəyməyin, onsuz da acından özləri öləcəkdir. Mən razılaşmadım. Qocaları bir yerə gətirib dedim ki, kim desə ki, Qarabağ ermənilərindir, həmin adam sağ qalacaq. Heç birisi demədi. Biri dedi ki, erməni, Qarabağ sizin yox, bizimdir. Biz şərəfsiz ölmək istəmirik. Gec-tez torpaqları qaytaracağıq. Siz hörmət bilən millət deyilsiniz. Bizim oğullarımız elə oğul deyil ki, bizim qanımızı sizə bağışlaya. Nə bilirsiniz eliyin. Qocanın sözündən hirsləndim və: «Qoca kaftar, gəlsin görüm sənin qanını kim məndən alacaq?» – deyib hərəsini bir ağaca bağlayıb benzin töküb od vurdum.

– Allahdan qorxmadın? Ramella əsəbi dedi.

– Axçi, bir ayağı gora titrəyir, hələ deyir ki, Qarabağ bizimdir.

– Bəs mən sənə dedim də, o millətin xasiyyətini. Onlar mərd, ölümün gözünə dik baxan millətdir. Ölüm ayağında o qocalar sənə yalvardılarmı? Amma düzünü de ha.

– Yox, yalvarmadılar, hətta onları ağaca bağlayanda biri üzümə tüpürdü və dedi:

– Tüpürüm sənin erməni üzünə. Siz həmişə beləsiniz, çörəyi dizinin üstündə millətsiniz.

– Gördünmü, mən düz deyirəm. İnsanı diri-diri yandırmaq ağlasığmaz vəhşilikdir. Onların qarğışı yəqin ki, səni tutacaq, – deyən Ramella evə sarı getdi.

Arvadının sözündən sonra içində bir səksəkə yaranan Edik xeyli fikrə getdi, sonra bir az gəzinib Ramellanın hazırladığı günorta yeməyini yemək üçün evə doğru addımladı.

Axşam qapıda dayanan maşın siqnal verdi. Bu Edik üçün idi. Edik avtomatını çiyninə keçirib onunla qapıya çıxan Ramellanı öpərək dedi:

– Axçi, qorxub eləmə, qonşuluqda sənin kimi döyüşçü arvadları çoxdur. Həm də bu kənd bizdədir. Döyüş də bu kənddən çox aralıda gedir. Müharibədir, hər şey ola bilər. Düzünü deyim ki, Ramella heç ayaqlarım getmir, zorla gedirəm.

– Getmək istəmirsən, getmə. Kimdi səni məcbur eləyən. Hamlet vuruşur də.

– Axçi, az qalıb Qarabağı almağa. Gör Azərbaycanın neçə rayonunu almışıq, amma sən heç sevinmirsən?

– Edik özgə atına minən tez düşər. Özündən muğayat ol. Çalış sağ qalasan ki, Böyük Ermənistanı görə biləsən, – deyən Ramellanın sözlərindəki kinayəyə fikir verməyən Edik Ramellanın boynunu qucaqlayıb üzündən öpdü və dedi:

– Axçi, ağzına qurban olum. Belə söz de ki, adamın ürəyi yuxarı olsun. İndi qələt eləyir, mənə güllə yaxın gəldiyi yerdə. Gözlə, qayıdacağam! Böyük Ermənistanın yarandığı günü sənlə birgə qeyd edəcəyik. Salamat qal! – deyən Edik onu gözləyən maşına oturub yola düşdü. Maşının arxasınca

baxan Ramella öz-özünə: «Yazıq zavallı, bilmir ki, mən ürəyimi Azərbaycanda qoymuşam. Onlara olan sevgimə görə qızlıq şərəfimdən də keçmişəm. Bu bədbəxt elə bilir ki, bunu çox istədiyim üçün onun dalına düşüb bura gəlmişəm. Daha bilmir ki, mənim bura gəlməkdə məqsədim gəncliyimə, sevgimə boylanmaqdır. Eh, nə bilim, taledir də…» deyərək yanaqları aşağı axan göz yaşlarını silərək otağa qayıtdı.

* * *

Gecədir. Baharın ilıq nəfəsi duyulur. Ətrafa zülmət qaranlıqla bərabər bir ölüm sükutu çökübdür. Kəşfiyyat xəbər gətirib ki, səhərə yaxın ermənilərin kəndə hücumu gözlənilir. Azərbaycanlılar ermənilər qabaqlamaq məqsədi ilə hücuma keçməyi planlaşdırıblar. Ermənilər çaş-baş salmaq məqsədi ilə müxtəlif istiqamətdən hücuma hazırlaşan azərbaycanlılar qəflətən eyni vaxtda hücuma keçdilər. Gözlənilməz hücumdan özlərini itirən erməni əsgərlərinin mövqeyi az bir vaxtda məhv edildi. Atəş səsləri kəsildi. Səhərin açılmasını gözləyən azərbaycanlılar ərazini nəzərdən keçirməyə başladılar. Demək olar ki, ermənilərdən sağ qalan olmamışdı. Sağ qalan var idisə də, qaçıb aradan çıxmışdı. Zarımaq səsi eşidən Turan yanındakı əsgərə dedi ki, ehtiyatla hərlən, gör səs hardan gəlir? Birdən bizimkilərdən olar. Mən gözləyirəm. Əsgər geri qayıtdı və dedi ki, erməni əsgəridi. Ağır yaralanıbdı. İstədim öldürəm, sonra fikirləşdim ki, güllə hayıfdır, onsuz da özü öləcəkdir.

– Yaxşı eləyib öldürməmisən. Gedək onun yanına. Həm yeni məlumat öyrənərik, həm də lazım olsa dəyişərik, – deyən Turan əsgərlə birlikdə yaralının yanına getdilər. Yaralı erməni əsgəri Azərbaycan əsgərlərini görən kimi başladı yalvarmağa.

– Ara, başınıza dönüm, mənim oğlum komandirdi.

– Kimdir oğlun? Turan dilləndi.

– Baqdasaryan Hamlet. Mayordur. Əlaqə saxlayın, nə qədər desəniz, pul verəcəkdir. Nə desəniz, eləyəcəkdir. Qurban olum, qoymayın ölüm, yalvarıram.

– Eşitmişəm, Turan dedi.

– Hə, başına dönüm, əlaqə saxlayın. Edik sürünərək Turanın ayaqlarını qucaqladı.

Turan yanındakı əsgərlə köməkləşib Ediki xeyli piyada apardılar. Sonra maşına qoyub həkim məntəqəsinə yola düşdülər. Həkim ilk tibbi yardım göstərdi. Sonra çölə çıxıb Turana dedi ki, çox yaşasa, dörd-beş gün ancaq yaşaya bilər. Məqsədiniz nədirsə, tez eləyin. Hamletlə əlaqə yaradıldı. Bilində ki, atası yaralıdır, özü də əsir düşübdü, dünya başına fırlandı. Xahiş etdi, yalvardı ki, qoymayın ölməyə, nə şərt desəniz razıyıq.

– Şərtimiz belədir. Sizin tərəfdə qalan üç əsgərin nəşini, əsir düşmüş Hafiz Məmmədovu, Aslan Hüseynlini və Dadaş Bağırlını axşama kimi versəniz razıyıq Baqdasaryanı qaytarmağa. Tibbi yardım da göstərilibdi. Səhərə qalsa, razı deyilik.

Bir az keçmiş əlaqə yaradıldı. Bitərəf zona təyin olundu, vaxt dəqiqləşdirildi.

Turan bir neçə silahlı əsgərlə xəstə erməni əsgərini maşına qoyub deyilən yerə yollandı.

– Mayor Hamlet Baqdasaryan mənəm. Zabit özünü qarşısındakına təqdim etdi.

– Azərbaycan əsgəri Turan Osmanlı da mənəm.

Hamletlə Turan bir-birini görən kimi nədənsə özləri də hiss etmədən bir-birinə qanları qaynadı. Biri o birisinə qarşı bir doğmalıq hiss etdi. Kənarda silahlı dayanıb baxan əsgərlərdə bir təəccüb yarandı. Hər iki tərəfdə hazır vəziyyətdə dayanmış əsgər yanındakı əsgərə pıçıldadı: «Adam adama bu qədər oxşayarmı? Elə bil ekizdirlər».

Azərbaycanlılar Edik Baqdasaryanı təhvil verib əvəzində əsirləri və meyitləri aldılar.

Geri qayıdan Hamletlə Turan ayrı-ayrılıqda düşünürdülər: «Bu nə sirr idi. Düşməni qucaqlamaqdan özümü güclə saxladım. Ürəyimə damıb ki, burda nəsə var. Eh, nə olacaq. Mən də lap uşaq kimi fikirləşirəm. Yox bir doğmaca qardaşıq. Gülməli şeylər fikirləşirəm».

* * *

Hamlet Ediki təcili xəstəxanaya çatdırdı. Sürücüyə tez gedib anasını gətirməyi tapşırdı. Həkimlər xəstənin Edik Baqdasaryan olduğunu bilən kimi daha böyük hörmətlə yanaşmağa başladılar. Çünki Edik və oğlu haqqında çəkilmiş verilişə bir neçə dəfə televizorda baxmışdılar. Xəstəni təcili əməliyyat otağına apardılar.

Ramella ilə Hamlet həyəcan içərisində qapıda gözləyirdilər. Əməliyyat uzun çəkdi. Nəhayət tibb bacısı Ramellaya yaxınlaşdı və dedi: «Əməliyyat qurtardı. Bu dəqiqə xəstəni palataya köçürdəcəklər».

Xəstəni arabada gətirən tibb bacısına yaxınlaşan Hamletlə Ramellaya həkim qəti tapşırdı: «Olmaz»!

– Həkim, yanında qalaq? – Hamlet dedi.

– Cənab mayor, olmaz. Biz Baqdasaryanı sizdən az istəmirik. O, bütün Ermənistanın fəxridir. O cümlədən, siz özünüz də. Səhərə yaxın ayılacaqdır. Səhər ananız qalar. Gedin evinizə.

Həkimin sözundən sonra Hamletlə Ramella maşına oturub evə getdilər. Adama bir stəkan çay içib ana-bala dinib-danışmadan hər kəs öz yerinə girdi.

Səhər palatanın qapısından içəri daxil olan Ramella ilə Hamlet Ediki ayılmış vəziyyətdə gördülər. Xəstənin vəziyyətini soruşsalar da, bir cavab eşitmədilər. Ramella arabir Edikin sinəsinin qalxıb enməsini, rənginin ağarmasını gördükdə çönüb Hamletə baxdı. Hamletin gözlərinin dolması Ramellanı da kövrəltdi.

– Yaxşı ana, sən qal, mən imkanlaşdıra bilsəm, axşam gələrəm. İşdi gəlməsəm, səhər hökmən gələcəyəm. Hamlet qapıya doğru yönəldi.

– Get, oğlum, get! Özündən muğayat ol! Daha mən burdayam. Ramella Hamleti yola saldı.

Hamlet gedəndən sonra Ramella stulu xəstənin yanına qoyub əyləşdi. Birdən xəstənin «su, su!» dediyini eşitdi. Ramella tibb bacısının yanına yüyü-

rüb bir az pambıq aldı və qayıtdı. Termosdan nəlbəkiyə çay tökdü və pambığı isladıb xəstənin dodaqlarını silməyə başladı. Arabir «Edik, gözlərini aç, mənəm, Ramellayam», – desə də, xəstədən bir hay çıxmırdı. Şər qarışana yaxın xəstə gözlərini açdı. Ramellanı görəndə sifətində bir sevinc işığı göründü və «Sən düz deyirmişsən, Ramella» dedi.

– Nəyi deyirsən Edik? Ramella soruşdu.

– Məni o qocaların ahı tutdu. Mən düz eləmədim.

– Danışma Edik. Mən sənə demişdim. Daha gecdir. Ramella əlindəki pambıqla xəstənin dodaqlarını islatdı.

– Susuzluqdan ciyərim yanır, Ramella. Bir az su ver içim. Xəstənin sözlərində olan yalvarış Ramellanı kövrəltdi.

– Olmaz, Edik! Həkim icazə vermir. Sağalanda çoxlu içərsən.

– Onsuz da mən sağalmayacağam. Bilirəm, axırım çatıbdı. Ramella Hamleti də başa sal, çıxın gedin evimizə. Beş-on günlük ömrünüzü rahat başa vurun. Hamleti evləndir, vaxtı keçir.

– Niyə sən evləndirmirsən, sənə nə olub?

– Yox, Ramella, mənim axırım çatıbdır. Qoy rədd olsun onun Qarabağı, kimindir gəlsin aparsın. Sən düz deyirsənmiş. Əvvəldən sənin sözünə baxmadım. Deyərsən Makar dayı, Edik öldü, gəl Qarabağda rahat yaşa.

– Yaxşı, dincəl, Edik. Sənə çox danışmaq olmaz.

Xəstə gözlərini yumdu. Ramella həkimin yanına getdi və Edikin vəziyyəti ilə maraqlandı.

– Həkim, düzünü deyin, xəstənin yaşamaq şansı varmı?

– Hələ bir söz deyə bilmərəm. Daxili orqanları çox zədələnibdi. Bu gecədən çıxsa, bir fikir söyləmək olar.

– Əsas bu gecədir? Bu gecəni gözləyək?

– Bəli, bu gecəni gözləyin. Xəstəni çox narahat etməyin. İmkan daxilində çalışın, xəstə danışmasın. Onun üçün də xəstənin gözünə az görünməyə çalışın, dedi həkim.

Həkimin sözlərindən sonra xəstəxananın dəhlizində gəzinən Ramella tibb bacıları ilə söhbət edib vaxtı öldürməyə çalışdı. Gecə yarı palataya daxil olan Ramella Edikin yuxuya getdiyini görüb, özü də boş çarpayıya uzanıb mürgüləməyə başladı. Səhərə yaxın oyanan Ramella işığı yandırıb çarpayıya baxanda Edikin boynunun yana düşdüyünü, qollarının isə çarpayıdan sallandığını görcək özünü növbətçi həkimin otağına saldı və: «Xəstənin vəziyyəti ağırdır», – dedi.

Həkim və tibb bacısı özlərini hövlnak palataya saldılar. Həkim tez xəstənin sallanmış qolunun nəbzini tutdu və Ramellanın ağlayan gözlərinə baxıb başını buladı.

* * *

Turan müharibəyə gedəndən Nərgizin gecəsi-gündüzü yox idi. Düzdü, arabir Turan evə gəlib valideynləri ilə görüşürdü. Bilirdi ki, anası ondan ötrü çox nigarandır. Amma bu Nərgizin ürəyincə deyildi. Nərgiz istəyirdi ki, gözünün ağı-qarası həmişə yanında, gözü önündə olsun. Bu gün yenə

fikri qarışmışdı. Ürəyi yaman səksəkəli olmuşdu. Axşam ərinin çay-çörəyini verdi, süfrəni yığışdırıb yatmağa getdi. Qızı Solmaz anasının otağına keçdi:

– Ana, ağrıyırsan?

– Yox, qızım. Bilmirəm nədisə tezdən halım özümdə deyil, ürəyim sıxılır.

– Ana, bu dəqiqə dərman gətirirəm, – deyən Solmaz qaçaraq o biri otağa keçdi və əlində «Validol» geri qayıtdı.

– Ana, al iç, bu dəqiqə yaxşılaşacaqsan.

Nərgiz qızının uzatdığı dərmanı alıb içdi və «Günün ağ olsun, a bala» deyib yorğanı başına çəkdi.

Namiq arvadının dərdini bilirdi. Qızının yanında özünü soyuqqanlı göstərirdi. Namiqə aydın idi ki, Turanın cəbhəyə getməsində arvadı onu günahkar bilir. Bilirdi ki, Nərgiz hər an cəbhədən, oğlu Turandan nigarandır.

Namiq bir az çöldə hərlənib, sonra gəlib televizora baxdı. Ürəyinə yaxın bir veriliş olmadığı üçün televizoru söndürüb yatmaq üçün otağına keçdi.

Gecə yarıdan keçmiş Nərgizin çığırtısına Namiq dik atıldı. Namiq tez Nərgizə su gətirdi və «Al iç, dedi». Nərgiz suyu alıb içdi və stəkanı ərinə uzatdı. Namiq stəkanı mətbəxə qoyub otağa qayıtdı və arvadının yanında oturdu.

– Yuxuda nə gördün ki, qışqırdın?

– Namiq, uşağın başında nəsə var. Dilim-ağzım qurusun. Bu gün elə hey ürəyim az qalıb ki, köksündən çıxsın.

– Yəqin soyuqlamısan. Həm də həmişə Turanı fikirləşirsən deyə sənə elə gəlir. Minlərlə oğlanlar cəbhədə vuruşur. Bəs onların anası ana deyil?

– Pis yuxu görmüşəm. Gördüm bir bədheybət heyvan uşağımı qovur. Turan gördü ki, heyvandan canını qurtara bilmir, özünü uçuruma tulladı. Nə qədər səslədim, hay verən olmadı.

– Yuxudu də. Yuxuda olanlar həyatda olur məgər? Fikirli yatmısan, ona görə də yuxunu qarışdırmısan. Dur yat. Heç bir şey yoxdur, deyən Namiq arvadına təskinlik versə də, Nərgizin narahatçılığı artıq ona da keçmişdi. Namiq yerinə girsə də, hiss edirdi ki, yaman narahatdır. Elə bil havası çatmır. Gözünü yummaq istəyəndə elə bil onu boğurdular. Gördü yata bilmir, paltarını geyinib qapıya çıxdı. Bir az hərlənib gəlib yenidən yatağına girdi.

Səhər açıldı. Kimi işə getdi, kimi mal-qoyununu nobata qatmaq üçün hayladı. Nərgiz də inəkləri sağdı və buzovları tutub bağladı. Süd dolu vedrəni əlinə alıb evə girdi. Namiq malları açıb qabağına qatdı və darvazadan çölə hayladı. Malları aparıb nobata qatıb geri qayıtdı. Qapıya çatmışdı ki, «UAZ» markalı bir maşın Namiqlə dabanbasaraq qapıya çatdı. Maşında əyləşmiş hərbi geyimli adamın «Namiq Osmanlının evi buradır?» deməsi ilə Namiqin yerə çökməsi bir anda baş verdi. Hərbiçi tez maşından aşağı düşdü və Namiqin qoluna girib ayağa qaldırdı.

– Düzünü deyin, nə olub? Namiq hərbiçinin sifətindəki çaşqınlığı sezdi və yenidən yerə çökdü.

Hərbiçilər bir-birinin üzünə baxdılar və bir azdan biri: «Başınız sağ olsun, əmi. Turan bir rotanı

xilas etdi, özü isə qəhrəmancasına …..» sözünün arxasını gətirə bilməyən hərbiçi, başını aşağı saldı.

Qapıda gələn səsə Nərgiz darvazanı açıb çölə çıxdı. Qapının ağzında Namiqi yerə çöməlmiş, hərbiçilərin isə sakit-sakit bir-birinin üzünə baxdığını və maşını görən Nərgizin «Balam, v..a..y! ! !» deyib özündən getməsi bir göz qırpımında oldu. Səsə qonum-qonşu tökülüb gəldi. Deyirlər ölünün atı yüyrək olur. Bir saat keçməmiş bütün kənd tökülüb gəldi. «Təcili yardım» maşını Nərgizin vəziyyətinin ağırlaşdığını nəzərə alaraq onu rayon xəstəxanasına apardı. Cavanlar tökülüb mağar qurdular. El-oba hər şeyi yerli-yerində hazırladı. Günortadan keçmiş bütün Gültəpə kəndi öz ilk şəhid oğlunu əbədiyyətə yola saldı. Məzarın üstündə yaylım atəşi açıldı. Komandir vida sözü söylədi:

– Hörmətli Gültəpə sakinləri! Bu gün tək sizin üçün yox, Vətən üçün, biz əsgərlər üçün ağır və hüznlü gündür. Turan Osmanlı kimi bir qəhrəman oğulla vidalaşırıq. Turan cismən bizimlə olmasa da, ruhən həmişə bizimlədir.

Turan çox şərəfli bir döyüş yolu keçibdir. Axırıncı döyüş zamanı rotanın mühasirəyə düşməməsi üçün özünü qurban verdi. Komandanlıq Turan Osmanlını göstərdiyi şücaətə görə vətənimizin ən yüksək, şərəfli fəxri adına – Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməsi üçün məsələ qaldırıb.

Turan gültəpəlilərə, valideynlərinə baş ucalığı gətirdi. O, öz əməli ilə adını əbədi olaraq vətən tarixinə yazdı. Belə oğullar heç vaxt unudulmur!

Kəndin ağsaqqalları, rayon rəhbərliyi, oxuduğu məktəbin müəllimləri və başqaları vida sözü söylədilər.

Axırda söz Namiqə verildi. Namiq onun dərdinə şərik olmaq üçün yığılmış camaatı nəzərdən keçirib sözə başladı:

– Dəfndə iştirak edənlərə öz minnətdarlığımı bildirirəm. Mənim dərdimə şərik olmaq üçün mənimlə birgə bura gəlmisiniz. Hamımız bilməliyik ki, oğul doğulanda vətən üçün doğulur. Bax bu gün üçün. Mənim bir oğlum var idi, vətən yolunda qurban getdi. Erməni elə bilməsin ki, Turanın qanı batacaqdır, xeyr! Oğlumun, qırx mərasimini verəndən sonra onun qisasını və şəhidlərimizin heyfini almaq üçün mən də cəbhəyə gedəcəyəm. Ermənilər bilməlidirlər ki, azərbaycanlılar torpaqlarını son damla qanlarına kimi qoruyacaqdır.

Rahat yat oğul! Atan sənin və sənin kimi şəhid oğullarımızın qisasını alacaqdır!

Turanın qırx mərasimini verəndən sonra Namiq arvadını və qızını yanına çağırıb dedi:

– Mən cəbhəyə yola düşürəm.

– Ata, qardaşım getdi. İndi də sən gedirsən, bəs bizi başsız qoyursan? Solmaz atasının boynunu qucaqladı.

– Ağlama, qızım. Turanın qisasını alım, ondan sonra bəlkə də qayıtdım. Solmaz, sən anana həyan ol.

Nərgiz isə gözlərindən yanaqları aşağı axan yaşı silmirdi. Lal-dinməz ərinin qızı ilə olan söhbətinə qulaq asırdı.

Qızı ilə xudahafizləşən Namiq Nərgizin bulud kimi tutulmuş sifətinə baxdı və saçlarını sığallayaraq dedi:

– Gözlə, qayıdacağam!..

– Turan da gedəndə «Gözlə, qayıdacağam!» demişdi, – deyən Nərgiz başını yana çevirdi.

* * *

Namiq bir neçə döyüşdə iştirak etmişdi. Sərrast atıcı və cəsur döyüşçü kimi əsgərlər yanında böyük hörmət qazanmışdı. Hamı ona «dayı» deyə müraciət edirdi. Namiq yaşca əsgərlərdən çox böyük idi. Komandir ona çətin əməliyyatlarda iştirak etməyə icazə verməsə də, Namiq heç kimlə razılaşmır və əməliyyatların hamısında iştirak edirdi. Rotada hamı bilirdi ki, Namiqin oğlu vətən yolunda şəhid olub, ölümündən sonra Milli Qəhrəman adına layiq görülübdü. Dayı oğlunun qisasını almaq üçün cəbhəyə gəlibdir. Hətta bir neçə dəfə komandir Namiq ilə təklikdə söhbət etmişdi ki, döyüş zamanı xeyli erməni əsgəri öldürmüsən. Öz oğlundan əlavə neçə şəhidimizin qisasını da almısan. Evinizə qayıtsanız, yaxşıdır. Lakin Namiq, – Oğlumun qisasını aldım, amma Qarabağı qaytarmamışıq. Qarabağı qaytaranda siz deməsəniz də, özüm silahı yerə qoyacağam, – cavabını vermişdi. Daha bu söhbətdən sonra dayıya heç kim bir söz demədi və beləliklə, Namiq hər bir əməliyyatda hamı ilə birlikdə iştirak edirdi.

Ağdam uğrunda gedən ağır döyüşlərin birində hər iki tərəf çox itki verdi. Namiq yaralandığı üçün bir neçə yaralı ilə birlikdə əsir düşdü. Namiqgili gə-

tirib bir mal tövləsinə saldılar. Həkim gəldi baxdı. Saqqallılardan biri həkimə dedi ki, bunları müalicə et. Bəlkə dəyişdik, lazım olarlar. Öldürmək lazım olsa əlimizdədirlər.

Həkim dərman qoydu, yaralıların yarasını sarıdı. Ağır olanların əməliyyat üçün göndərilməsini məsləhət bildi. Namiq qalası oldu. Bir aya yaxın olardı ki, Namiq əsirlik həyatı yaşayırdı. Yarası babatlaşmışdı. Bir gün bir zabit həkimlə içəri girdi. Həkim əsirlərin yaralarını nəzərdən keçirib üç nəfəri göstərdi zabitə. Zabit həmin üç nəfəri Namiq də olmaq şərti ilə maşına mindirib yola saldı. Maşın Ağdama çatıb bir yaxşı evin yanında dayandı. Əsirlərə yerə düşmək əmri verildi. Bu vaxt bir mayor dayanan «QAZ-69»-dan yerə düşdü və zabitə yaxınlaşdı.

Zabit əlini qulağının dibinə qaldıraraq:

– Cənab mayor, bu üç nəfəri gətirmişəm, – dedi və kənarda dayanmış əsirləri göstərdi.

Mayor kənarda dayanmış əsirləri nəzərdən keçirdi. Bu zaman mayorla Namiqin baxışları toqquşdu. Mayorun içindən bir titrəyiş keçdi. Əsirə qarşı özündə bir doğmalıq hiss etdi.

Mayorun baxışları Namiqi də silkələdi: «Gör mən nə axmaq şeylər barədə düşünürəm. Bunların yaxşısının atasına lənət. Bəlkə də, bizi burda işgəncə verməyə gətiriblər», – fikri qəlbindən keçən məqamda onları gətirən zabit dedi:

– İndi maşın gələcək. Bu evi söküb maşına yükləyərsiniz. Birdən qaçmaq və başqa bir fikrə düşərsiniz. O saat güllənəcəksiniz. Səliqəli sökün. Bu materialları aparıb istifadə edəcəyik. Zabit

əsirlərə lazım olan alətləri verdirdi və özü də maşında oturub nəzarət etməyə başladı.

Günortaya yaxın maşın sökülmüş tikinti materialları ilə dolmuşdu. Mayor gəldi. Zabitə nə dedisə, çıxıb getdi. Zabit yüklənmiş maşın və əsirlərlə birlikdə yola düşdü. Sökülmüş materialları bir evin həyətinə boşaldıb yenidən qayıtdılar. Bu minvalla iki yaxşı evi söküb həmin yerə apardılar. Hörgü, suvaq işi bacaran əsirlərdən köməyə gətirdilər. Tez bir zamanda evin həyətinə gözəl bir barı çəkildi və bir qaraj, əl damı və s. tikildi. Mayor gəlib baxdı, razılıqla gülümsündü. Əsirlərin içərisində yenə baxışları Namiqə ilişdi. Mayor zabitə dedi ki, axşam əsirləri aparanda o əsir qoy qalsın. Buralarda işləsin.

– Oldu, cənab mayor! – Zabit dedi.

Axşam iş qurtaranda əsirləri apardılar. Namiq isə qaldı. Mayor dedi:

– Bax, təzə tikilmiş əl damını göstərdi. Orada yatarsan. Bu qapıda, həyətdə səliqə yaradacaqsan. Ağaclara qulluq edərsən. Bir də evdən sənə nə desələr, onu yerinə yetirərsən.

– Oldu! Baş üstə! Namiq dedi.

Namiq on günə yaxın idi ki, burada yaşayırdı. Qapıda yaxşı səliqə yaratmışdı. Evdə isə hələ ki, heç kim gözə dəyməmişdi. Bu müddət ərzində iki-üç dəfə mayor gəlib həyət-bacaya baş çəkmiş və Namiqlə söhbət etmişdi. Mayor hər dəfə Namiqi gərəndə özündən asılı olmayaraq əsirə qarşı içində bir rəğbət hiss edirdi. Hamlet bu anlaşılmaz duyğudan xilas ola bilmirdi. Namiqin yemək-içməyi də yaxşı idi. Demək olar ki, yaxşılaşmışdı. Darvazanın

qapısı daimi bağlı olurdu. Açar ancaq mayorda idi. Həm də Namiqə tapşırılmışdı ki, elə bilmə ki, təkcəsən, heç kim yoxdur, qaça bilərsən? Elə fikrə düşmə, bil ki, ev nəzarətdədir.

Gecə darvaza açıldı. Namiqin canına bir üşütmə düşdü. Yəqin gəliblər ya mənə cəza verməyə, ya da məzələnməyə. Nə bilmək olur, amma yox, mayor elə adama oxşamır. Baxışlarından mənə qarşı hörmət hiss edirəm. Hörməti olmasa mənə bu cür yeməklər göndərərdimi? İstədi paltarını geyinib çölə çıxsın. Sonra fikirləşdi ki, bəlkə xəlvət bir işi var, lazım olsa, özü çağırar. Hiss elədi ki, maşın içəri girdi və darvaza bağlandı. Namiq nə vaxt yuxuya getdiyini bilmədi. Səhər qalxıb çölə çıxdı. Gördü maşın gedibdi. Səhər yeməyini yeyib başladı həyətdə işləməyə. Birdən qulağına qadın səsi gəldi. Elə bildi onu qara basır. Dinşədi, gördü yox kimsə onunladı. Çönüb baxanda gözlərinə inanmadı, «Yox, bu ola bilməz! Heç cür ola bilməz!» fikrini beynindən keçirtdiyi məqamda iki qol boynuna dolanaraq «Sənə qurban olum, Namiq! Sən burda neynirsən? Gör tale bizi harada görüşdürdü!» – deyib başladı Namiqi öpüşlərə qərq etməyə. Qorxunu yadından çıxardan Namiq Ramellanı qolları üstə alıb özünün qaldığı yerə gətirdi.

– Yox, Namiq, gedək mənim otağıma. Ramella Namiqin qoluna girib öz otağına apardı.

– Ramella, danış görüm sən buraya haradan gəlib çıxmısan? Yoxsa mən yuxu görürəm, – dedi.

– Namiq, hər şeyi sonra danışacağam. Hələ bir qoy səndən doyum. Hamısı sonra. Ramella Namiqin köynəyinin yaxasını açmağa başladı.

– Yox, Ramella, mayor gələr, dedi.

– Mayor kimdir?

– Buranın sahibini deyirsən?

– Hə.

– Namiq, o mayor sənin doğma oğlundur.

– Necə, mənim oğlumdur? Sevincdən Namiq Ramellanı qucaqlayıb çarpayıya yıxdı.

Ramella Namiqlə sonuncu görüşdən sonra başına gələnlərin hamısını danışdı. Edikin ölməsini, oğlu Hamletin onu özü ilə gətirməsini. Bu kənddə əsgər ailələri çoxdur. Əvvəlcə başqa yerdə qalırdıq. Ora deyəsən uzaq olduğu üçün bura gəldik.

Gecə səhərə kimi heç birisi yatmadı. Dərdləşdilər. Özlərini xoşbəxt hesab etdilər. Yenidən qovuşduqları üçün.

– Ramella, Hamlet bilirmi atasının kim olduğunu?

– Yox, bilmir.

– Görən kimi qanım qaynadı. Hiss elədim ki, onun da mənə qanı qaynayır. Elə o «Qan çəkir» sözü düzdür. O hesaba mən burdayam. Bu da Allahın işidi. Daha doğrusu, möcüzədir.

– Düz deyirsən, Namiq. Bu həyatın möcüzəsidir. Ramella yenidən Namiqə sarıldı.

Ramella Namiqi öz otağında özü ilə birgə yatızdırdı. Xoşbəxtliyin nəşəsindən məst olan sevgililər bütün hər şeyi, qanlı-qadalı müharibəni unutmuşdular. Öz dünyalarına çəkilmişdilər.

Səhərə yaxın Hamlet gəldi. Anasının otağının qapısını döydü. Səs gəlmədiyini görüb qapını açıb otağa daxil oldu. Anasının bir kişi ilə bir yerdə yat-

dığını görəndə bütün hər şey gözündə bir zülmətə çevrildi.

– Q..ə..h..b..ə..! deyib çığıraraq belindəki tapançanı çıxardıb nişan aldı. Ramella ilə Namiq çığırtıya oyandılar. Onlara tuşlanan tapançanı görən Ramellanın «Vurma, vurma!» deməsi ilə özünü Namiqin qarşısına verdiyi bir göz qırpımında baş verdi. Ağ mələfə qırmızı qana boyandı.

– Hamlet, bu, sənin atandır! – deyən Ramella Namiqin qucağına yıxıldı. Əlindəki tapançanı yerə atan Hamlet Ramellanın başını qucağına alaraq çığırdı:

– Nə dedin, ana?

– B…u.., sə…n…in a…t…a…n…dı…r! Özünü itirən Hamlet çönüb Namiqin sifətinə baxdı.

– Bəli, düz deyir! Namiq dedi.

– Bəs onda Edik kimdir, ana? Hamlet Ramellanın üzünə baxdı.

– Onun heç vaxt uşağı olmayıbdı.

– Bunu nə ilə sübut edərsiniz? Hamlet bağırdı.

Birdən nə isə yadına düşən Namiq pencəyinin cibindən hərbi biletini çıxardıb açdı və arasındakı şəkili Hamletə göstərdi. Hamlet şəkili alıb baxdı. Şəkildə anasını, Namiqi və özünün uşaqlıq şəklini görəndə, – demək, mənim atam sizsiniz? – dedi.

– Bu sirri nə üçün indiyə kimi məndən gizlətmisiniz? – deyə soruşdu Hamlet

– Bu uzun məsələdir, oğul. Bunu sonra danışarıq. İndi qoyma anan ölsün, – deyən Namiq Ramellanın yarasını sarıyıb Hamletlə köməkləşib maşına mindirdilər. Maşın sürətlə yerindən tərpəndi. Cəbhə xəttinə yaxın bir yerdə Hamlet maşını saxladı. Tez

bir kağız yazıb Namiqə verdi. Burda ünvan və telefon nömrəsi var. Xarkov şəhərində görüşərik. Əlaqə saxlayarsan. Di cəld burdan xəlvət yolla öz tərəfinizə keçərsən. Bir kilometrə yaxın olar sizin postunuz.

Maşından düşən Namiq rəngi solmuş Ramellanın üzündən öpdü, sonra Hamletə tərəf çöndü və «xüdahafiz» deyib əlini uzatmaq istəyəndə Hamlet «Məni bağışla, ata!» deyərək Namiqin boyununu qucaqlayıb üzündən öpdü.

– Anandan muğayat ol, oğul! – deyən Namiq sürətlə yerindən tərpənən maşının arxasınca baxdı.

15.06.2014 – 22.11.2015

Fazil SƏNAN
(Vəliyev Fazil Şirin oğlu)

Gözlə, qayıdacağam

roman

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Korrektor: Anar FAZİLZADƏ
Operator: Məlahət XƏLİLOVA
Dizayner: Sona İSAYEVA

Yığılmağa verilmişdir: 15.01.2016
Çapa imzalanmışdır: 01.02.2016
Fiziki çap vərəqi: 11,5
Tirajı:500

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

“Gözlə, qayıdacağam” romanı yazıçı-publisist Fazil Sənanın ən iri həcmli əsərlərindən biridir. Əsəsrdə iki gəncin məhəbbət məcaraları ictimai motivlər fonunda öz əksini tapıb. O həmişə oxucularını yeni-yeni əsərlərlə sevindirir.

Yazıçı-publisist Fazil Sənan Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Prezident təqaüdçüsü, Xalq təhsili əlaçısı və “Qızıl qələm” mükafatçısıdır.